Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 04 (6146) 30 yanvar 2026-cı il | Qiyməti 40 qəpik

# DTX əməliyyat keçirdi




**Xarici ölkənin Azərbaycandakı səfirliyinə qarşı terror hücumu etməyə hazırlaşan şəxslər həbs edilib.**

**Bu barədə Adalet.az-a Dövlət Təhlükəsizliyi Xidmətindən məlumat verilib.**

**Bildirilib ki, DTX tərəfindən həyata keçirilmiş əməliyyat-istintaq tədbirləri zamanı Azərbaycan Respublikasının vətəndaşları - 2000-ci il təvəllüdlü, "Abu Zər əl-Mühacir" dini ləqəbli Quliyev İlqar İlham oğlu, 2005-ci il təvəllüdlü, "Abdurəşid" dini ləqəbli Piriyev Amin Elşad oğlu və 2005-ci il təvəllüdlü "Abdurrahman əl-Azəri" dini ləqəbli Əlizadə Elvin Sənan oğlunun dini düşmənçilik zəminində Bakı şəhərində xarici ölkənin səfirliyinə terror hücumu törətməyə hazırlıq görmələrinə əsaslı şübhələr yaranıb. Adıçəkilən şəxslər İŞİD terror təşkilatının "Vilayəti-Xorasan" silahlı qruplaşmasının üzvləri ilə cinayət əlaqəsinə girərək, qabaqcadan əlbir olan bir qrup şəxs halında xarici dövlətin Azərbaycan Respublikasındakı səfirliyinə terror hucumu etmək üçün silah qismində istifadə edilən predmetlər əldə edib səfirliyin yerləşdiyi əraziyə yaxınlaşarkən DTX-nin əməkdaşları tərəfindən saxlanılıblar.**

**Faktla bağlı İlqar Quliyev, Amin Piriyev və Elvin Əlizadə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 28, 214.2.1, 28, 214.2.3 və 28, 214.2.6 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən, silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə, dini düşmənçilik zəminində terrorçuluğa hazırlıq) maddələri ilə cinayət məsuliyyətinə cəlb edilmiş, barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.**

## Vilayət Eyvazov Qəbələdə vətəndaş qəbulu və sıra baxışı keçirəcək



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov fevralın 2-də Qəbələ rayonunda vətəndaş qəbulu və polis orqanları, o cümlədən daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirəcək.**

Bu barədə Adalet.az-a Daxili İşlər Nazirliyindən məlumat verilib.

Bildirilib ki, Qəbələ Rayon Polis Şöbəsinin inzibati binasında baş tutacaq qəbulda Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayonlarının sakinləri iştirak edə bilərlər.

Qəbula yazılmaq istəyən vətəndaşlar Nazirliyin səlahiyyətlərinə aid məsələlərlə bağlı 01.02.2026-cı il tarixinədək yaşadıqları ərazinin polis orqanına, habelə Nazirliyin "E-Polis" mobil tətbiqi, e-xidmet.mia.gov.az elektron xidmət portalı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan namizədlərin sıra baxışı vətəndaş qəbulundan öncə, yəni fevralın 2-də 08:00-da Qəbələ Olimpiya İdman Kompleksində keçiriləcək.

Qeyd edək ki, qəbula və sıra baxışına gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

*Əbülfət MƏDƏTOĞLU*

## KÖÇ

Bax:səh-8

## Əhalinin banklardan asılılığı artıb




**2025-ci ildə Azərbaycan banklarının istehlak kreditləri portfeli 9 milyard 354,2 milyon manata çatıb**

Adalet.az Mərkəzi Bankın statistikasına istinadən xəbər verir ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 909,2 milyon manat və ya 10,8% artım deməkdir. Belə ki, ötən ilin eyni dövründə bankların istehlak kreditləri portfeli 8 milyard 445 milyon manat idi.

Portfelin digər dövrlər üzrə dinamikası da artımı təsdiqləyir. Ötən ilin sonu (8 milyard 445 milyon manat) ilə müqayisədə artım 909,2 milyon manat (10,8%) təşkil edib. Aylıq müqayisədə isə portfel 35,4 milyon manat (0,4%) böyüyüb.

Xatırladaq ki, bankların istehlak kreditləri portfeli ötən ilin dekabrın 1-nə 9 milyard 318,8 milyon manat, 2024-cü ilin sonunda 8 milyard 445 milyon manat təşkil edirdi.

## Ərdoğan: "Türkiyədən Suriyaya 600 min nəfər qayıdıb"



**Milyonlarla suriyalı qaçqın vətənlərinə qayıdıb, onlardan 600 mini bizim ölkədəndir.**

Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

"Keçmiş rejimin bombaları nəticəsində xarabalığa çevrilən yaşayış məntəqələrində böyük bir yenidənqurma kampaniyası başlayacaq. Suriya xalqının rifahına xərclənməli olan resurslar artıq yeraltı tunellər qazmaq üçün deyil, məktəblər, xəstəxanalar, çörək sexləri, fabriklər və yerüstü yollar tikmək üçün istifadə olunacaq", - o bildirib.

## Azərbaycan Ukraynaya növbəti dəfə humanitar yardım göndərdi



**Azərbaycandan Ukraynaya növbəti humanitar yardım göndərilib.**

Adalet.az xəbər verir ki, elektrik avadanlıqlarından ibarət növbəti humanitar yardım Sumqayıt Texnologiyalar Parkından yola salınıb. Humanitar yardımın göndərilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən, Energetika Nazirliyi tərəfindən təmin edilib.

Qeyd edək ki, Azərbaycan bundan əvvəl də Ukraynaya elektrik təchizatı ilə bağlı humanitar yardımlar göndərib.

## ABŞ Venesueladakı əməliyyat zamanı gizli silahdan istifadə edib

**ABŞ lideri amerikalı hərbçilərin Venesuelada həyata keçirilən əməliyyat zamanı gizli silahdan istifadə etdiyini deyib.**

Adalet.az xəbər verir ki, bu barədə ABŞ Prezidenti Donald Tramp "New York Post" qəzetinə müsahibəsində bildirib. Tramp bu silah barədə danışmağa icazəsi olmadığını söyləyib. Onun sözlərinə görə, Venesuelada mövcud olan raketlərin havaya qaldırılması mümkün olmayıb.

"Onların Rusiya və Çin istehsalı raketləri var idi, lakin onlar havaya qalxmadı. Biz daxil olduq, onlar düymələri basdılar, amma heç nə işə düşmədi", - deyə Tramp vurğulayıb.

## Tramp İranı dağıdıcı əməliyyatla hədələdi

**Böyük bir armada İran istiqamətində hərəkət edir. Bunu Ağ Ev rəhbəri Donald Tramp öz "Truth Social" sosial şəbəkə hesabında yazıb.**

Tramp 2025-ci ilin iyun ayında ABŞ-nin İslam Respublikasında "Gecəyarısı çəkici" (Midnight Hammer) adlı əməliyyat həyata keçirdiyini xatırladıb .

"Növbəti hücum daha da ağır olacaq. Buna yol verməyin", - deyə o əlavə edib.

"Gecəyarısı çəkici" (Operation Midnight Hammer) 2025-ci ilin 22 iyununda ABŞ hərbi qüvvələri tərəfindən İranın üç əsas nüvə obyektinə - Fordo, Natanz və İsfahan nüvə komplekslərinə zərbələrin endirilməsi ilə müşayiət olunmuş əməliyyatdır. ABŞ-ın "B-2 Stealth" bombardmançıları həmin obyektləri 14 30 000 funt çəkili GBU-57 "bunker buster" bombaları ilə hədəfə alıb.

## GÜNÜN LƏTİFƏSİ



Bir gün xəstə həkimə gedir.

Həkim soruşur:

**- Hə, indi necə yatırsınız? Məsləhətimə əməl edib yuxuya getmək üçün sayırsınızmı?**

Xəstə:

**- Bəli həkim. Düz 18456-ya kimi saydım.**

Həkim:

- Yuxuladınızmı?

Xəstə:

**- Nə yuxlamağı, işə getmək vaxtı idi.**

## Prezident İlham Əliyev Sumqayıt Sənaye Parkında güzgü vərəqələrin istehsalı zavodunun açılışında iştirak edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Sumqayıt Sənaye Parkında "Azermirror" MMC-nin güzgü vərəqələrin istehsalı zavodunun açılışında iştirak edib.**

İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına əvvəlcə ölkəmizdə yaradılan sənaye zonaları və Sumqayıt Sənaye Parkının fəaliyyəti barədə məlumat verdi.

Bildirildi ki, hazırda ölkəmizdə mövcud sənaye zonalarında 104 müəssisə istehsal fəaliyyətinə başlayıb. İndiyədək sənaye zonalarına 7 milyard manatdan çox investisiya yatırılıb və 11 mindən çox daimi iş yeri yaradılıb. Növbəti mərhələdə mövcud layihələr üzrə 1,74 milyard manata yaxın investisiyanın yatırılması nəzərdə tutulur. Sənaye zonalarında indiyədək ümumilikdə 19,4 milyard manatlıq məhsul istehsal edilib ki, bunun 6,1 milyard manatlıq hissəsi ixrac olunub.

Hazırda istehsal olunan məhsullar dünyanın 70 ölkəsinə ixrac edilir.

Respublikanın müxtəlif regionlarında sənaye parklarının və sənaye məhəllələrinin yaradılması, orada sahibkarlıq fəaliyyətinin genişləndirilməsi üçün əlverişli mühitin formalaşdırılması iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi məqsədilə ölkədə reallaşdırılan uğurlu sənayeləşmə siyasətinin nəticəsidir. Sənaye zonaları biznes subyektlərinin innovativliyinin və istehsal səmərəliliyinin artırılmasında, yüksək texnologiyalara əsaslanan məhsul istehsalının təşviqində, ixrac potensialının genişləndirilməsində, eyni zamanda, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Hazırda ölkədə Sumqayıt, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Hacıqabul, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" daxil olmaqla 8 sənaye parkı fəaliyyət göstərir. Naxçıvan Sənaye Parkının, eləcə də Gəncə şəhəri və Şəmkir rayonu ərazisində yeni Qərb Sənaye Parkının yaradılması istiqamətində işlər görülür. Bütün bunlarla yanaşı, Masallı, Neftçala, Sabirabad və Şərur sənaye məhəllələri də istehsal və sahibkarlıq fəaliyyətinin inkişafına töhfə verir.

Qeyd edək ki, ümumi sahəsi 640 hektar olan Sumqayıt Sənaye Parkında hazırda 40 rezident fəaliyyət göstərir, layihələrin ümumi dəyəri 6,7 milyard manat, faktiki investisiya həcmi isə 5,5 milyard manat təşkil edir.

Layihələr çərçivəsində 8800-ə yaxın yeni iş yerinin yaradılması nəzərdə tutulur. Faktiki olaraq 6135 nəfər işlə təmin edilib. Rezidentlərin ümumi satış həcmi 15,4 milyard manata çatıb ki, bunun da 5,7 milyard manatı ixracın payına düşür.

"Azermirror" MMC-nin təsisçisi Rüstəm Abbasov Prezident İlham Əliyevə müəssisə barədə məlumat verdi. Bildirildi ki, bu MMC-yə 2023-cü ildə Sumqayıt Sənaye Parkının rezidenti statusu verilib. "Azermirror" tərəfindən sənaye parkının 1 hektar ərazisində güzgü vərəqələrinin istehsalı zavodu tikilib.

Burada 30 nəfər daimi işlə təmin olunub. Zavodda ildə 900 min kvadratmetr güzgü vərəqəsi istehsal ediləcək. Müəssisədə hazırlanan məhsulların daxili bazarın tələbatını ödəməklə yanaşı, ixracı da nəzərdə tutulur. Çin texnologiyası əsasında qurulan layihənin investisiya dəyəri 6,13 milyon manatdır. Müəssisənin yaradılmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 1,5 milyon manat güzəştli kredit ayrılıb. Sənaye parkının rezidentlərinə verilən bütün güzəştlərdən yararlanan "Azermirror" MMC 600 min manat dəyərində vergi və gömrük azadolmasından faydalanıb.

Onu da qeyd edək ki, Azərbaycanda qeyri-neft sənayesinin inkişafı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Ölkəmizdə mövcud təbii və iqtisadi resurslardan səmərəli istifadə, innovativ yanaşmaların və qabaqcıl texnologiyaların sənaye istehsalına cəlb olunması, yeni sənaye sahələrinin formalaşdırılması, rəqabətqabiliyyətli məhsul istehsalının genişləndirilməsi istiqamətində sistemli tədbirlər davam etdirilir.

# Sahibə Qafarova ADPA-da çıxış etdi

**Milli Məclisin sədri Sahibə Qafarova Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri çərçivəsində Əbu-Dabidə keçirilən Aralıq Dənizi Parlament Assambleyasının (ADPA) Qadın Parlament Forumunun 2-ci sessiyasında iştirak edib.**

Adalet.az xəbər verir ki, sessiyanın açılış mərasimində çıxış edən spiker Sahibə Qafarova Aralıq Dənizi Parlament Assambleyasının dialoq, həmrəylik və qarşılıqlı anlaşma üçün bir platforma olduğunu qeyd edib. Onun sözlərinə görə, gender bərabərliyinə və qadınların səlahiyyətləndirilməsinə xüsusi önəm verilməsi Assambleyanın ümumi məqsədlərə nail olmaq naminə kollektiv fəaliyyətə davamlı sadiqliyinin bariz nümunəsidir.

Azərbaycan Milli Məclisinin Aralıq Dənizi Parlament Assambleyasında müşahidəçi statusu əldə etmək üçün rəsmi müraciət etdiyini xatırladan Sahibə Qafarova bu müraciətin dəstəklənməsinin daha sıx əməkdaşlıq və daha səmərəli birgə fəaliyyət üçün yeni imkanlar açacağına inamını ifadə edib. O, eyni zamanda, hazırda Milli Məclisin sədrlik etdiyi Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə Aralıq Dənizi Parlament Assambleyası arasında əlaqələrin də inkişafında maraqlı olduğumuzu qeyd edib. Vurğulanıb ki, Assambleyanın nümayəndəsi Parlament Şəbəkəsinin ötən ilin aprel ayında Daşkənddə keçirilmiş 4-cü konfransında iştirak edib. Milli Məclisin sədri deyib ki, iki qurum arasında qarşılıqlı müşahidəçi statusunun verilməsi və əməkdaşlıq sazişinin imzalanması yolu ilə institusional əlaqələrin qurulması parlament diplomatiyasının ümumi məqsədlərinə əhəmiyyətli töhfə verəcək.

Çıxışında tədbirin mövzusunun əhəmiyyəti barədə fikirlərini bölüşən spiker Sahibə Qafarova deyib ki, gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi haqlı olaraq Dayanıqlı İnkişaf Məqsədlərindən biri kimi müəyyən edilib. Bu məqsədlər yalnız arzuolunan deyil, həm də daha ədalətli dünyanın qurulması və gələcək nəsillər üçün daha yaxşı gələcəyin təmin olunması baxımından zəruridir. Bununla belə, ciddi çağırışların hələ də mövcud olduğunu deyən Milli Məclisin sədri vurğulayıb ki, bu çağırışların hər hansı bir ölkə və ya regionla məhdudlaşmır, qlobal xarakter daşıyır. Ona görə də bu istiqamətdə tərəqqi yalnız milli səylərlə deyil, beynəlxalq səviyyədə davamlı və əlaqələndirilmiş fəaliyyətlə mümkündür. Bu baxımdan, bugünkü müzakirələr bir daha beynəlxalq əməkdaşlığın, xüsusilə də xalqlarımızın nümayəndələri olan parlamentarilər arasında əməkdaşlığın əhəmiyyətini önə çəkir.



Spiker Sahibə Qafarova deyib ki, ilk növbədə real və davamlı irəliləyiş cəmiyyətdə mövcud olan düşüncə tərzinin dəyişdirilməsindən asılıdır. Qadın və kişilərin mahiyyət etibarilə bərabər olması prinsipi cəmiyyətin əsas dəyəri kimi möhkəmləndirilməlidir. Digər tərəfdən qadınların ictimai həyatda və qərar qəbuletmə proseslərində tam və bərabər iştirakı olmadan güclü, firavan və dayanıqlı cəmiyyət qurmaq mümkün deyil. Onun sözlərinə görə, cəmiyyətin yarısının hüquq və potensialını nəzərə almayan hər hansı təşəbbüs qaçılmaz olaraq dayanıqsızdır.

Azərbaycanda gender bərabərliyi sahəsində mövcud olan vəziyyət haqqında tədbir iştirakçılarına məlumat verən spiker Sahibə Qafarova deyib ki, güclü ailə və mədəni ənənələrə söykənən Azərbaycan cəmiyyətində qadınlar ailənin - cəmiyyətin ən kiçik vahidinin - formalaşmasında və dəyərlərin gələcək nəsillərə ötürülməsində daim mərkəzi rol oynayıb. Qadınlar cəmiyyətdə həmişə bərabər tərəfdaş kimi qəbul edilib və onun inkişafına həlledici təsir göstərib. Milli Məclisin sədri xatırladıb ki, müsəlman dünyasında qızlar üçün ilk dünyəvi məktəbin 1901-ci ildə Bakıda açılması və qadınlara 1918-ci ildə seçki hüququnun verilməsi bu yanaşmanı əks etdirir və Azərbaycan cəmiyyətində qadınların mühüm rolunu bir daha təsdiqləyir. Bu gün Azərbaycan qadınları siyasət, iqtisadiyyat, elm və təhsil, səhiyyə və digər sahələrdə fəal şəkildə təmsil olunurlar. Qadınlar qanunverici və icraedici hakimiyyət orqanlarında, məhkəmə sistemində və diplomatik fəaliyyətdə yüksək vəzifələr tutur. O, 2026-2028-ci illəri əhatə edən Gender Bərabərliyi üzrə Milli Fəaliyyət Planının qəbul edilməsinin Azərbaycan hökuməti tərəfindən bu sahədə ardıcıl şəkildə həyata keçirilən tədbirlərin davamı olduğunu söyləyib.

**Azərbaycan parlamentinin bu prosesdə cəmiyyətin dəyişən tələblərinə uyğun olaraq qanunvericilik bazasının hazırlanması və daim təkmilləşdirilməsində fəal rol oynadığını bildirən spiker Sahibə Qafarova deyib ki, ötən çağırış Milli Məclisdə gender bərabərliyi və ailə siyasəti ilə bağlı 53 qanun layihəsi müzakirə edilib, 17 ictimai dinləmə keçirilib. İnstitusional səviyyədə gender bərabərliyi fəal şəkildə təşviq olunur və qadın deputatlar parlament komitələrinin əksəriyyətində təmsil olunaraq qanunvericilik müzakirələrində öz baxışlarının əks olunmasını təmin edirlər. Bununla yanaşı, spiker Sahibə Qafarova bildirib ki, Azərbaycan Parlamenti gender bərabərliyinin təşviqi və qadınların səlahiyyətləndirilməsi sahəsində beynəlxalq əməkdaşlığı qətiyyətlə dəstəkləyir və müxtəlif beynəlxalq platformaların işində fəal iştirak edir. O, bu forum çərçivəsində aparılan müzakirələrin real nəticələr verəcəyinə və qadınların səlahiyyətləndirilməsi kimi ümumi məqsədin - regionumuzda sosial həmrəyliyin, dayanıqlığın və davamlı inkişafın möhkəmləndirilməsinin əsas şərti olan bu məqsədin - irəlilədilməsinə töhfə verəcəyinə ümidvar olduğunu bildirib.**

# "Azərbaycanı çıxmaq şərtilə digər 3 ölkə hələ də ərazi bütövlüyünü təmin etməyib..."

**"GUAM (Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova) 1990-cı illərin sonunda təsis ediləndə bu dörd dövlətin maraqları üst-üstə düşürdü. Bu ittifaqı aktuallaşdıran əsas amil hər 4 ölkənin separatçı bölgələrlə mübarizəsi və Rusiya ilə gərgin münasibətləri idi. Azərbaycanı çıxmaq şərtilə digər 3 ölkə hələ də ərazi bütövlüyünü təmin etməyib, Ukrayna Rusiya ilə müharibəni davam etdirir, Moldovada Avropa İttifaqına üzvlük, bu alınmadıqda Rumıniyaya qatılmaq kimi mövzu müzakirəyə çıxarılıb. Gürcüstanın isə Avropa İttifaqına üzvlük məsələsi indiki hökumətin dövründə aktuallığını itirib".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

O, bildirib ki, GUAM əvvəlki illərdəki ittifaqa bənzəmir:



"Ukrayna və Gürcüstan hakimiyyətləri arasında dərin fikir ayrılıqları mövcuddur, Moldova da Tbilisinin mövqeyindən narazıdır. Moldova Prezidenti Maya Sandu Avropa Şurası Parlament Assambleyasında son çıxışı zamanı Rusiyanın Gürcüstanı öz orbitinə qaytardığını deyib. O bunu Gürcüstan hökumətinin Rusiya ilə müharibə qorxusu ilə izah edib. Aydındır ki, bu açıqlama rəsmi Tbilisinin narazılığına səbəb olub. Gürcüstan parlamenti sədrinin birinci müavini Gia Volski Maya Sandunun açıqlamasını sərt şəkildə tənqid edib. Gürcüstanın hakim partiyasının üzvü olan Gia Volski Maya Sandunun Moldovada dəstəyinin olmadığını və bu ölkədə genişmiqyaslı korrupsiyanın mövcud olduğunu bildirib. İkinci iddia ilə işimiz yoxdur, Sandunun ölkəsində heç bir dəstəyinin olmaması iddiası isə mübahisə doğurur. Belə olsaydı, Sandu yenidən Prezident seçilməzdi. Moldova Prezidentinin tənqidinə Gürcüstan parlamentinin digər vitse-spiker Nino Tsilosani də qoşulub".

Politoloq deyib ki, Moldova və Gürcüstan siyasətçiləri arasında ittihamedici açıqlamalar iki ölkə arasında münasibətlərin gərginliyindən xəbər verir:

"Qarşılıqlı ittihamlar GUAM-ı bir təşkilat olaraq zəiflədir. Azərbaycan bunda maraqlı deyil və ölkəmizin digər 3 ölkə ilə tərəfdaşlıq münasibətləri var. Ancaq bizdən asılı olmayan səbəblərdən təşkilata üzv digər 2 ölkə üçüncünün ünvanına sərt ittihamlar səsləndirilərsə və üçüncü ölkə də onlara sərt formada cavab verirsə, bu şərtlər altında dördlü ittifaqdan danışmaq çətindir".

**Vasif ƏLİHÜSEYN**

# DİN bank kartlarından oğurluqlarla bağlı məlumat yaydı

**Daxili İşlər Nazirliyi ilə Mərkəzi Bankı arasında qurulmuş qarşılıqlı faydalı əməkdaşlıq çərçivəsində kiber risklər sistemli şəkildə təhlil olunur, bank müştərilərinin məlumatlandırılması təmin edilir.**




Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən Adalet.az-a bildirilib ki, ötən il görülən tədbirlər nəticəsində onlayn məkanda talama məqsədilə istifadə edilən şübhəli internet resurslarından 372 sayda saxta sayt, link və keçidlər müəyyən edilərək bloklanıb. Bu, bank kartlarına qanunsuz müdaxilə hallarının azalmasına mühüm təsir göstərib. Aparılan təhlillər göstərir ki, bank kartı istifadəçiləri şübhəli əməliyyatlarla rastlaşdıqda vaxt itirmədən müştərisi olduqları bankı məlumatlandırdıqları hallarda qabaqlayıcı tədbirlər effektiv olur və kartdakı vəsaitin oğurlanmasının qarşısı alınır. Bu zaman bank kartına müdaxilənin istiqaməti operativ şəkildə müəyyən edilir və risklər neytrallaşdırılır.

**Daxili İşlər Nazirliyi bir daha bank kartı istifadəçilərinə tövsiyə edir ki, hər hansı şübhəli əməliyyat, naməlum link və ya saxta internet resursu ilə qarşılaşdıqları zaman dərhal müştərisi olduqları bank və polis orqanları ilə əlaqə saxlasınlar və bu cür hallara biganə yanaşmasınlar. Bu, həm şəxsi maliyyə təhlükəsizliyinin, həm də ümumi kiber təhlükəsizliyin təmin olunmasında mühüm əhəmiyyət daşıyır.**

# "Türkiyə İrana müdaxilə ərəfəsində neytrallığını qorumağa söz verib..."

**”İran artıq İraqda aktivləşib, iranpərəst Nuri əl Malikini yenidən hökumət başına gətirməyə çalışır. Eyni zamanda Həşd Şabi və digər terrorçu qruplar Suriya sərhəddində toplaşıb. Qara əmmaməli İraq mollaları qılınclarını sıyırmış vəziyyətdə əsgərləri ruhlandırıb Suriya hakimiyyətinə qarşı qızışdırırlar. Görünür İran ABŞ və İsrailin hücumu zamanı Türkiyədən dəstək görməsə İrandakı terrorçu qrupları Suriyanın üstünə qaldırmağı planlaşdırır. ABŞ-nin dəniz qüvvələri İranı demək olar ki, mühasirəyə almaqdadır. Müəyyən ölkələrdən kualisiya da formalaşıb”.**

Adalet.az xəbər verir ki, bunu siyasi şərhçi Tural İrfan deyib.

O, bildirib ki, ilk iti hücumları İsrailin həyata keçirməsi gözlənilir:

”Yalnız İran İsrailə yaxud ABŞ-nin Yaxın Şərqdəki forpostlarına zərbə endirsə, ABŞ hava qüvvələrinin streteji nöqtələri vuracağı ehtimalı yüksəkdir. ABŞ yalnız özünə tam məlum olan üsul və formada İrana müdaxilədə qərarlı görünür. Hazırda müdaxilənin vaxtı və forması haqqında dəqiq proqram məlum deyil və proqnozlar da təxminlərdən ibarətdir. Vaxtilə İraqa hücum zamanı da eyni ssenari üzərindən irəlilənmişdi. İrana vaxtilə verilmiş vəzifə Yaxın Şərqdə müsəlman ölkələrinə qarşı problem yaratmaq idi. Əslində keçmiş müttəfiqi Əsəd Suriyasını da daha çox İran bəlaya salmışdı. Suriyada çıxarılan oyunlar birbaşa İsrailin maraqlarına xidmət idi. Lakin Türkiyə bu oyunu pozdu, Suriya İranın əlindən çıxdı. Bu zaman İran artıq İsrailə lazım olmadı. Vaxtilə 1980-ci illərdə Səddam



Hüseynin İraqı neft hesabına inkişaf etdirdiyi ərəfədə dərhal Xomeynini Fransadan təyyarəyə oturdub gətirərək müharibəyə sövq etdilər. Hazırda da İraqı İranın əli ilə Suriyaya qarşı təşviq edirlər. Daha doğrusu İran İraqdakı qüvvələri vasitəsi ilə İsrailin qəbul etmədiyi indiki Suriya hakimiyyətinə qarşı təxribatlar hazırlamaqla hələ də lazımlı olduğunu sırımaq istəyir. Bu da məlumdur ki, Suriyada hazırda üsyan üçün fürsət axtaran və mütəmadi xəyanətlə məşğul ola Druz, Nuseyri, Ələvi, PKK qruplarına İsrail və İran dolayı da olsa müştərək yardım edirlər”. T.İrfan bildirib ki, Türkiyə artıq İrandan gələ biləcək qaçqın selinə görə ehtiyyat tədbirləri görməyə başlayıb:

”Ola bilsin İsraillə, Suriyada sabitliyin yaranmasına maneçilik törətməməsi və ABŞ-nin də PKK-ya dəstəyindən geri çəkilməsi müqabilində Türkiyə İrana müdaxilə ərəfəsində neytrallığını qorumağa söz verib. Çünki İran hazırda İraqda Malikini hakimiyyətə gətirməklə de-fakto Suriyanı qarışdırmaq və nəticədə Türkiyə üzərinə getməyi planlaşdırır. O həm də bununla İsrailə hələ lazım olduğunu çatdırmaq istəyir. Türkiyə İranla sərhəddə ehtiyyat tədbirlərini gücləndirməyi böyük ehtimalla siyasi qənaətdən əlavə kəşfiyyat məlumatları əsasında zəruri hesab edib. Çünki İranın vurulduğu təqdirdə qaçqın qismində Türkiyəyə çoxsaylı terrorçu keçə və ölkədə təxribat yarada bilər. Vaxtilə ABŞ-nin müdaxiləsi zamanı 1991-ci ildə Turqut Özal İraqla sərhəddi açaraq çoxsaylı qaçqın qəbul etməyə qərar verdi. Bu ”qaçqınlar” isə sonda Türkiyənin başına bəla olacaq PKK-nın tərkibində Qəndillə koordinasiya sistemi qurdular. Turqut Özal bəlkə də bunu düşünülmüş şəkildə, uzaq gələcəyə hesablayıb etmişdi. Amma həmin ərəfədə onun qərarı humanitar addım kimi qəbul olunurdu. Hər halda İran rejimi hələ də İslam və Türk dünyası əleyhinə yararlı olduğunu sübut etməyə, Qərbin ideoloji maraqlarının təmin olunmasında hətta İsrailin də işinə yararlı olduğunu çatdırmağa çalışır. ABŞ və İsrail isə İranı mühasirəyə alıb sıxmaqla tələsdirirlər ki, yararlı olduğunu sübut etsin. Odur ki, İran İraqda yenidən öz qüvvələrini hakimiyyətə gətirib Suriya və Türkiyə əleyhinə mövqe qoymaq istəyir ki, bəlkə İsrail düşünə. Ancaq bunlara rəğmən İrandakı son genosid və rejim daxilindəki çoxtirəlilik, xalqın ümumiyyətlə hakimiyyətdən və quruluşdan narazılığı ən böyük gərginliyin qarşıda olduğunu göstərir. ABŞ və İsrailin İran rejimi ilə bağlı variantlardan birinin də nüvə proqramından imtina edərək Qərbə yaxınlaşdığı, sistemin mahiyyətini dünyəvi istiqamətində dəyişdiyi təqdirdə Prezident Pezeşkiyanın da qalmasına qane olduğu variantı olduğu deyilir. Lakin şah variantı kimi bu da real görünmür”.

**Vasif ƏLİHÜSEYN**

# Zelenski: "Sovet Moskvası" və "imperialist Peterpurq "- Avropanın əsas düşmənləridirlər"

**Ukrayna prezidenti Volidimir Zelenski çıxışında ”sovet Moskvanın və imprislist Petetburqu” Avropanın, xüsusiylədə Kiyevin əsas düşmınləri adlandırıb.**

Ukrayna liderinin sözlərinə görə, bu düşmən, ”Şərqi Avropada idarəetmə formaları arasında, yerli xalqların torpaqları və kollektiv yaddaşları arasında qarşıdurma yaradır”.

”Biz bir yerdə necə müstəqil olz bilərik?

Bizim bir düşmınimiz var və bu müharibə artıq dörd il hibrit, dörd ildi də bizim torpaülarda qanlı müharibə şəklində davam edir”- deyə Zelenski bildirib.

Rusiya prezidenti Vladimir Putin isə, yenə bəyan edir ki, gələcəkdə Rusiya nə Avropaya, nə də NATO-ya hücum etmək niyyətində deyil.

Rusiya prezidenti vaxtı ilə heç vaxt Krımı da işğal etməyəcəklərini, Ukraynaya hücum etməyəcəklərini bəyan etmişdi. Lakin, sonradan həm Krımı işğal etdi, həm də Ukraynanın dörd vilayətini və hələ işğal etməkdə davam edir.

İndi onun verdiyi ”vədlərə” inanan olacaqmı?..

**Rüstəm Hacıyev**

*Səxavət Məmməd*

# Gücü olan qaydanı qoyur



***Bir neçə il öncəyə qədər dövlətlər - söhbət böyük dövlətlərdən gedir - bir prosesi aparmaq üçün müxtəlif oyunlar qurur, bəhanələr gətirir, onun icrası üçün milyonlarla, bəzən milyardlarla vəsait xərcləyirdi. Bunun adına da "siyasət" deyirdilər. Hazırkı dünyada, xüsusilə Trampdan sonra, bu çoxgedişli siyasətin yerini "küçə qaydaları" tutub. Ona görə də, bir müddət əvvəl siyasi proseslərə illərin təcrübəsinə və nəzəri biliklərə əsaslanan siyasətçilər, politoloqlar, ekspert və jurnalistlər dəqiq diaqnoz qoya bilirdisə, hazırkı proseslərə "küçəni" bilənlər daha dəqiq diaqnoz qoya bilir. Küçədə heç vaxt siyasət olmur; gücü olan qaydanı qoyur. Hazırkı dünyada fərqli heç nə yoxdur.***

***Tramp hakimiyyətə gələr-gəlməz Qrenlandiya, Panama və Kanadanı hədəf taxtasına qoydu. Venesuela ətrafında əməliyyatlar keçirdi. Öncə narkotik katerlərinə zərbələr endirməyə başladı, ardınca isə Maduronu malikanəsindən götürdü. 3-5 ölkə boş-boş bəyanat verdi. Nəticə? Heç nə! Küçənin qoçusu necə istəyir, elə də olur.***

***ABŞ-nin ən sevimli "çubuğu" demokratiya idi. Hara lazım idisə, ora bu çubuğu soxurdu. İnsanlar ölür, insanlar didərgin düşür, dövlətlər dağılır, parçalanırdı; kimlərsə diktator elan edilir, kimlərsə demokrat. Heç kim də buna qarşı çıxa bilmirdi. Bəziləri qorxurdu ki, bu çubuq onun da ölkəsinə soxular; bəzi toplumlar baş verənlərə göz yumur, ümid edirdi ki, bir gün o çubuq onun da ölkəsinə soxulacaq, hakimiyyətlər dəyişəcək və o, "ağ günə" çıxacaq. Tramp açıq şəkildə bəyan etdi ki, heç bir ölkəyə demokratiya transfer etməyəcək, heç bir ölkədə hakimiyyət dəyişdirmək üçün pul xərcləməyəcək. Madam ki küçədən yazıram, bir qədər də kobudlaşım: hazırda Trampın əlindəki çubuq deyil, bildiyimiz pazdır. Ya altından keçəcəksən, ya da içindən keçirəcək. Əslində, təkcə Tramp belə deyil; böyük dövlətlərin hamısı bu xətti tutub. Rusiya və Çin hələ də bu məsələdə geridə qalır. Düzdür, Putin küçədən gəlsə də, küçəni bilsə də, hələ də "oynamaqla" məşğuldur. Öncə Solovyov, Duqin kimilərin dili ilə nələrisə dedirdir, daha sonra hansısa addımlar atır. Çox keçməyəcək, onlar da Tramp kimi davranmağa başlayacaqlar. Çindən isə danışmağa dəyməz; adamlar səbrlə iş görürlər. Deyirlər, "Səbr edən dərviş muradına ərir". Ancaq səbr edən dərviş bəzən gözləməkdən gəbərir. Hansı ölkələr dünyada baş verən bu proseslərin sürətinə ayaq uydurmasa, sözün hər mənasında gəbərəcək.***

***ABŞ-ni digər dövlətlərdən fərqləndirən əsas amillərdən biri də ondan ibarətdir ki, bir məsələ alınmayanda bütün gücünü ona qoymur, onun üzərində baş sındırmır. "Alınmırsa, cəhənnəmə ki!" deyib, gedib digər planlarını həyata keçirir. Yoxsa Rusiya kimi dörd ildir Ukrayna bataqlığında çabalamır.***

***ABŞ-nin 2026-cı il üçün strateji hədəfi Çin, İran və Şimali Koreyadır. Çinin iqtisadi gücünün artmasını ABŞ özü üçün əsas təhdid sayır. Ona görə də Sakit okean hövzəsində ABŞ-nin daha aktiv fəaliyyətinin şahidi olacağıq. İranla bağlı məsələ isə güc tətbiqindən əvvəl danışıqlardan asılı olacaq. Açıq demək lazımdır ki, ABŞ-nin İrana güc tətbiq etməsi böyük vəsait tələb edir. Trampın hazırkı siyasəti xərcləri azaltmağa hesablanıb. Bu o deməkdir ki, maksimum güc tətbiq etmədən məsələni öz xeyrinə həll etməyə çalışacaq. İranın strateji hədəfi Yaxın Şərq idi. İran özü üçün "Tehran-Dəməşq-Bağdad-Beyrut" xəttini qurmuşdu. Faktiki olaraq İran bu xətti itirib. Ən azı Dəməşq əldən çıxıb, Beyrut zəifləyib, Bağdad isə "nə ətdir, nə də balıq". Rusiya da Suriyada aktivliyini sıfıra endirib. Yalnız Tartus (hərbi dəniz) və Xmeymim (hərbi hava) bazalarını Aralıq dənizində gözü-qulağı olsun deyə saxlamaq niyyətindədir. Suriyada isə İranın yerinə Türkiyə daxil olub. Bunu iki cür şərh etmək olar: Birinci variant - İran məğlub oldu, Türkiyə qazandı. İkinci variant - İran Suriya bataqlığından canını qurtardı, Türkiyə o bataqlığa girdi. Faktiki olaraq Türkiyənin Suriyadakı aktivliyi həm iqtisadi, həm də siyasi məsuliyyət deməkdir. O zaman Türkiyə qalib sayılacaq ki, bölgədə sabitlik olacaq, qaçqın axını dayanacaq. Bu zaman isə infrastrukturun qurulması prosesi başlayacaq ki, buna kimin vəsait ayıracağı sual altındadır. Misal üçün, Tramp Qəzzanı yenidən quracağını bildirdi, ancaq yükün altına təkcə ABŞ yox, 30-dan çox ölkə girdi. Sabah Suriya üçün ABŞ belə bir addım atacaq? Qətiyyən. Gəldi, dağıtdı, getdi. Heç Ukrayna üçün də bu addımı atacağı inandırıcı deyil; indidən hər şeyi yükləyib Avropa İttifaqının üzərinə.***

***İrana ABŞ-nin zərbə endirib-endirməyəcəyi hər kəsə maraqlıdır. ABŞ-nin təyyarədaşıyan gəmiləri İrana zərbə endirəcək məsafəyə gəlib. Adını da qoyublar ki, "hərbi təlimlər keçiriləcək". Eynilə Rusiyanın Ukraynaya hücumundan əvvəlki ssenari. ABŞ İrana hücum edəcəksə, bunu havadan həyata keçirəcək. Yəni məsafə onu göstərir ki, ABŞ-nin quru əməliyyatı keçirmək niyyəti yoxdur. Əslində, heç o gücü də yoxdur, çünki ABŞ-nin gücü bir neçə istiqamətdə parçalanmış vəziyyətdədir: Venesuela ətrafı, Sakit okean hövzəsi və s. İran rəsmən bəyan edir ki, zərbə alacaqsa, zərbə endirəcək. İranın belə bir potensialı var? Son "12 günlük toqquşma" bizim bəzi azərbaycanlılardan başqa bütün dünyaya göstərdi ki, İranın dili qədər "diyirçəyi" (təsir gücü/silahı) də var. Son məlumatlara görə, İran Fars körfəzini minalamaq üçün hazırlıq görüb. Bundan əlavə, regiondakı ABŞ hərbi bazaları da hədəf olacaq. ABŞ İrana zərbələr endirəcəksə, bu hələ erkəndir, çünki hazırlıq prosesi yekunlaşmayıb. İranla Tramp razılıq əldə edə bilər? Mümkün variantdır. İran onsuz da itirdiyi Yaxın Şərqdən tamamilə çəkilər və Orta Asiyaya yönələr. Əslində, bu, İran üçün daha asan və daha dərindən tanıdığı coğrafiyadır. Bu zaman hətta ABŞ-nin də dəstəyini qazana bilər. Tramp hər kəslə əl sıxışır. Adam jurnalisti qətlə yetirən Səudiyyə şahzadəsini müdafiə etdi, başına pul qoyduqları, dünənə qədər terrorçu dedikləri Əbu Məhəmməd əl-Colanini "yaxşı oğlan" adlandırdı. Sabah uzlaşıb stoldan qalxanda "Ya Əli" desə də təəccüblənmərəm.***

***Açıq demək lazımdır ki, küçənin qoçularının savaşında zərərli çıxan küçələr olur: onun ağıllı uşaqları, küçədən keçənləri... Orada Ukrayna, burada Cənubi Qafqaz, o tərəfdə isə Sakit okeana çıxışı olanlar...***



*Rüstəm Hacıyev*

## "Tarixi hadisələr" bir-birini əvəzləyir...

***Ötən bazar günü Birləşmiş Ərəb Əmirliyində Ukrayna, Rusiya və ABŞ nümayəndələrinin iştirakı ilə növbəti görüş keçirildi. Ağ Evin mətbuat katibi Kerolayn Livitt hesab edir ki, bu görüş "tarixi hadisədir".***

***Xanım Kerolayn jurnalistlərlə keçirilən brifinqdə bəyan etdi ki, Birləşmiş Ştatların prezidenti Donald Trampın administrasiyası üçtərəfli görüşü tarixi hadisə kimi qiymətləndirir.***

***Əslində, Donald Tramp hakimiyyətə gəldiyi gündən bəri münaqişə tərəfləri- Rusiya və Ukrayna nümayəndələri müxtəlif formatlarda, müxtəlif siyasi liderlərinin nümayənfələrinində iştirak etdiyi onlarla bu cür "tarixi görüşlər" keçirib. Lakin hələ ki, ortada hər handı bir "tarixi nəticə" görünmür və yəqin ki, yaxın gələcəkdə də, gprünəcəyi inandırıcı görünmür.***

***Belə ki, ABŞ prezidentinin bütün cəhdlərinə baxmayaraq, nə Rusiya prezidenti Vladimir Putin tələb kimi irəli sürsüyü qəbuledilməz şərtlərindən geri çəkilmir, nə də Ukrayna prezidenti Volodimir Zelenski Putinin irəli sürdüyü şərtləti- Donbassdan hərbi qüvvələrinin çıxarılması, Ukraynanın işğal olunmuş dörd vilayətindən və Krım yarmadaılndan əl çəkərək, bu əraziləri Rusiyanın əraziləri kimi tanımağı, yəni təslim olmağı qəbul etmir.***

***ABŞ prezidenti Dinald Tramp isə, ciddi-cəhdlə tərəfləri hazırki mərhələdə qəbuledilməz iddialarından əl çəkərək qarşılıqlı güşətlərə getməyə çağırır. Ağ Ev administrasiyasının aylarla hazırladıuları müxtəlif sülh planları, proqramları, gündəlikləri konkret nəticələr əldə edimədiyindən "arxivə" göndərilir və növbəti planlar "cızılır"...***

***Ukraynada şiddətli müharibə davam edir, Rusiya növbəti üçtəfəfli görüşlərin keçiriləcəyi vzxtı gözləyir, ABŞ prezidenti Donald Tramp Venesuela prezidentini qaçırdıb həbs etdikdın sonra, bir tətəfdən Qrelandiyanı ərazilərinə birləçdirmək arzudundadır, digər tətəfdən isə, İran İslam Respublikasını "yer üzüzündən silməklə" hədələyir.***

***Bir sözlə "tarixi hadisələr" bir-birini əvəzləyir....***

## "Daşaltı əməliyyatı" niyə uğursuz oldu?

**Hərbi ekspert səbəbləri açıqladı**

**Xəbər verdiyimiz kimi, Daşaltı əməliyyatından 34 il ötür. Mövzuyla bağlı Adalet.az-a danışan hərbi ekspert Ədalət Verdiyev bildirdi ki, 34 il bundan əvvəl keçirilən Daşaltı əməliyyatı təəsüflər olsun ki, bir çox səbəblərə görə uğursuzluqla nəticələndi.**

Onun sözlərinə görə, döyüş əməliyyatının uğursuzluqla nəticələnməsinin bir çox səbəbləri var idi:

"İlk növbədə ondan başlamaq lazım idi ki, əməliyyat planı kökündən yanlış bir plan idi. Çünki Şuşa şəhəri Azərbaycanın nəzarətində olduğu halda Daşaltıya iki istiqamətdən qüvvələr yeritmək, bir-biri ilə qarşılıqlı əlaqəsi olmayan, rabitə vasitələri ilə tam təchiz edilməyən bölmələrin bir-birinə əks istiqamətdən yeridilməsi tamamilə yanlış addım idi. Əgər Azərbaycana Daşaltı kəndinin azad edilməsi lazım idisə, ora birbaşa motoatıcı və piyada bölmələrini yeritmək əvəzinə, Daşaltının başı üzərindəki qayalardan yəni Şuşa istiqamətindən kəndə artilleriya və iri çaplı silahlardan atəş açmaq yetərli idi".

Hərbi ekspert deyib ki, bir çox mənbələr Daşaltıya hücum edən tağımın ermənilər tərəfindən pusquya düşməsinə dair məlumatlar versə də, Daşaltıda öz bölmələrimizin qarşılıqlı əlaqəsi olmaması səbəbindən bir-birinə qarşı atəş açmışdılar, reallıq bundan ibarətdir:

"Azərbaycan Ordusunun Şuşa ətrafındakı qayalarda yerləşdiyi bir halda ayağımızın altında olan kəndin azad olunması məqsədi ilə keçirilən əməliyyatda 100 nəfərə yaxın itki verdik və daha pisi də odur ki, kəndi düşməndən azad edə bilmədik. Bu uğursuz əməliyyat Azərbaycan Ordusunun döyüşən bölmələrinin mənəvi psixoloji vəziyyətinə də kifayət qədər mənfi təsir göstərdi. 29 il düşmən işğalında qalan Daşaltı kəndi Vətən müharibəsinin son günlərində erməni işğalçılarından tamamilə təmizləndi və birinci Qarabağ müharibəsində səriştəsiz komandirlərimizin şəxsi ambisiyalarının qurbanı olan 100 nəfərə qədər şəhidimizin də qisası alındı".

Ə.Verdiyev deyib ki, bu dəfəki əməliyyatda isə düşmən həm Şuşada, həm Daşaltıda idi, həm də Laçın yolu düşmənin nəzarətindəykən qoşunlarımız çox qısa bir müddətdə Daşaltıda olan erməni işğalçılarına ağır zərbələr endirdilər. Onların bütün döyüş mövqelərini darmadağın edib, noyabrın 9-da kəndi düşməndən azad etdilər".

**Vasif**

# "Dezinformasiya siyasətinə qarşı mübarizə hər bir fərdin məsuliyyətidir"

**Davos İqtisadi Forumundan əvvəl açıqlanan 2026-cı il üçün qlobal risklər hesabatında əsas təhlükə yeni rəqabət dövründə geosiyasi və iqtisadi risklərin artması ilə bağlıdır. Görünən budur ki, növbəti iki ildə qeyri-sabitlik proqnozlaşdırılır. Belə ki, geoiqtisadi rəqabət və iqtisadi silahlanma, dövlətlərarası münaqişələr, regional qeyri-sabitlik, beynəlxalq əməkdaşlığın zəifləməsi, texnologiya-əsaslı risklər,iqtisadi qeyri-sabitlik qlobal problemlər sırasında olacaq.**

Feyk xəbərlər və dezinformasiya ikiillik proqnozda ikinci yerdədir.Ölkəmiz üçün 2026-cı il hesabatında da yer alan əsas risklər kibertəhlükəsizlik, yanlış məlumat və dezinformasiyadır.Azərbaycan əslində uzun illərdir məqsədli dezinformasiya kampaniyalarının hədəfidir. 30 ilə yaxın davam edən işğal dövründə olduğu kimi, post-münaqişə dövründə də bu çirkin kampaniya davam edir. Mütəmadi olaraq insan hüquqları və demokratiya bəhanəsilə ölkəmizə qarşı qara piar kampaniyası aparılır. Məqsədli şəkildə ölkəmizə qarşı faktların təhrif edilməsi, sosial şəbəkələrdə troll şəbəkələrinin aktivləşməsi, xarici mediada qərəzli məqalələrin yayılması kimi vasitələrə əl atılır. Təəssüf ki, bu prosesdə antimilli ünsürlərdən alət kimi istifadə olunur. Ölkə hüdudlarından kənarda "bloger" adı altında fəaliyyət göstərən milli satqınlar kommersiya maraqları naminə dövlətçilik maraqlarını qurban verirlər. Ümumiyyətlə, xarici qərəzli mərkəzlər üçün antimilli qüvvələr ən rahat alətdir. Onlardan mütəmadi şəkildə bu və ya digər formada maşa kimi istifadə olunur.



Bu cür dezinformasiya Azərbaycanın beynəlxalq nüfuzuna və milli maraqlarına zərər vurmağı hədəfləyir.

Ölkəmizi hədəf alan dezinformasiya siyasətinə qarşı mübarizə zəruridir. Bu, ilk növbədə milli təhlükəsizliyin qorunması üçün vacibdir. Beynəlxalq ictimaiyyətə obyektiv həqiqətlərin çatdırılması təmin olunmalıdır.

Burada media savadlılığının artırılması, beynəlxalq media və platformalarla əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir. Dezinformasiya XXI əsrin ən təhlükəli "silah"larından biridir. Ona qarşı mübarizə yalnız dövlətin deyil, medianın, vətəndaş cəmiyyətinin və hər bir fərdin məsuliyyətidir.

**Könül Nurullayeva,**
**Milli Məclisin deputatı**

# *Ekspert:* Elektron siqaretlərə qadağa qoyuldu, qaçaqmal məsələsi meydana çıxacaq

**Xəbər verdiyimiz kimi Vergi Məcəlləsində, "Tütün və tütün məmulatı haqqında", "Reklam haqqında" və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanunlarda dəyişiklik edilib. Bununla bağlı Prezident İlham Əliyev müvafiq qanunu imzalayıb. Dəyişikliklə elektron siqaretlərin və onların komponentlərinin idxalı, ixracı, istehsalı, saxlanılması, topdan və pərakəndə satışı, istifadəsi qadağan edilir.**



Məsələylə bağlı Adalet.az-a danışan Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirdi ki, illər öncə tütün və tütün məmulatları haqqında qanun qəbul olunub, qanunda dəfələrlə dəyişikliklər olub, sərtləşdirilib, lakin hökumətin bir çox qanunları kimi, bu qanunun da icrası təmin olunmayıb:

"Məsələn, adını çəkdiyim qanunda tütün məmulatlarının tək-tək satışının, səhiyyə və təhsil müəssisələri yanında satışı qadağan olunduğu halda siqaretlərin tək-tək satışı hələ də davam edir. Üstəlik 6 il əvvəl Şəkidə təhlükəli tütün məmulatları istehsal edən müəssisə də açılıb. Filtirsiz siqaretlər yayılmaqda davam edir. Bu fonda ölkəyə siqaret tərgitmək üçün vasitələr, "Glo" adlı bir cihaz, elektron siqaret, qəlyanlar da daxil olub və getdikcə tütünə aludəçilik də artmaqda davam edir. Bizdə olan məlumatlara görə, qonşu ölkələr arasında Azərbaycan təkcə qardaş Türkiyədən siqareti çox çəkməkdə geri qalır. Xüsusən qadınlar arasında siqaret geniş yayılıb. Reklam haqqında qanunda sanki bilərəkdən bir maddə var və malın özü reklam vasitəsi hesab olunmur. Azərbaycan dünyanın az ölkələrindən biridir ki, marketlərə girəndə adamı siqaret stendləri qarşılayır".

Ekspert deyib ki, bir çox ölkələrdə ümumiyyətlə siqaretlər marketlərdə satılmır:

"Məsələn, İtaliyada, Filippində siqareti dükanlarda tapmaq mümkün deyil. Əhali elektron siqaretdən siqareti tərgitmək üçün istifadə edir, amma əslində bu, siqaret qədər zəhərli bir şeydir. Ona görə ölkə Prezidentinin bu qanunu təsdiqləməsini çox alqışlayıram. Mümkün qədər buna məhdudiyyət qoyulmalıdır. Lakin biz onu da bilməliyik ki, bu qanundan sonra qaçaqmal məsələsi meydana çıxacaq. Yəni bu cür qadağalarla qaçaqmalın qarşısını ala bilməyəcəklər. Siqaret qaçaqmalı illərdir ki, Azərbaycanda davam edir. Biz onları da ifşa etmək üçün işlər aparmışıq. Təkcə 2017-ci ildə beynəlxalq bir təşkilatın apardığı araşdırmaya görə Azərbaycan büdcəsi qaçaqmal siqaretlərdən 20 milyon dollar zərər çəkib. Ona görə elə bir iş aparılmalıdır ki, əhali siqaretdən uzaq olsun. Siqaret çəkmək məişət narkomaniyasıdır".

**Sübhan**

# Ağdərə-Kəlalə avtomobil körpüsünün tikintisi bizə nə verəcək?

**"İranın xarici işlər nazirinin müavini jurnalistlərə deyib ki, Araz çayı üzərində Ağbənd-Kəlalə avtomobil körpüsünün tikintisini Novruz bayramına qədər tamamlamağı planlaşdırırıq. Bu bizim üçün nə verəcək?".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

O, bildirib ki, Araz çayı üzərində Ağbənd-Kəlalə avtomobil körpüsünün açılması Zəngilan-Naxçıvan xəttində məsafəni mövcud Culfa marşrutu ilə müqayisədə təxminən 60-100 kilometr qısaldır:

"Bu fərq kağız üzərində sadə görünə bilər, amma real iqtisadi təsiri kifayət qədər ölçülə bilendir. Avtomobil daşımalarında, xüsusilə kənd təsərrüfatı məhsulları üzrə, qəbul edilən praktik yanaşmaya görə hər 100 kilometrlik məsafə məhsulun maya dəyərinə orta hesabla 0.5-3 %v əlavə yük yaradır. Məhsul ucuz olduqda, həcmi böyük olduqda və ya soyuducülu daşınma tələb edildikdə



bu göstərici 3-6 %-ə qədər yüksələ bilir. Məsələn, 1 ton məhsulun dəyəri 1000 manat olduqda 100 km-lik yol daşınma xərci hesabına maya dəyərini təxminən 0.8-1.5 % artırır".

İqtisadçının sözlərinə görə, eyni məsafə 1 ton məhsulun dəyəri 300-400 manat olan mallarda 2-5 %-lik təsir yarada bilir:

"Yəni yolun hər kilometri məhsul ucuzlaşdıqca daha ağır hiss olunur. Bu baxımdan marşrutun 60-100 kilometr qısalması kənd təsərrüfatı və gündəlik istehlak mallarında məhsulun maya dəyərində təxminən 0.3-3 % aralığında birbaşa qənaət effekti yaradır. Bunun üzərinə vaxt itkisi azalır, yanacaq sərfi düşür, sürücü və texniki resursLardan istifadə daha səmərəli olur, gecikmə və məhsul itkisi riskləri zəifləyir. Logistika xərci məhsulun qiymətində adətən görünməyən, amma bazar davranışını müəyyən edən əsas amillərdən biridir. Məsafə qısaldıqca regionlararası qiymət fərqləri azalır, tədarük daha stabil olur və Naxçıvan istiqamətində bazarın proqnozlaşdırıla bilmə səviyyəsi yüksəlir.Bu layihənin real iqtisadi dəyəri məhz buradan başlayır. Praktikada 100 kilometrlik yol bəzən məhsulun maya dəyərində 3 faizə qədər fərq yarada bilir. Bu isə artıq bazarda hiss oluna bilən nəticədir".

**Eldar**

# MEDİA Azərbaycan-Türkiyə strateji müttəfiqliyini hədəf alan dezinformasiyaya münasibət bildirdi

**Medianın İnkişafı Agentliyi Azərbaycan və Türkiyə arasında strateji müttəfiqliyi hədəf alan dezinformasiya ilə bağlı açıqlama yayıb.**

Bu barədə Adalet.az-a MEDİA-dan məlumat verilib.

Bildirilib ki, bir sıra xarici onlayn xəbər kanallarında və sosial media seqmentlərində Azərbaycan və Türkiyə arasında strateji müttəfiqlik münasibətlərinə xələl gətirmək məqsədi daşıyan, mənbəyi şübhə doğuran və reallığı əks etdirməyən dezinformasiya xarakterli məlumatların yayılması halları müşahidə olunur:




"Aparılmış ilkin araşdırmalar nəticəsində bu dezinformasiya kampaniyasının internetin rusdilli seqmentində "Tsargrad.tv" resursundan qaynaqlandığı aşkar edilmişdir.

Ölkəmizə qarşı yönəlmiş, saxta və manipulyativ məzmunlarla ictimai rəyi çaşdırmağa çalışan, Azərbaycan ilə Türkiyə arasında mövcud olan qardaşlıq və müttəfiqlik münasibətlərini hədəf almağa xidmət edən bu kimi dezinformasiya əməllərini kəskin şəkildə qınayır və qəbuledilməz olduğunu vurğulayırıq. Azərbaycan və Türkiyə jurnalistlərini, həmçinin media subyektlərini bu cür dezinformasiya cəhdlərinə qarşı prinsipial mövqe sərgiləməyə, mənbəyi təsdiqlənməmiş məlumatların yayılmasından çəkinməyə və informasiya mühitinin qorunması istiqamətində məsuliyyətli davranmağa çağırırıq.

Eyni zamanda, hər iki ölkənin ictimaiyyətini saxta məlumatlara inanmamağa, yalnız rəsmi qurumların verdiyi açıqlamaları əsas götürməyə dəvət edirik.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi bu kimi halların qarşısının alınması və vahid mövqenin formalaşdırılması məqsədilə Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə Əlaqələr Departamenti ilə səmərəli əməkdaşlığı bundan sonra da davam etdirəcəkdir".

# *Elxan Şahinoğlu:* "Belə olan halda ABŞ ilə əməkdaşlığa üstünlük verməmiz əsaslıdır..."

**"Nüfuzlu "Washington Post" qəzetində İranın və Güney Azərbaycanın gələcəyi haqqında maraqlı məqalə dərc olunub. Məqalənin müəllifi Hudson institunun Yaxın Şərq üzrə Sülh və Təhlükəsizlik mərkəzinin direktoru Maykl Dorandır. Müəllifin tezisləri Ağ Evin İran siyasətinin "yol xəritəsi"ni necə müəyyənləşdirməsi baxımından faydalıdır".**



Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Politoloq bildirib ki, məqalədə İranda farsların sadəcə Tehran və İsfahan ətrafındakı mərkəzdə cəmləşdikləri, ölkənin sərhəd boyu ərazilərində digər xalqların, o cümlədən azərbaycanlıların üstünlük təşkil etdiyi yazılıb:

"İkincisi, məqalə müəllifi İranda yaşayan azərbaycanlıların Türk-Azərbaycan kimliyinə daha çox maraq göstərdiyini, Azərbaycanın Avropa ilə interqasiyaya can atdığını, NATO standartlı ordusu olduğunu bildirib. Müəllif Azərbaycanın dünyəvi dövlət olmasından zövq aldığı bir vaxtda, İslam Respublikasının iqtisadi uğursuzluq və təcrid şəraitində olduğunu xatırladıb. Üçüncüsü, müəllif İranda şiddətli daxili münaqişə baş verərsə, böyük ehtimalla Azərbaycanın və Türkiyənin İrandakı soydaşlarını qorumaq üçün müdaxilə etmək məcburiyyətində qala biləcəyini yazıb. Dördüncüsü, müəllif başqa bir önəmli nəticəyə də gəlib. Onun sözlərinə görə, İranda yaşayan azərbaycanlılar indiki rejimlə yanaşı fars millətçi diktaturasının da əleyhinədir".

E.Şahinoğlu deyib ki, bu, azərbaycanlıların keçmiş şahın oğlu Rza Pəhləvinin hakimiyyətə qayıdışı əleyhinə olmasına işarədir:

""Washington Post" qəzetində yayımlanan məqalədə Vaşinqtonun İranla bağlı planlar qurarkən Azərbaycan Prezidenti İlham Əliyevlə məsləhətləşmənin vacibliyi də qeyd edilib.

ABŞ ilə Azərbaycan arasında tərəfdaşlıq yüksək səviyyəyə qalxıb. ABŞ-nin Vitse-Prezidenti Ceyms Vens fevral ayında Azərbaycana və Ermənistana səfər edəcək".

O, bildirib ki, Tramp paylaşdığı son statusda Azərbaycanla tərəfdaşlığı gücləndirmək istədiyini yazıb:

"Ağ Ev sahibinin sözlərinə görə, ABŞ Azərbaycana müdafiə avadanlıqları satmağı planlaşdırır. ABŞ ilə tərəfdaşlığı gücləndirmək Azərbaycanın zəruri seçimidir. Rusiya və İrandakı şovinist dairələr bizə başqa seçim qoymadılar. İran mühafizəkarları "Zəngəzur dəhlizinin əleyhinəyik" söylədikləri dönəmdə Vaşinqton "Zəngəzur dəhlizi olacaq" dedi və ötən ilin avqustun 8-də Ağ Evdə müvafiq saziş imzalandı. İranın xarici işlər nazirinin müavini Vahid Cəlalzadə Azərbaycana səfəri zamanı bizi "İrana hücum olarsa, müharibə sərhədləri aşacaq" sözləriylə təhdid etdiyi halda Donald Tramp "Azərbaycanla tərəfdaşlığı gücləndirəcəyik" deyir.

Belə olan halda ABŞ ilə əməkdaşlığa üstünlük verməmiz əsaslıdır. Qonşularla təhdid dili ilə danışmaqda davam edən İran isə dəyişikliklərə məhkumdur. Bunu bircə qonşu ölkədəki mühafizəkarlar anlamaq istəmirlər, anlayanlar müxtəlif ssenarilərə hazırlaşırlar. "Washington Post" qəzetində nəşr olunan məqalə də bundan xəbər verir".

**Sübhan**

# *Rəqəmlər açıqlandı:*
# *Pensiya kapitalı bu qədər artırılacaq*

**"Əmək pensiyaları" haqqında qanuna əsasən, yalnız əmək pensiyaları deyil, həmçinin vətəndaşların pensiya kapitalı da indeksləşdirilərək hər il artırılır. Sözügödən qanunun 29.1-1 maddəsində qeyd olunur ki, sığortaolunanların fərdi şəxsi hesabının sığorta hissəsində qeydə alınan pensiya kapitalı ildə bir dəfə istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq indeksləşdirilir".**

Adalet.az xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. O bildirib ki, pensiya kapitalları 2025-ci ildəki illik inflyasiya səviyyəsinə uyğun olaraq artırılılır: "Dövlət Statistika Komitəsinin son məlumatına görə, 2025-ci ildə illik inflyasiya səviyyəsi 5.6 faiz olub.




Bu o deməkdir, vətəndaşlarımızın 1 yanvar 2026-cı il tarixinə olan pensiya kapitalları 5.6 faiz artırılacaq. Belə ki, əgər vətəndaşın 40 min manat pensiya kapitalı varsa, onun yığımına 2 min 240 manat əlavə olunacaq. Nəticədə, həmin vətəndaşımızın pensiya kapitalı 42 min 240 manat olacaq. Pensiya kapitalının indeksləşdirilərək artırılması ilə bağlı gələn ayın əvvəllərində Azərbaycan Prezidenti tərəfindən sərəncamın imzalanacağı gözlənilir.

Bununla da istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq, sığortaolunanların fərdi şəxsi hesabının sığorta hissəsində 2026-cı il yanvarın 1-dək qeydə alınmış pensiya kapitalı məbləğlərinin indeksləşdirilməsi həyata keçiriləcək.

**Pensiya kapitalının indeksləşdirilməsi yığılan pulların inflyasiyadan qorumaq məqsədi daşıyır. Məqsəd həmin vəsaitlərə qiymət artımlarının təsirlərini minimumlaşdırmaqdadır. Pensiya kapitalının indeksləşdirilməsi ilə pensiyaların indeksləşdirilərək artırılması eyni anlama gəlməməlidir. Pensiya kapitalı inflyasiya səviyyəsinə, əmək pensiyaları isə əvvəlki ildə orta aylıq əməkhaqqıda artım faizinə uyğun olaraq artırılır. Pensiya kapitalında artım 5.6 faiz olsa da, əmək pensiyalarının 9.2 faiz artacağı gözlənilir".**

**Sübhan**

*Vasif Əlihüseyn*

# "Maxovik" satan, kisəçi oğlan



**Ölkədə indi adama elə bir əmək haqqı təklif olunur ki, onunla ailə dolandırmaq mümkün deyil. Məcbursan iki yerdə işləyəsən. "Çatmır" sözü isə demək olar ki, hamımızın evinin qonağıdı. Nə qədər çalışırsan, qazanırsan, alırsan-satırsan, amma yenə də çatmır.**

**Günlərin birində rayonda qonaq idim, yaxın uşaqlardan biri gəlib dedi ki, gedək Masallıdan texnikam üçün "maxovik" ehtiyat hissəsi alaq. Birlikdə ehtiyat hissələri satılan ünvana yollandıq və adı çəkilən ehtiyat hissəsini bizə bir cavan oğlan satdı.**

**Üstündən bir neçə gün keçəndən sonra isə başqa bir yaxın adamla Masallıya hamama getdik. Elə bir az çiməndən sonra dedim ki, kisəçini çağırın, gəlsin. Doğrusu, hamama ancaq kisələnmək üçün gedirəm.**

**Kisəçi gəlib qapını açıb hamama girəndə məəttəl qaldım. Həmin "maxovik" satan oğlan idi. Dedim ki, qardaş, sən hara, bura hara? Sən o gün bizə ehtiyat hissəsi satan qardaş deyilsən? Dedi ki, hə əmi, həmin oğlanam. Neyniyim, dolanışıq çətindi, orda da işləyirəm, burda da.**

**Baxdım ki, doğrudan da bu cavan oğlanı qınamalı deyil. Burda da adamın birini 5 manata kisələyir. Ondan da hamam sahibinə faiz verir və yerdə qalan pula da evinə çörək aparır.**

**Allah hamının işini avand eləsin...**

# *"ABŞ-nin İrana hücumu rejimi dəyişəcək"*



**"ABŞ və İsrailin İrana qarşı hücumu an məsələsidir. Artıq ABŞ Yaxın Şərqə kifayət qədər hərbi əməliyyatlar üçün qüvvələrini yerləşdirib. İsrail də müdafiə və hücum əməliyyatlarını yüksək hazırlıq vəziyyətinə gətirib. Əbu-Dabidə Rusiya - ABŞ və Ukrayna danışıqları nəticəsiz olacaqsa, ABŞ-nin İrana qarşı hücumu reallaşa bilər".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Onun sözlərinə görə, ABŞ-İsrailin 12 günlük müharibədən fərqli olaraq əsas hücumu İranın Ali dini rəhbəri və sistemin rəhbər şəxslərini aradan götürmək olacaq:

"Əgər, İran danışıqlara açıq olduğunu elan etsə, təklifləri qəbul edərsə, hücum olmaya bilər. Demək olar ki, ABŞ İrana hərbi təzyiqləri artırır. Amma, İran rejimi öz mövqeyindən geri çəkilmir. Çin və Rusiyadan silahlar alır. Bir neçə aya kimi nüvə silahı əldə etmək potensialına malikdir. Xüsusilə nüvə silahını Rusiya İrana ötürə bilər. İran elan edib ki, hücum regional müharibəyə səbəb olar. Həmçinin İsrailə neft ötürən kəmərləri vura bilər.

Onu da qeyd edim ki, Bakı -Ceyhan neft kəməri İsrail - Azərbaycan arasında deyil, Türkiyə -Azərbaycan arasındadır. Ordan Ceyhan limanından istənilən ölkə nefti ala bilər. Azərbaycan İsrailə neft ixrac etmir. Əgər, İran Türkiyə və Azərbaycana qarşı hərbi təxribatlara əl atarsa, İran rejimi devriləcək. Həmçinin Azərbaycan və Türkiyə Cənubi Azərbaycana ordu yeridə bilər.Qeyd edim ki, İrana təhlükə İraq və körfəz ölkələrinin ərazisindəndir. Azərbaycan və Türkiyə daima İrana qarşı hərbi müdaxilənin əleyhinə olub".

**Vasif**

# *Rodriges: "Venesuela ABŞ-ın əmrlərindən qurtulmalıdır"*

**Venesuela prezidentinin səlahiyyətlərini həyata keçirən Delsi Rodriges, Puerto-la-Krus neftayırma zavodunda etdiyi çıxışında, yerli siyasətçiləri xarici prinsiplərdən asılılığa son qoymağa, yaranmış böhrandan çıxmaq üçün daxili dialoqa üstünlük verməyə çağırıb.**



Rodriges qeyd edib ki, ölkənin suverenliyinin müdafiəsi üçün yeganə çıxış yol - milli birliyin saxlanılmasındadır.

"Venesuela siyasətində Vaşintonun əmrlərini yerinə yetirməyə son qoyulmalıdır. Yalnız daxili siyasətimiz ölkədə fikir ayrılığını və münaqişələri həll edə bilər"- deyə müvəqqəti ölkə başçısı bəyan edib.

**Rüstəm Hacıyev**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Sınıqçı Əkbər

**... Kim nə deyir-desin, xalq təbabəti həmişə olub və olacaq da! Çünki insanların inandığı və güvəndiyi bir şey var! Onun adı isə belədir: xalq təbabəti! Heç kimə sirr deyil ki, bir adamın ayağı, qolu sınanda ya travmatoloqa, həkimə, ya da sınıqçıya üz tutur. Xüsusən də deyilən yerlərdə burxulma, çıxıq olanda həkimdən çox insanlar sınıqçının yanına gedirlər.**

**Və bu da təbiidir. Ən azından ona görə ki, tanıdıqları sınıqçı onları çətin durumdan dəfələrlə xilas edib. Daha doğrusu, onun yanına gələnləri inandırmağı bacarıb. Heç kim kortəbii, yaxşı tanımadığı sınıqçının yanına gedən deyil!.**

**Mən bir neçə sınıqçı tanıyıram və onların heç biri ən məşhur travmatoloqdan geri qalan deyil. Məsələn, Füzulidə rəhmətlik Cümşüd kişi, oğlu, əslən Zəngilandan olan Əjdər müəllim və çoxdan tanıdığım, gözəl insan, əslən Qərbi Azərbaycandan olan Əkbər qardaşımız! Cümşüd kişi çoxdan rəhmətə gedib və yeri Cənnət olsun! Yadımda qalan odur ki, bir dəfə rəhmətlik atam idarə etdiyi "Pobeda"da qəzaya düşmüşdü. Onu evimizə gətirdilər və belinin ağrısından tərpənə bilmirdi. Rəhmətlik Hüseyn əmim gedib Merdinlidən Cümşüd kişini gətirdi. O da atamın belinə müəyyən bir məlhəm qoydu və bir aydan sonra o, sağaldı. Hansı ki, rayonun travmatoloqu belə yaxşı müalicə edə bilmirdi və ona görə də camaatın sınıqçı Cümşüdə böyük inamı vardı. Və Füzulidə hər hansı adam çətinə düşən kimi onu axtarırdı. Çünki travmatoloqun da səhvini Cümşüd kişi düzəldirdi... Yeni Güneşlidə də məşhur bir sınıqçı var - Əkbər kişi! Sınıqçı kimi də, insan kimi də tayı-bərabəri yoxdu. Bu yaxınlarda nəvəmin ayağı burxulmuşdu. Elə o vəziyyətdə də işə, ordan da universitetə getmişdi. Axşam evə qayıdandan sonra gördük ki, ayağı şişib. Vaxt itirmədən sınıqçı Əkbər qardaşımızı axtardıq.**

**Dostum Səməndər müəllim dedi ki, onun əlləri qızıldır, amma mobil telefon nömrəsini bilmirəm. Digər dostum Arifə zəng vurdum və o, nömrəni bizə verdi. Və Əkbər kişi ilə danışıb məkanı bizə göndərdi. On dəqiqədən sonra onun evinə çatdıq və bizi çox mehribanlıqla qarşıladı. Nəvəmin burxulmuş ayağını barmaqları ilə müayinə elədi. Dedi ki, əvvəldən bu hissədə zədələnmə olub. Düz deyirdi, üç il qabaq nəvəmin həmin ayağı burxulmuşdu və şiş yaranmışdı. Bir neçə dəqiqənin içində o, qızıl barmaqları ilə çıxan yeri yerinə oturtdu. Nəvəm əvvəlcə bərk ağrı hiss etdi və sonra tam sakitləşdi və bir neçə dəqiqədən sonra ağrı-acı yoxa çıxdı, çöhrəsində əvvəlki təbəssüm göründü.**

**Elə həmin an həmin nahiyəyə Əkbər kişi məlhəm qoydu. Və dedi ki, bir də bir gündən sonra gələrsiniz. Jurnalist olduğumu biləndən sonra aramızdakı səmimiyyət bir qədər də artdı.**

**Dedi ki, Aqil Abbasın oğlu Tuncay mənim dostumdur. Bir dəfə də Aqil müəllimin ayaqlarında yaranmış problemə əlaqədar onlarda olmuşam. Özü də, oğlu da çox insan adamdılar. Bax, əlləri qızıl olan Əkbər kişi belə bir insandı. Hamıya bacardığı köməkliyi göstərir və hamı da ondan razı qalır. Çünki sınıqçı Əkbər qardaşımız el adamıdır. Və el adamını da həmişə el axtarır!!!**

## *Deyirlər ki, yenə qar yağacaq...*



**Yanvarın 20- si Bakıya ilk qar yağdı. Bu , hər şeydən öncə uşaqların böyük sevincinə səbəb oldu. Elə böyüklər də az sevinmədi.İlk qar göstərdi ki, Bakı soyuq havalara, qarlı günlərə heç də tam hazır deyilmiş.**

Düzdür, qar yağan axşam Bakının mərkəzi küçə və prospektləri qardan normal təmizləndi, amma ikinci dərəcəli yollar, eləcə də məhəllələrarası yerlə təmizlənmədi. Bu istər - istəməz bəzi problemlərin yaranmasına gətirib çıxardı.Yeni həmin yerlərdə hərəkət edən avtomobillər, eləcə də piyadalar bir çox çətinliklərə üzləşdilər.

Belə ki, avtomobillər qarlı havada sürüşdü, bir çox piyadalar yıxılaraq müxtəlif dərəcəli xəsarət aldılar. Hansı ki, həmin yerlərdə də qar vaxtında təmizləmək olardı ki, dediyimiz problemlər yaranmasın. Qar yağanda paytaxtda bir çox yerlərdə işıqlar söndü, mənzillərə verilən istiliyin təzyiqi aşağı düşdü! Görünür, bizə və daha doğrusu, şəhərimizə qar yaraşmır. Bunlar keçmişdə qaldı.

Heç olmazsa, yenə qar yağsa, xidmət sahələri bu sadaladığımız nöqsanları aradan qaldırsın, onlar qarlı havada insanların ovqatın korlamasınlar. Qar yağanda biz əziyyət yox, ona baxın ləzzət alaq!!!

**Emil FAİQOĞLU**

## *"Azəristiliktəchizat" verməyi istiliyin pulunu istəyir*



**Hər bir xidmət sahəsinin pulunu ödəmək hamının borcudur.Heç şübhəsiz ki, işığın, qazın, suyun , istiliyin də pulun vermək vacibdir! Amma gərək həmin xidməti göstərəsən.Yəni suyu, işığı , qazı , istiliyi əhaliyə verəsən.**

Biz həmişə adını çəkdiyimiz bu xidmətlərə görə, pulu ödəmişik və heç birinə borcumuz yoxdur! Ancaq " Azəristiliktəchizat" verməyi istiliyə görə , bizə bildiriş göndərib.Belə ki, Yeni Günəşli yaşayış sahəsi, massiv " D", bina 13, mənzil 26- ya bu il 55 manat borc gəlib. Hansı ki, bizim evdə 4 radiatordan cəmisi biri yanır, o da çox zəif, amma onlar 4 radiatorun pulun göndəriblər.

Bu barədə "Azəristiliktəchizat" ın sahə rəisi Məhəmməd müəllimə və məlum qurumun iqtisadçısı Orxan müəllimə lazımi məlumatı da vermişik. Məhəmməd müəllim gəlib mənzilimizdə baxış da keçirib.Görüb ki, dediklərimiz öz təsdiqini tapıb. Ancaq Orxan müəllim hələ də bir qərara gəlməyib. Yəni mənzilimizə verilməyən istiliyə görə , borcumuz silinməyib!

Onlar ya bizim mənzilimizin hamısına istilik verməlidir, ya da borcumuzu silinməlidir. Sahə rəisi Məhəmməd müəllim deyir ki, zirzəmidəki vintillər və digər avadanlıqlar dəyişdirilməlidir. Bu da 50 manat eləyir. Bəlkə bundan sonra sizin blokdakı mənzillərə istilik gələ. Heç belə getsə, bu qış bizim mənzillərə istilik çox çətin ki, verilə! Amma işlətmədiyimiz istiliyə görə, bizə borc gəlir!!!

## *Yeni park nə vaxt tikiləcək?*



**Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində hamı yaxşı bilir ki, insanların istirahəti və dincəlməsi üçün normal bir park yoxdur. Babat bir yer " Fatimeyi - Zəhra" məscidinin yanandakı parkdır o da bir qədər böyük deyil. Yəni 200 minə yaxın əhalisi olan bir qəsəbə üçün bu park çox kiçikdir. Çünki yay vaxtı orada o qədər adam olur ki, parka yerimək belə çətin olur. Son vaxtlar burada yarımçıq qalmış və bərbad vəziyyətdə olan tikililər sökülədən sonra insanların yeni parka olan ümidləri artıb.**

Deyilənə görə, " Ana- bala heykəlinin yanında yeni park tikiləcək.Sözün düzü , bu günəşli camaatını çox sevindirib. Söküntüdən sonra həmin ərazini təmizləyib hasara alıblar. Və indi orada heç bir tikinti işləri aparılmır. Bu məsələ ilə bağlı aidiyyəti dövlət qurumuna müraciət etdik.

Oradan bizə bildirdilər ki, hələ bu barədə dəqiq bir söz demək olmaz. Amma çox güman ki, həmin yerdə yüksək mərtəbəli binalar deyil, böyük bir park inşa ediləcək. Göründüyü kimi, mövcud yerdə park tikilməsi ehtimalı daha böyükdür. Heç şübhəsiz ki, bu işlərin həyata keçirilməsi, yazımızın əvvəlində dediyimiz kimi, insanların böyük sevincinə səbəb ola bilər. İnsanları sevindirməkdən də gözəl heç nə ola bilməz!!!

## *Elm arxasınca gedənlər niyə azalıb?*



**Sovet dönəmində alimə, professora çox böyük hörmət vardı. Hətta ali məktəblərin birində işləyən müəllimlə tanış olan adam bunu özünə şərəf bilərdi.**

Çünki ali məktəb müəllimi raykomun birinci katibi qədər, prokuror qədər, hakim qədər hörmətli idi. Ən azından ona görə ki, cəmiyyət ali məktəb müəlliminə, alimə, elmlər doktoruna, elmlər namizədinə , professora çox böyük dəyər verirdi. Amma müstəqillik dövründən sonra alim də, ali məktəb müəllimi arxa plana keçdi. Yəni ali məktəb müəlliminin, alimin bir o qədər də nüfuzu qalmadı. Və bu gün elm arxasınca gedənlər maddi sıxıntı içində yaşayırlar.

Onlar aldıqları əməkhaqqı ilə mənzil ala bilmir, avtomobilə həsrətlə baxırlar.Təbii ki, belə çətin iqtisadi durumda onlar özlərinə normal həyat qura bilmirlər. Onların bir ildə qazandığı pulu ortabab bir müğənni bir toyda əldə edir. Bax buna görə də, elm arxasınca gedənlər bu gün azalıb. Hələ biz onlara edilən haqsızlığı , təzyiqi demirik.

Əgər adamın, arxan, güvənc yerin yoxsa, vəziyyətin bir qədər də gedəcək. Təzyiqlərə məruz qalan istedadlı gənclər isə ölkəni tərg edib gedirlər. Yəni beyin axını başlayır. Bunun qarşısının almağın yeganə yolu elmə , istedadlı gənclərə diqqəti artırmalı, bu sahəyə böyük məbləğdə vəsait ayrılmalıdır! Eləcə də istedadlı gənc alimlərə hər cür şərait yaradılmalı, onların əməkhaqları artırılmalı və bu insanlar mənzillə təmin olunmalıdır!!!

## *Piyadalar ən çox gecə saatları vurulur...*



**Son vaxtlar respublikamızda, xüsusilə də, Bakıda piyadavurma halları çoxalıb. Bəs buna görəsən, səbəb nədir? Təbii ki, bu suala birmənalı cavab vermək çətindir. Ən azından ona görə ki, bu hadisələrin baş verməsinin bir yox, bir çox səbəbləri var.**

Biz bu sualımızı Bakı Şəhəri Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr bölməsinin rəisi, polis mayoru Toğrul Nəsirliyə ünvanladıq. Cənab rəis dedi ki, Bakı şəhərində piyadavurma hallarının artması öncə bizi, yol polisi əməkdaşlarını daha çox narahat edir.

Ona görə də biz paytaxtın əksər küçə və prospektlərində qabaqlayıcı tədbirlər həyata keçiririk. Keçirilən profilaktik işlər zamanı piyadalarla yol polisi səmimi söhbətlər edir, onları maarifləndirir və lazımi tövsiyələr verir. Çox qəribədir ki, yeraltı və yerüstü keçidlərin yaxınlıqda olduğu bir yerdə piyadalar ondan istifadə etmir, yüksək sürətlə hərəkət edən avtomobillərin arasından yolu keçmək istəyirlər.

Bu isə çox təhlükəlidir. Çünki yüksək sürətlə hərəkət edən avtomobil hər an təyin olunmayan yerdən keçən piyadanı vura bilər.

Qanuna əməl etməyən , piyadaya yol verməyən sürücü də var, yol hərəkəti qaydalarını kobud surətdə pozan piyada da! Bax bunların günahı, səhlənkarlığı üzündən ölümlə nəticələnən ağır qəzalar qaçılmaz olur. Düzdür, belə sürücülər və piyadalar İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri ilə cərimə edilirlər.

Amma bizim məqsədimiz kimisə , cərimə etmək deyil, intizama dəvət etməkdir. Və çox vaxtda buna nail oluruq. Bir də ən çox piyada vurmalar sutkanın qaranlıq saatlarında olur. Belə ki, yağış yağanda və yollar normal işıqlandırılmayanda piyadavurma hadisələr daha da çoxalır. Piyada elə bilir ki qaranlıq havada sürücü onu yaxşı görür.

Amma bu, belə deyil, çünki sutkanın qaranlıq saatlarında , gündüz saatları ilə müqayisədə yol yaxşı görünmür. Bir qədər yağış yağanda vəziyyət daha da çətinləşir və piyadavurma hallarının baş verməsi üçün münbit şərait yaranır! Deməli, birmənalı olaraq həm sürücülər , həm də piyadalar daha diqqətli olmalıdırlar ki , belə havalarda ağır qəzalar baş verməsin!!!

## *Seyid dilənməz...*



**Biz həmişə görmüşük ki, insanlar seyidin qapısına gedir, ona nəzir- niyaz verir.Yaxşı yadımdadır. Universitetin jurnalistika fakültəsinə qəbul olmuşdum .**

Anam da həmin vaxtı ali məktəbə qəbul olunmağım üçün Seyid Həsən Ağanın o ağına nəzir demişdi.Demişdi ki, oğlun universitetə qəbul olsun Seyid Həsən Ağaya bir erkək qoyun nəzir deyirəm. Ali məktəbə qəbul oldum və bir yekə erkək qoyun alıb , qardaşım Qürbətlə Zəngilan - Seyid Həsən Ağanın ocağına getdik. Həyətə girəndə sifətindən nur yağan və seyidlərə məxsus libas geyen bir kişi qarşıladı.

O qədər mehriban , o qədər səmimi insan idi ki, hələ də onun çöhrəsində olan işıq yadımda qalıb.Qoyunu maşının yük yerindən düşürüb həyətə biraxdıq. Qardaşım dedi ki, bunu sizin ocağa nəzir demişik.Seyid qəssabı çağırtdırdı, o da on, on beş dəqiqəyə qoyunu kəsib, söydü və ətini səliqə ilə doğradı. Bir qədər qazana atıb bişirdilər, çünki həyətdə seyidi ziyarətə gələn çoxlu qonaq- qara vardı. Və əti bişirb, qonaqlara yemək verdilər.

Qalan yerləri qurbanlıq kimi, kənd camaatına payladılar və bir qolunu da bizə pay verdilər ki, aparıb qurbanlıqdan biz də yeyək! Seyid Həsən Ağaya kim nəzir kimi pul verirdisə, o da pulu bir manatdan camaata paylayırdı.Hətta Seyid Həsən Ağanın 1974-cü ildə mənə verdiyi pul bu gün də durur.Biz seyidi belə görmüşük. Böyük Bəhmənlidə Seyid Əli Ağa vardı. Həm güclü seyid idi, həm də böyük ziyalı! Rəhmətlik Seyid Əli Ağaya nəzir- niyaz verəndə o da el- obaya paylayardı! İndi onun ocağında çox dəyərli, vətənpərvər övladları var. Onlar da ataları kimi verilən nəziri camaata verir. Bax , biz seyidləri belə görmüşük. Seyid dilənməmidir, dilənirsə, o, seyid deyil!!!

**Emil FAİQOĞLU**



# "Dövlətin nüfuzu yalnız iqtisadiyyatla yox, həm də siyasi sabitlik, təhlükəsizlik..."

**”Ölkəmizə və ölkədə nüfuz sahibi olan şəxslərə qarşı yönəlmiş bu yeni kampaniya təsadüfi deyil. O, məqsədli, planlı şəkildə, konkret tapşırıqlar və verilmiş əmrlər əsasında əsasında həyata keçirilib. Bu prosesin bilavasitə ölkə daxilində xaricdən idarə olunan, kənar iradənin göstərişlərini icra edən siyasi meyitlərin zərərsizləşdirilməsi və siyasi təmizlik mərhələsinə keçidlə bağlı qəti qərarın verilməsindən sonra formalaşıb. Yeni dünya çağırışlarının sürətlə dəyişdiyi mövcud geosiyasi kontekstdə qəbul edilən kəskin və gərgin siyasi qərarların isə bəzi siyasi dairələri ciddi şəkildə sarsıtdığı və təşvişə saldığı aydın görünür”.**

Adalet.az xəbər verir ki, bunu ”Yeni Xətt” siyasi tədqiqatlar mərkəzinin rəhbəri Ramil Hüseynov deyib.

O, bildirib ki, İstər beynəlxalq münasibətlərdə, istərsə də daxildə planlaşdırılan, gələcək perspektivdə ölkəmizin siyasi şanını və şöhrətini daha yüksəklərə qaldırmağa hesablanan idarəetmə metodu dövlətimizə qarşı çirkin kampaniyaların yeni, iyrənc bir mərhələyə keçməsinə səbəb olub:

”Dövlətin nüfuzu yalnız iqtisadiyyatla yox, həm də siyasi sabitlik, təhlükəsizlik, beynəlxalq nüfuz və mövqe, eləcə də sosial inkişafla ölçülür. Dövlət idarəçiliyimizin daha çevik və institusional xarakter alması, rəqəmsallaşdırma və



xidmətlərin modernləşdirilməsi, sivil dünya toplumu və dərin təfəkkürə malik dünya gücləri ilə müvafiq inteqrasiya, eləcə də dövlətin strateji planlamasının məqsədyönlü aparılması imkanlarımızın daha məqsədli və milli maraqlara uyğun şəkildə həyata keçirilməsinə şərait yaradıb. Təbii ki, bu proses regionda və regiondan kənar qüvvələrin narahatlığına səbəb olub və bütün mənəvi cəhətdən deqradasiyaya uğramış şəxslərdən bu ciddi uğurlara zərbə vurmaq üçün şərəfsizcəsinə istifadə edirlər. Bu gün atılan addımlar və hesablanan siyasi strategiyamız gələcəkdə ölkəmizin daha qüdrətli inkişafı, eləcə də xalqımızın rifahı naminə atılan addımlardır və onların qarşısını almağa cəhd edən həmin qüvvələr milli və mental dəyərlərimizə zidd, şəxsiyyətsizlik sindromuna yoluxmuş müəyyən məxluqlardan istifadə edirlər”.

R.Hüseyn deyib ki, 2020-ci ildən etibarən yeni geosiyasi reallıqlar yaradan diplomatiyamız və həmin diplomatiyanın arxasında dayanan müdrik xalqımızla şanlı ordumuz dövlət suverenliyimizi bərpa etdi:

**”Eyni zamanda möhkəm və sarsılmaz, əzəmətli bir həmrəylik və milli birlik yaratdılar ki, bu da bizi istəməyən qüvvələrin ciddi narahatlığına səbəb olmaya bilməz. Regional aktor kimi daha fəal olan Azərbaycan və onun mütərəqqi siyasəti xalqımızın layiq olduğu bütün mütərəqqi addımları atacaq və planlaşdırdığı bütün siyasi aksiyaları həyata keçirəcək. Biz daha güclüyük, daha böyük, daha müstəqil, daha azad və daha suverenik. Bu böyük düşüncənin, bu sərrast diplomatiyanın, bu müdrik xalqın qarşısında siz əziləcəksiniz və yox olacaqsınız bundan əmin olun. Dəmir yumruq indi daha möhkəmdir! Daha güclüdür! Daha qətiyyətlidir! Daha prinsipialdır!”.**

**Vasif ƏLİHÜSEYN**

# Hikmət Hacıyevin adından saxta məzmunlu video yayılıb

**Sosial şəbəkə platformalarında fəaliyyət göstərən bir sıra hesablar vasitəsilə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin adından ”deepfake” texnologiyası tətbiq olunmaqla hazırlanmış, reallığı əks etdirməyən və saxta məzmunlu video yayılıb.**



Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi açıqlama yayıb.

Bildirilib ki, süni intellektin köməyi ilə hazırlanmış, ictimai rəyi çaşdırmağa yönələn bu dezinformasiya nümunəsi Azərbaycan və Türkiyə arasında olan münasibətləri zədələməyə, iki qardaş ölkə arasında mövcud olan strateji müttəfiqliyə xələl gətirməyə və qarşılıqlı etimadı sarsıtmağa xidmət edir.

”Cəmiyyəti yalnız rəsmi mənbələrin verdiyi informasiyaya inanmağa, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumat əsaslı kampaniyaların, ”deepfake” texnologiyaları ilə məzmunyaratma tendensiyasının vüsət aldığı bir şəraitdə sayıq olmağa səsləyirik.

Eyni zamanda, sosial şəbəkə platformalarının sahiblərini və müvafiq qurumları zərərli və saxta məzmunun operativ şəkildə aradan qaldırılması, bu tip halların qarşısının alınması üçün effektiv mexanizmlərin tətbiqi istiqamətində tədbirlər görməyə dəvət edirik”, - deyə Medianın İnkişafı Agentliyinin məlumatında qeyd olunub.

# «AQTA-nin ayağı yerdən üzülüb, lazımi nəticəni əldə edə bilməyəcək»

**Xəbər verdiyimiz kimi, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli İctimai Televiziyanın ”Sabaha saxlamayaq” proqramında iştirak etməmək üçün əməkdaşlarına qadağa qoyub. Bu haqda verilişin aparıcıları özləri efirdə məlumat veriblər və bundan təəssüfləndiklərini bildiriblər. Verilişin aparıcıları bildiriblər ki, əgər İctimai Televiziyanın efirindən ictimaiyyəti narahat edən bir mövzunu müzakirə ediriksə və əgər bütün bunlardan məsul olan dövlət qurumu ictimaiyyət qarşısına çıxıb bununla bağlı açıqlama vermək istəmir, hələ üstəlik bir verilişdə iştirakı əməkdaşlarına qadağan edirsə, burda həqiqətən sular bulanır kimi bir şübhə yaranır. O zaman istənilən tamaşaçı narahat olacaq ki, marketlərdən aldığımız, evimizə sifariş etdiyimiz sulara nə qədər etibar edə bilərik. Ən azından AQTA nümayəndələri efirə gələrək özləri hansı sudan içirlər bu barədə bizə deyə bilərdilər.**

Məsələylə bağlı Adalet.aza danışan Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib ki, çox təəssüflər olsun yeni dövlət qurumu yaradılanda, o cümlədən AQTA 2018-ci ildə yaradılanda biz çox sevinsək də, lazımi nəticələri görə bilmədik:

”İlk günlərdən onlar mediaya və əhali ilə sıx işləyə bilmədilər. Elə olub ki, AQTA əməkdaşları mənimlə olduqları verilişi yarımçıq tərk edib çıxıb gediblər. İctimai nəzarətə dair cənab Prezidentin açıq ifadə olunmuş çağırışları var. Mən



həmişə demişəm və yenə də deyirəm ki, ictimai nəzarət yalnız və yalnız kütləvi informasiya vasitələrinin üzərindən həyata keçirilməlidir. İctimai nəzarətlə məşğul olan insanlar, qurumlar, o cümlədən QHT-lər bunu təkbaşına etsələr də heç bir nəticəsi olmayacaq. Bu, kütləvi informasiya vasitələri ilə sıx əlaqədə olmalıdır. İctimai nəzarətdən və eləcə də KİV-indən qaçan adamlar deməli bir günah sahibidirlər. Mən dəfələrlə AQTA əməkdaşlarına demişəm ki, gəlin efirə çıxın, siz mütəcəssissiniz, mövzuyla bağlı müzakirələrdə qarşı tərəfi, həmçinin məni yerimdə oturdun. Onda da hamı görsün ki, siz məntiqli, ağıllı danışırsınız. Onda mən də bir şey öyrənib yerimdə oturum. Lakin bu baş verməyib, onlar həmişə bundan qaçıblar”. Ekspert deyib ki, dövlət qurumları yaradılanda onların ayaqları yerdən üzülüb, ərşə qalxırlar, insanlarla əlaqə saxlaya bilmirlər və yalnız qapanmaq yoluna seçirlər: ”Nə qədər ki, yeni yaranan dövlət qurumları, o cümlədə AQTA-nin ayaqları yerdən üzülüb onlar lazımi nəticəni əldə edə bilməyəcəklər. Öz əsasnamələrində qarşıya qoyulan məsələlərə, o cümlədən cənab Prezidentin onlara etibar edib və gözlədiyi hədəflərə çata bilməyəcəklər. Çünki hər şeyin kökündə insanlar durur.

Qida Təhlükəsizliyi Agentliyində hədəf obyekti insanların sağlamlığı, təhlükəsizliyinin qida ilə təmin olunmasıdır. Ona görə də illərdir ki, küçə kəsimini ləğv edə bilmirlər. Çünki insanların inamını qazana bilmirlər ki, onlar gedib ordan ət almasınlar. Çox təəssüf ki, onlar İctimai Televiziya kimi bir kanalın verilişindən qaçırlar. Bu isə böyük bir səhvdir və bunu düzəltməlidirlər”.

**Vasif**

# *"Rusiya komandanlığının tükədici taktikası Ukraynada heç bir nəticə vermir"*

**”Ukrayna cəbhəsində son vaxtlar çox maraqlı hadisələr baş verir. Ukrayna Xüsusi Təyinatlıları Zaporoje istiqamətində irəliləyib.Xüsusi təyinatlılar kiçik Tokmaçkanın cənub kənarına çıxıblar və əvvəlcə işğalçılar tərəfindən nəzarət edilən mövqeləri ələ keçiriblər. Ukrayna Cənub Müdafiə Qüvvələrinin sözçüsü Vladislav Voloşin bildirib ki, işğalçılar Xerson vilayətindəki Oleksiivski adasındakı mövqelərini tərk ediblər. Məlumata görə həmən mövqelərdə olan Rusiya ordusunun bölmələri öz başına mövqeləri tərk etməsindən Ukrayna ordusu istifadə edib”.**



Adalet.az xəbər verir ki, bunu hərbi bloger Tofiq Şahmuradov deyib.

O, bildirib ki, Rusiya Silahlı Qüvvələrinin komandanlığının tükədici taktikası Ukraynada heç bir nəticə vermir:

”Aramsız hücumlara baxmayaraq, cəbhənin heç bir istiqamətində irəliləyiş mümkün deyil, hücumlar çox ağır itkilərlə nəticələnir. Rusların bizdən 10 nəfər, düşməndən 5 nəfər getsə sonda biz qalib gələciyik düşüncəsi dağıldılıb. Çünki itki nisbəti hal-hazırda 1/10 deyil heç. Elə döyüş epizodları var ki, Ukrayna ordusu 1 nəfər itki vermədən ruslara 100-lərlə itki verdirirlər suni intelektlə idarə olunan dronlarla. Rusların aylıq döyüş itkiləri təqribən 30-35 min civarındadır. Orduya qəbul etdikləri aylıq hərbi qulluqçu sayı 43-45 min civarındadır. Yaşayış məntəqələrinin verdiyi avantajdan istifadə edən Ukrayna ordusu demək olar ki, üzbə-üz kontakt döyüşə girmir. Qruplar şəklində bölünən ukrayna ordusu yaşayış binalarının zirzəmilərində oturub təklükəsiz vəziyyətdə gözlüyür, rusların hücumlarının qarşısı dronlar vasitəsi ilə tam şəkildə alınır. Ehtiyac yarandığı təqdirdə bölmələr kontakt döyüşə girirlər. Yayılan kütləvi video görüntülərdən Rusiya ordusunun mənəvi-psixoloji hazırlığının hansı səviyyədə olduğun göstərir. Ağır itkilər, havanın kəskin soyuq olması, orduda mənəvi-psixoloji vəziyyəti tam aşağı salıb”.

**Subhan**

# Vaşinqton bölgəyə hava hücumundan müdafiə sistemləri yerləşdirir

**”ABŞ və İran arasında Yaxın Şərqdə gərginliyin artmaqda davam etdiyi bir vaxtda Vaşinqton bölgəyə əlavə hava hücumundan müdafiə sistemləri köçürməyə hazırlaşır”.**

Adalet.az xəbər verir ki, bunu hərbi ekspert Ədalət Verdiyev deyib. O, bildirib ki, plan çərçivəsində bölgəyə əlavə MIM-104 ”Patriot” zenit-raket batareyaları və THAAD (Terminal High Altitude Area Defense) ballistik raket əleyhinə müdafiə sistemləri yerləşdiriləcək: ”Bu sistemlərin əsas məqsədi regionda yerləşən və mövcud olan ABŞ qüvvələrini və müttəfiqlərini İranın mümkün raket və dron hücumlarından qorumaqdır. Paralel olaraq ABŞ Hərbi Hava Qüvvələrinə məxsus altı C-17A Globemaster III nəqliyyat təyyarəsi hazırda ABŞ-dan Avropa və Birləşmiş Krallığa hərbi təchizat və qüvvə daşınmasını həyata keçirir”.

**Eldar**

# *Teleaparıcılar Azərbaycan dilində qarşılığı olan 33 xarici söz işlədiblər*

**Ötən ilin dekabr ayında Azərbaycan dilində qarşılığı olan 33 xarici söz 14 televiziya kanalının aparıcıları tərəfindən ümumi olaraq 1366 dəfə istifadə olunub.**

Adalet.az xəbər verir ki, bu barədə Audiovizual Şura məlumat yayıb.

Qeyd edilib ki, keçən ilin son ayında ümumölkə yerüstü və peyk yayımında olan 14 televiziya kanalının efiri süni zəka əsaslı proqram vasitəsilə monitorinq olunub. Monitorinq zamanı bədii filmlər, seriallar, tamaşalar və digər bədii əsərlər, həmçinin xarici vətəndaşların çıxışları nəzərə alınmayıb.

İlkin müşahidələr nəticəsində ən çox rast gələnən xarici sözlərin istifadəsi yoxlanılıb. Daha sonra həmin sözlərin siyahısı AMEA-nın Dilçilik İnstitutuna təqdim olunmuş, onların həqiqətən xarici söz kimi Azərbaycan dilində qarşılığının olub-olmamasının bildirilməsi xahiş olunub.

Bildirilib ki, Dilçilik İnstitutunun rəsmi rəyinə əsasən təqdim olunmuş sözlərdən 33-ü Azərbaycan dilində qarşılığı olan xarici söz kimi müəyyən edilib.



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# KÖÇ

## Ömrümün ağrılı anlarından fraqmentlər

Bilmirəm havadandır, yoxsa ətrafımızdakı auradan, yoxsa hər tərəfdən basqı edən informasiyalardan... Bilmirəm, amma bilmək istəyirəm çünki indi köklündiyim sarı sim çox üzücü və xatirələrlə, özü də kədərli xatirələrlə yüklənib Müdriklər deyib, kitablar yazıb, bir az böyük səslənsə də mən özüm də bir neçə dəfə yazılarımda vurğulamışam ki, tarix təkrarlanır, bir az ərklə, bir az əyər-əskiyi ilə...

Düşünməyin ki, sizə Tarixi-Nadirdən danışacam... Ağlınıza gətirməyin ki, hansısa ağrılı günümü sizə deyingən adamlar kimi təkrar danışacam. Yox! Bütün bunlardan çox uzağam. O qədər uzağam ki, o xatirələr də, o keçmiş də, olmuşların hamısı da indi mənimlə çiyin-çiyinə dayanıb...

Sanki qoşulub mənə köç edəcəklər həyatda sevmədiyim və yazılarda, söhbətlərdə qarşıma çıxanda məni haldan-hala salan bir neçə söz var. Onlardan biri KÖÇdür. Amma bir vaxtlar rəhmətlik Xalq yazıçısı Mövlud Süleymanlının "Köç"ünü sevə- sevə oxumuşdum. Bəlkə də elə o sevgi məni həyatımın ağır anlarında ayaqda saxlayan səbəblərdən biri oldu...

İndi köç deyəndə qaçqınlıq, köçkünlük yadıma düşür. Gözümün önündən ömrümdən gəlib keçir. Və illərlə hücrəm olan bu ovuc içi boyda otaqda daxilən həmin anları yaşayıram. Və kitab rəflərimə baxıram, gah stolumun üstündə, jurnallara, dəftərə, qələmə, gah da mənə həyatın gözəllliyini xatırladan dibçəkdəki güllərimə... Adam bu mənzərənin içərisində kim olduğunu, nə üçün yaşadığını bilirdi, anlayırdı. Amma indi fərqinə varıram ki, mən bunlarsız kim olacam, necə olacam?... Bu sualın cavabını bilmirəm. Deyə bilərsiniz ki, həyat davam edir. Və siz həyatın davam etdiyini mənə xatırladanda mən ömrümün bir məqamını da xatırlayıram...

1980-ci ilin yayı idi. Sovet ordusundan tərxis olunmuşdum. Bir tələbə kimi artıq özümü dünyanın ən xoşbəxt bəndələrindən biri sayırdım. Üstəlik də yazılarım ara-sıra mətbuatda işıq üzü görürdü. Necə deyərlər, ədəbiyyatın, bir də qələmin dəlisi olmuşdum. Həmin günlərdə də kitab mağazasından rəhmətlik Əlfi Qasımovun "İnsan qaranquş deyil" adlı kitabını aldım. Öncə kitabın adı məni özünə çəkdi. Həmin günün axşamı da "İnsan qaranquş deyil" povestini oxudum. Əməkdaşlıq etdiyim " Təşviqatçı" jurnalının baş redaktoru Əlisəfa Məmmədovun (həyatımın ən xeyirxah insanı, yaddaşıma adı həkk olunmuş yazıçı-publisist Ə.M) otağına gəlib ondan Əlfi müəllimi tanıyıb-tanımadığını soruşdum. Maraqla üzümə baxıb:

-Xeyirdimi?

-Povestini oxumuşam. Tanısaydım, gedib ona fikirlərimi deyərdim.

Elə yanımdaca telefonu götürüb, harasa zəng etdi. Çox mehriban hal-xoş edəndən sonra dedi:

- Əlfi, yanımda bir yerlin var. Sənin povestindən danışdı. Səni görmək istəyir. Göndərirəm yanına...

Dəstəyi yerə qoyub, üzünü mənə tutdu:

-Əlfi mənim tələbə yoldaşımdır. Həm də dostuq. Dur get Nəşriyyat Komitəsinə. Əlfi oranın böyüyüdür...

Doğrusu, Nəşriyyat Komitəsi sözü məni bir balaca qorxutdu. İçimdə bir tərəddüd baş qaldırdı. Adi tələbə bir adamın durub komitə sədrinin yanına getməsi mənə möcüzə kimi gəlirdi. Amma Əlisəfa müəllimin: dur, ürəkli ol, məmnun qayıdacaqsan deməsi mənə həqiqətən cəsarət verdi. Getdim Əlfi müəllimin qəbuluna. Dərhal qəbul etdi məni. Kimliyimi hardan olduğumu, harda oxuduğumu soruşdu. Problemlərimlə maraqlandı. İnanın ki, yarım saatlıq söhbətin içərisində bir dəfə də olsun povestini xatırlatmadı. Sonda mən özümü toplayıb dedim ki, Əlfi müəllim, bütün gecəni sizin son kitabınızı oxudum. Amma povestin adı ilə razılaşmıram. Axı deyirsiniz ki, insan qaranquş deyil. Təbii ki, qaranquşlar yuvalarına qayıdır. İnsan da yuvasına qayıdır - gəzib, dolaşıb evinə dönür...

Əlfi müəllim təbəssümlə:

-Sevinirəm ki, povest xoşuna gəlir. Çox sağ ol ki, oxumusan. Fikirlərin də maraqlıdır. Amma insan ali zümrədir. O, düşüncə ilə, ağılla dönür ocağına. Qaranquşlar isə instinktlə...

Və beləcə mən ilk dəfə Azərbaycanın sayılan-seçilən bir yazıçısının, həqiqi mənada böyük bir aydınının qarşısında özümü həm rahat hiss etdim, həm də anladım ki, insanlıq vəzifə ilə, titulla, maddi durumla ölçülmür. İnsanlıq diqqətlə, səmimiyyətlə, vicdanla, böyük hərflərlə yazılan ADAMLIQla müəyyən olunur. İndi də düşünürəm ki, mən o vaxt bəlkə də fikirlərimdə tələskənliyə, çılğınığa yol vermişdim. Amma böyük ziyalı, böyük ürək sahibi olan Əlfi Qasımov bunu mənə hiss etdirmədi. Çox ustalıqla könlümü ovutdu, düşüncələrimi aydınlığa istiqamətləndirdi.

Bəli, bütün bu yazdıqlarım, necə deyərlər, ruhumdan süzülüb gələnlərin hamısı uzun illər iş



otağım olan "Azərbaycan" Nəşriyyatının 6-cı mərtəbəsində hardasa təbiətin bir parçası kimi tanınan çoxlu sayda dibçək gülləri ilə bəzənmiş otağımla bir növü vida idi. Sanki bu otaqla, burdakı xatirələrimlə sağollaşırdım. Elə o anın içərisində də özümdən asılı olmadan pıçıldadım:

*Yuvası dağılır xatirələrin,*
*Qapısın yel açır, bacasın külək.*
*Məni bu məqama gətirənlərin -*
*Yanında durursan niyə, ay fələk?*

*Hənrini tavandan yığa bilmirəm,*
*Səsini divardan necə qoparım?*
*Boşalan otaqdan çıxa bilmirəm,*
*Ümidsiz özümü hara aparım?*

*Dolubdu gözləri çiçəklərimin,*
*Dibçəklər çatlayıb qəfil həmlədən.*
*Gözümü onlardan çəkə bilmirəm,*
*Bu da bir ağrıdı məni qəmlədən.*

*Ömrün yarısından çoxu əriyib*
*Uğur, arzu dolu dərya binada!*
*İndisə üstünə nəzər yeriyib*
*Bina tuş gəlibdi nəfsli inada!*

*Yuvası dağılan xatirələrin*
*Üstünə ələnir son qəlpələri.*
*İndi təsəlli də verə bilmir tay -*
*Dolmuş gözlərimin lal ləpələri.*

Mən indi hisslərimin diqtəsi olan bu yazını bilgisayara diqtə etdiyim anlarda da birmənalı olaraq anlayıram ki, həyat davam etsə də, yeni ünvanlar bizləri gözləsə də, amma danılmaz bir həqiqət də var. Məndən əvvəl özü də lap çox-çox qabaq müdriklər deyib. Bilirsiniz nə deyib müdriklər?

-KÖHNƏ YURDUN QƏDRİNİ TƏZƏ YURDDA BİLƏRLƏR!!!

Bax elə bu ovqatla, bu hisslərlə KÖÇə qoşulmağa hazırlaşıram.

Sevil Azadqızı



## "PƏNCƏRƏMDƏKİ YAZI" ŞEİRİNİN TƏHLİLİ

Əbulfət Mədətoğlu qələmindən

*Pəncərəmdəki yazı...*
*Pəncərənin*
*Tərləmiş şüşəsində*
*Barmağımın ucuyla*
*şəkil çəkmək...*
*Ya da ad yazmaq və*
*Sonra da*
*yazdığını*
*tez-tələsik silmək ...*
*Nə rəssamlıq*
*həvəsim olub,*
*nə də*
*Ona oxşar*
*başqa bir istək...*
*Pəncərənin önündə*
*dayanıb*
*baxanda*
*Sanıram ki,*
*baş verib bütün olanlar-*
*Elə bu yaxında...*
*Sən yeddinci qatda*
*İçərisini görmədiyim*
*Otaqda,*
*Mən həyətdə ...*
*Dayanıb*
*Şəklini gözlərimə çəkirəm,*
*köçürürəm...*
*Təbəssümün hiss etdirir -*
*Bilirsən nələr keçirirəm...*
*Ürəyimdən?*
*...Pəncərə önündə*
*Buz bağlamış şüşəni*
*Dırnağımla cızıram -*
*Şəkil çəkmirəm ...*
*İndi adını*
*SON ÜMİD!-*
*kimi yazıram...*
*Gizlətmədən heç kimdən!*

Bu şeir insan ruhunun ən səssiz, ən dərin anlarını sözə çevirən poetik nümunədir və onun gücü səs-küylü etiraflarda deyil, adi görünən hərəkətlərin arxasında gizlənən böyük daxili təlatümlərdədir. Pəncərə obrazı şeirin mərkəzi simvolu kimi çıxış edir. Bu pəncərə nə yalnız evin bir hissəsidir, nə də sadəcə baxmaq üçündür, o, iki insan arasında qalan məsafənin, danışılmayan sözlərin, toxunulmayan duyğuların sərhədidir. Tərləmiş şüşə isə bu sərhədin canlı olduğunu göstərir, çünki o, nəfəs alır, hiss edir, insanın içindəki buğu kimi üzə çıxır. Barmağın ucu ilə şüşə üzərində şəkil çəkmək və ya ad yazmaq istəyi insanın öz hisslərini maddiləşdirmə ehtiyacından doğur, lakin həmin yazının tez-tələsik silinməsi qorxunu, cəmiyyətin, zamanın və taleyin qoyduğu qadağaları xatırladır. Burada sevgi açıq səslə danışa bilmir, yalnız iz qoyub yox olmağı bacarır. Şairin "nə rəssamlıq həvəsim olub, nə də ona oxşar başqa bir istək" deməsi bu davranışın estetik yox, tamamilə ruhi məcburiyyətdən doğduğunu vurğulayır. Bu, sənət üçün edilən hərəkət deyil, ürəyin özünü sakitləşdirmək cəhdidir. Pəncərə önündə dayanıb baxmaq halı zaman anlayışını pozur, çünki lirik qəhrəman üçün bütün olanlar sanki elə indicə baş verib, keçmişlə indi bir-birinə qarışıb, xatirə canlı bir gerçəkliyə çevrilib. "Sən yeddinci qatda, mən həyətdə" qarşılaşdırması şeirin ən güclü dramatik xəttidir. Burada yeddi qat yalnız fiziki yüksəklik deyil, həm də əlçatmazlıq, taleyin qoyduğu manеə, bəlkə də sosial və ruhi fərqlərin simvoludur, həyətdə qalmaq isə gözləmənin, aşağıda dayanıb yuxarı baxmağın, sevginin hər zaman bir az kənarda qalmasının rəmzidir. Lirik "mən" qarşı tərəfin iç dünyasını, otağın içərisini görmür, amma buna baxmayaraq onun şəklini gözlərinə çəkir, yəni real görüntüyə yox, xatirəyə, təsəvvürə, yaddaşda qalan hissə bağlanır. Bu, sevginin fiziki yox, mənəvi varlığını ön plana çıxarır. Təbəssümün hiss etdirilməsi ifadəsi isə sevginin səssiz ünsiyyət formasını açır, burada sözlərə ehtiyac yoxdur, çünki ürəklər arasında görünməyən bir anlaşma mövcuddur və şair bu anlaşmanı oxucuya açmadan, yalnız hiss etdirməklə verir. Şeirin sonuna doğru buz bağlamış şüşə obrazı meydana çıxır və bu, artıq zamanın keçdiyini, hisslərin donduğunu, ümidin təhlükə altında olduğunu göstərir. Dırnaqla şüşəni cızmaq isə ağrılı, iz buraxan, geri dönüşü olmayan bir hərəkətdir. Artıq şəkil çəkilmir, artıq ad yazılmır, çünki bu mərhələdə sevgi oyundan, xatirədən çıxıb taleyüklü qərara çevrilib və "Son ümid" sözünün yazılması şeirin emosional zirvəsidir. Bu ifadənin gizlətmədən yazılması əvvəlki tərəddüdlərin, silinmələrin, qorxuların bitdiyini göstərir. Burada insan ya hər şeyi ortaya qoyur, ya da tam itirir. "Son ümid" həm ümidin varlığını, həm də onun tükənmək üzrə olduğunu bildirir və bu ikili məna şeiri daha da ağrılı və təsirli edir.

Nəticə etibarilə, "Pəncərəmdəki yazı" şeiri insanın sevdiyi ilə arasındakı məsafəni sadə məişət detallarından istifadə edərək dərin fəlsəfi və psixoloji müstəvidə təqdim edən, susqunluğun içində qışqıran bir poetik etirafdır. Bu şeir oxucuya göstərir ki, bəzən insanın ürəyində yazılan sözlər kağıza düşmür, amma şüşə kimi soyuq səthlərdə belə silinməyən izlər buraxır və həmin izlərin adı çox vaxt "son ümid" olur.

# Söz ömrümün cizgilərindən

**Yenə çəkilmişəm özümə. Yenə duyğularla, fikirlərlə, xatirələrlə, xəyallarla, bir sözlə, özüm öz dünyamla üz-üzə oturmuşam. Göz-gözə dayanmışam. İndiki anda səsini də eşidirəm, nəfəsini də duyuram, gözlərini də görürəm, hətta saçların da toxunur üzümə. Amma bunlar hamısı xəyaldı, yəni mənim görmək istədiyim, yaşamaq istədiyim anın xəyalı!..**

Özüm-özümlə dialoq qurmuşam. Sual verirəm, cavab sükut olur. Cavab verirəm, sual sükuta çevrilir. Bilmirəm, bu nəyin göstəricisidi, nəyin əlamətidi və ümumiyyətlə, mənim bu halım nədən xəbər verir, məni hara aparır. Bax, bilə bilmədiyim və adını eşitmədiyim, sualını vermədiyim, cavabını dinləmədiyim bu dialoqun təsvirini necə edim, şəklini necə çəkim? Onları qələmlə dəftərə necə yazım? Yəqin ki, bu sualları oxuduğunuz anda bir qisminiz acıyırsınız mənə, bir qisminiz irad tutursunuz, başqa bir qisminiz yol göstərirsiniz və yaxud da əlinizi yelləyib keçib gedirsiniz.

Hətta hansısa bir sözü dilinə gətirəniniz də var. Amma mən başımın xarab olduğuna hələ ki, inanmıram və onun əlamətini də hiss etmirəm. Lakin özüm də bilirəm ki, könüllü şəkildə həyatımın mənasına çevirdiyim yaşam son nəfəsimə qədər mənimlə birlikdə olacaqdır. Çünki o, mənim ruhumun ifadəsidir, ürəyimin özüdür.

Belə olan halda bütün iradları da, təklifləri də, hətta halıma acımaları da qəbul edirəm. Ona görə ki, mən onların içərisindəyəm. Onlar da mənim həm daxili, həm xarici yozumda elə özüm deməkdir. Bir az da dəqiq ifadə etsək, necəyəmsə, yaşadıqlarım da elə onun özüdür, təsdiqidir. Sadəcə olaraq mən danışıram, yazıram, xatırladıram. O isə dinləyir. Amma... Nə cavab verir, nə də yolundan qalır...

Hə, elə bilməyin ki, səsim, sözüm eşidilməyəndə "Sınıb qol qanadım yanıma düşür". Xeyr, məni eşitməyəndə də, dinləmək istəməyəndə də öz içimdə onun özü ilə, şəkilləri ilə, səsi ilə, hərəkətləri ilə danışıram. Və bilirəm ki, ruhumun bu hayqırtıları nə vaxtsa onun da qapısını döyəcək, onu da yuxusundan səksəndirəcək. O da hansısa bir anda başını qaldırıb gözlərimin içinə baxıb ürəyini göstərib nəsə deyəcək. Amma hələlik "o nəsəni tapa, tuta bilmirəm". Əvəzində isə ona deyirəm:

*Həqiqətsən, ya xəyal,*
*Can um, deyim buyur, al!*
*Canım ol, canımda qal -*
*Ayrılıb getmə məndən.*

*Sən gecikən sabahın*
*Könlümü deşən ahı*
*Dəyişib nişangahı*
*Sıyrılıb getmə məndən.*

*Ömrə işıq, şüa ol,*
*Ən müqəddəs dua ol.*
*Ürəyimə yuva ol -*
*Getmə, sən getmə məndən.*

Zaman öz işindədi. Saat öz bildiyi kimi ötüb gedir. Kimsə zamanın, ya saatın hardasa özünə qoşulub, kimsə zamanın, ya saatın axınına düşüb, kimsə də mənim kimi zamanı durdurmağa, saatın əqrəblərini geri fırlatmağa çalışır. Özü də bunun mümkün olmadığını bilə-bilə. Bu, hardasa küləklə döyüşməyə, yağışla vuruşmağa bənzəyir. Bu, hardasa bir selin, bir fırtınanın qarşısını kəsmək üçün qollarını açmağa bənzəyir. Amma... Bütün bunlar baş verə-verə, cərəyan edə-edə insanı durduğu nöqtədən, olduğu anın içindən çıxmağa qoymur. Şəxsən mən elə bilirəm ki, bu yazını diktə etdiyim məkandan kənarda bir boşluq var, bir kimsəsizlik var və mən bu otaqdan kənara çıxsam o boşluğa düşəcəm, o kimsəsizliklə itib batacam. Bu da səbəbsiz deyil. Çünki mənim sözümün də, səsimin də, duyğularımın da, fikirlərimin də, hətta nəfəsimin də cücərdiyi, pöhrələndiyi, pərvazlandığı yerdi bu aid olduğum məkan. Bu yerdə sən mənimləsən, sən yanımdasan, səninlə üz-üzəyəm, səni görürəm, səni eşidirəm. Ona görə də bu otağa daxil olanda bir anlıq donub qalıram, çünki sən burda ola-ola durub məni qarşılamırsan, boynuma sarılmırsan. Bax, onda içimdəki tənhalığın nə qədər güclü olduğunu hiss edirəm. Özü də getdikcə daha çox güc gəlir tənhalıq mənə. Elə bil ki, dizimin taqəti, gözümün nuru azaldıqca gücüm də tükənir, müqavimətim də azalır. Deyə bilərsiniz ki, burda yaş faktoru da var. Amma mən içimdəkiləri heç vaxt yaşla uyğunlaşdırmamışam. Heç vaxt duyğumu yaşımın boyuna biçməmişəm.

Yəni mənim üçün sənin varlığın və sənə olan o böyük sevgim yerdən göyə qədərdir. Sən Tanrı dərgahındakı ən müqəddəs mələk, mən ona biyət edən bəndəyəm. Sən məni görməsən də və



yaxud görmək istəməsən də, bu sevgi dini mənim üçün hər yeri, hər məkanı gəzməli, görməli etsə də səninlə görüşdüyüm yeri Cənnət edib mənim üçün. Mən xəyalən, ruhən səninlə həmişə Cənnətdə görüşürəm. Xatirələrimin, istəklərimin və sevgimin cənnətində. Məhz bu səbəbdəndir ki, gəzdiyim, keçdiyim hər yerdə iz axtarıram. Bizi bir-birimizə bağlayan, bizi bir-birimizə xatırladan iz... O xatırlatmalar da yavaş-yavaş pıçıltıya çevrilir, misralanır. Bax, onda özüm də bilmədən ürəyimi açıb tökürəm vərəqlərə və yazıram:

*Küçələri keçirirəm gözümdən*
*İzlərimiz neçə yerdə uyuyur.*
*Utanıram, zəhləm qaçır özümdən*
*Unudulan izlər bizdən soyuyur.*

*Hər ləpirdə bir xatirə, bir hənir*
*Az qalıram dəli olam, dəli mən.*
*Toxunduğum xatirələr tərpənir -*
*Sıxammıram o uzanan əli mən.*

*Yerlə göyün arasıydı yuvamız*
*Biz olmuşduq Qoşa uçan cüt qanad*
*Həsrət ilə uzanan bu davamız*
*Həyat umur, bizdən ancaq bir həyat...*

Bu şeiri vərəqə köçürəndə mənə elə gəldi ki, dayanmısan yanımda və gözünün ucu ilə misraları izləyirsən. Elə hiss etdiyim bu duyğu ilə ətrafa baxdım. Görə bilmədim. Amma içimdəki o hissiyyat mənə pıçıldayırdı ki, o, burdadı, o, yazdığını da oxuyur, danışdığını da eşidir, nələr yaşadığını da, hansı acılar çəkdiyini də gözəl anlayır. Bax, bu daxili inam od üstünə daman yağ kimi oldu. İçimdəki tələş məni elə qarsıdı ki, həmin an mütləq səni görmək, səsini duymaq istədim. Yerimdən qalxıb qapıya tərəf gəldim... və dayandım. Çünki həmin anda səni görmək göydən ulduz qoparmaq kimi bir şeydi. Yəqin ki, sən onda öz qayğılarınla əl-ələ tutub həyatını davam etdirirdin, gününü yola verirdin. Nəbilim, bəlkə də hansısa bir işi görürdün, hansısa bir zəngə cavab verirdin. Bax, bu qarışıq duyğular məni təkrar yazı masama qaytardı. Təkrar içimdəki tələşı sözə çevirməyə və onu hamının eşidə biləcəyi bir səslə dilə gətirməyə həvəsləndirdi məni. İnanın ki, açıq-aşkar səninlə danışırmış kimi söhbət etməyə başladım. Şahidim də otaqdakı çiçəklər, güllər, kitablar, dəftər-qələmlər və bir də gözümün önündəki şəkillər. İnanmırsansa görüşəndə bu dediklərimdən soruşa bilərsən səninlə necə danışdığımı...

Hə, mən deyəsən hisslərə, duyğulara çox könül verdim, çox dərinliklərə getdim. Hardasa ola bilsin ki, əhatə dairəsindən də çıxdım. Amma bütün hallarda yer necə fırlanırsa, mən də eləcə sənin başına fırlandım. Bir pərvanə ömrü gəlib keçdi ağlımdan.

Həsəd apardım və elə bildim ki, sən də həmin anda, həmin nöqtədə, həmin istəkdəsən. Necə ki, mən səninlə eyni nöqtədə, eyni məqamda olanda gözlərini oxuyub, əllərinə toxunub hiss etdiklərimi sən də hiss edirsən. Və:

*Biz baş-başa qalanda*
*Söz qəhətə çəkilir.*
*Səndən öpüş alanda*
*Köz qəhətə çəkilir -*
*Üşüyür dodaqlarım.*

*Biz baş-başa qalanda*
*Yadlaşırıq elə bil.*
*Cütlüyün qorxusuna*
*Qatlaşırıq elə bil -*
*Titrəyir yanaqların.*

*Biz baş-başa qalanda*
*Vaxt da şimşəyə dönür.*
*Deyiləcək yalan da*
*Dilin ucunda sönür -*
*Dadıram yanaqların.*

*Biz baş-başa qalanda*
*Sanki heç biz olmuruq*
*Elə ona görə də*
*Biz baş-başa qalmırıq -*
*Haqlıdı qınaqların.*

**Bütün yazı boyu təkrarladığım, dönə-dönə xatırlatdığım və təkrar-təkrar yaşadıqlarım mənim özümə aid olsa da, onun yarısı sənin payındı. Çünki sevgimin yarısı sənsən. O tamlığa qovuşmaq, o yarı olanları bir görmək əbədi və ruhun qədər zəruri olan istəyindi, duandı. Yəqin ki, bütün duaları dinləyən bir gün, bir an mənim də duama zaman ayırar. Və mən həmin duanın işığında göz-gözə, nəfəs-nəfəsə dayananda yenə danışmağa söz tapmayacam. Çünki onda gözlərimiz, duyğularımız bir-biri ilə sözsüz danışacaqlar, sözə ehtiyac qalmayacaq və bir də bütün bunlar mənə görə gerçəklik, sizə görə isə yəqin ki, xəyal anıdı. Olsun!..**

**Əbülfət MƏDƏTOĞLU**

# Əsgərin anasına məktubu

**Bu şeir 44 günlük Vətən müharibəsində torpaqlarımızın erməni işğalçılarından azad edilməsində misilsiz qəhrəmanlıq göstərmiş və ağır yaralanaraq sağlamlığını itirmiş, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medallarına layiq görülmüş şuşalı qazi Ələkbərov Hüseyn Elxan oğlunun anasına məktubu əsasında yazılmışdır.**

***Ana, soruşma mənim,***
***Yerimi bir kimsədən.***
***Sənə məktub yazıram,***
***Döyüş səngərlərindən.***

***Ana, vətən naminə,***
***Silaha sarılmışam.***
***Azərbaycan adını,***
***Hər an uca tutmuşam!***



***Məndən ötrü ağlasan,***
***Göz yaşına dözmərəm.***
***Başıma papaq qoyub,***
***Ortalıqda gəzmərəm!***

***Sən məni doğmusan ki,***
***Həm vətəni, həm səni.***
***Kişitək qoruyum mən,***
***Kişi qorxmaz ölümdən!***

***Ana, gözlərin aydın:***
***- Bu gün qələbə çaldıq!***
***Xocalıda tökülən,***
***Qanın qisasın aldıq!***

***Ana, sənin gözünlə,***
***Baxdım Ana Vətənə!***
***Qürurlu yaşamağı,***
***Sən öyrətmisən mənə!***

**Haşiyə:** Bu gün fəxrlə deyirik ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanın rəhbərliyi altında bütün torpaqlarımız düşmən tapdağından azad olmuşdur. Şuşada və digər el-obalarımızda bərpa və quruculuq işləri aparılır. Erməni vandalları tərəfindən xarabalığa çevrilmiş şəhər və kəndlərimiz gülüstana çevrilir. Qaçqın və məcburi köçkünlərimiz öz doğma yurdlarına qayıdırlar. İnanıram ki, belə bir xoş günə qovuşan körpə bir qız atası olan Vətən Qazisi Hüseyn Ələkbərov da tezliklə Şuşamıza - doğma ocağına qayıdacaqdır.

Bu evdə ata Elxan Firat oğlu Ələkbərov 1-ci Qarabağ müharibəsinin veteranı-Qazisi və oğlu 44 günlük Vətən müharibəsinin veteranı-Qazisi Hüseyn Ələkbərov yaşayacaqdır. Bu əsər Ələkbərov Hüseyn Elxan oğlunun anasına məktubu əsasında 2020-ci il 8 Noyabrda - Zəfər Günü yazılmışdır.

**Dərin hörmətlə:**
**Əyyub Şirlanlı, şair-publisist, əməkdar müəllim,**
**1-ci Qarabağ müharibəsinin veteranı, "Məclisi-üns"-"Söz gülüstanı" Ədəbi Birliyinin rəhbəri.**



**VAQİF YUSİFLİ**

# Səyyarə Məmmədli - 65

**Səyyarə Məmmədli bir şair kimi son dərəcə həssasdır, bu həssaslıq bəzən kiçik bir qığılcımdan törəyib oda, alova dönür. ...Səyyarə dərd şairidir, amma dərd eşq dərdi deyil - Vətən dərdidir.**

Bu cümlələr mənim istedadlı şair kimi tanıdığım Səyyarə Məmmədlinin 2007-ci ildən nəşr edilən "Zamanın əl ağacı" şeirlər kitabına yazdığım ön sözdən ("Şeirimizin Səyyarəsi") götürülüb. On səkkiz ildən sonra Səyyarənin yeni şeirlər kitabı çapdan çıxıb və mən həvəslə onun bu kitabına da ön söz yazdım. Deyim ki bu 18 ildə Səyyarə Məmmədli bir şair kimi poetik inkişafda olub, şeirlərinində sənətkarlıq səviyyəsini artırıb.

Hər bir şairin yazıçılığında onu daha çox məşğul edən mövzu olur - Səyyarə Məmmədli Vətən şairi - Yurd şairidir. O, bütün varlığı ilə Azərbaycana, doğulduğu torpağa bağlıdır, burada baş verən ictimai-siyasi hadisələr müstəqillik və azadlıq savaşı, Qarabağ müharibəsi - bu müharibədə şəhid olan igidlərimiz, qəlbində, ruhunda dolaşan azərbaycançılıq, türkçülük havası onun əksər şeirlərinin baş mövzusudur. Bu mövzu Səyyarənin 2020-ci ildə nəşr olunan "Hələ də uzaq bir səyyarəyəm mən" şeirlər kitabında da nəzərə çarpırdı. Həmim kitab "Dünyam türk dünyasıdır" şeiri ilə açılırdı:

*Dünyanın özü qədə*
*Qədimdir türkün soyu,*
*Əzəməti titrədib*
*Hər zaman yeri, göyü.*
*Fəxarətdir, özümü*
*"Mən Türkəm" - deyə öyüm.*
*Ay məni danan, bir yol*
*Tariximə bax mənim*
*Dünyam türk dünyasıdır,*
*Başqa dünyam yox mənim!*

Yeni şeirlər kitabında da "Dünyam Türk dünyasıdır" ideyası və bu ideya ilə sıx bağlı olan, onu düşündürən nə varsa, bütün bunlar şeirlərində öz poetik ifadəsini tapır.

Səyyarə Məmmədli son 30-40 il ərzində Azərbaycanda baş verən hadisələri şeirlərində əks etdirir və burada "şair olmaya bilərsən, amma vətəndaş olmağa borclusan" deyimi yada düşür. Amma belə bir həqiqəti unutmayaq ki, Azərbaycan şairləri - o sıradan Səyyarə Məmmədli də - şairliyi vətəndaşlıqla, vətənpərvərliklə vəhdətdə düşünürlər. Səyyarə Məmmədli həqiqətən (şeirlərindən də çox aydın görünür) baş verən bütün hadisələrin içində görünür. O, "44 günün şeirləri" silsiləsini yazır - bu silsilədə noyabrın 8-dəki qələbəmizi alqışlayır; Kəlbəcərin işğaldan azad olunması onu hədsiz sevindirir və arzu edir ki:

*Qandalsız əlini tez başına çək,*
*Uzat sağ əlini, uzat, Kəlbəcər!*
*Səndən keçib, səndən sonraya gedək,*
*Olsun Göyçəmiz də azad, Kəlbəcər!*
*Deyim "göy" mahalı, göy "mən"i gördüm,*
*Baxıb Kəlbəcərdən Göyçəni gördüm!*

Xatırladım ki, Səyyarə Oruc qızı Məmmədli Göyçə mahalında - Kəsəmən kəndində, ziyalı ailəsində dünyaya gəlib. Onun şeirlərində Göyçə həsrəti Vətən həsrəti kimi mənalanır:

*Güclü ordum, azad yurdum vat mənim*
*Hər əsgəri igid, mərdim var mənim,*
*Hələ Göyçə kimi dərdim var mənim,*
*Məni o dərddən də qurtar, İlahi!*
*Bizə Göyçəmizi qaytar, İlahi!*

Şeirlərində "Allah", "İlahi", "Tanrı" kəlmələrinə - bu ulu sözlərə tez-tez müraciət olunur. Təbii ki, dini mənada yox, Allah burada şairin bütün dərdlərinə, müşküllərinə şərik olan ulu Varlıqdır!

*30 il kim oldum, 44 gündə kim,*
*Göstərdim düşmənə, o kimdi, mən kim,*
*Yenidən gəlmişəm dünyaya sanki,*
*Gördüm hər kəs "Vətən daşı"dı, Allah!*
*Qələbəni mən də yaşadım, Allah!*

Səyyarənin Qələbə və Vətən eşqi şeirləri ilə yanaşı, şəhidlərə həsr etdiyi şeirləri də diqqətə layiqdir. "İtkin rəqəmi belədir - 2783 şəhid" - bu şeir kədər hissi ilə sevincin vəhtətindən yaranıb. Şəhidlik həm də qəhrəmanlıqdır, şeirdə məhz bu fikir təbliğ olunur:

*Dünyanı mat qoydu rəşadətiniz,*
*Qəlblərdə yurd saldı məhəbbətiniz,*
*Ən uca məqamdır şəhadətiniz,*
*Oldunuz ucalan başda tac, şəhidlər.*

Səyyarə Məmmədli "Məzarsız şəhid" şeir mənim fikrimcə, təkcə onun yaradıcılığında deyil, bütünlükdə müasir şeirimizdə uğurlu bir nümunədir.

Bu şeir Birinci Qarabağ müharibəsi şəhidi İsmayıl İsmayılovun bacısı Lalə İsmayılın qardaşının ad gününə yazdığı şeirin təsirilə qələmə alınıb:

*Bu yerin üstündə, göyün altında,*
*Harda uyuyursan, məzarsız şəhid?*
*Məlum olmasa da məkanın, yerin,*
*Hər yerdə varsan sən, məzarsız şəhid!*

*Məzarın yerlə göy arasındadır,*
*Almaq olmaz səni hasara, şəhid,*
*Elə böyükdür ki, sevgin vətənə,*
*Sığmadın bir kiçik məzara, şəhid!*

"Xan, qayıt gəl kəndinə" şeiri də bu mövzuda yazılan ən gözəl şeir kimi yadda qalır. Xan - burada tarixi və müasirliyi birləşdirən obrazdır.

O, artıq "qayıtdı xan kəndinə, öz doğma Xankəndinə".

Təbii ki, Qələbə, Vətən eşqi, şəhidlik şeirləri ilə Şuşaya şeirlər həsr etməmək günah olardı və Səyyarə Məmmədli Azərbaycanın gözəllik tacı olan Şuşanı da hərarətlə vəsf edir:

*Bu torpağın ömrü bitməzdir sanki,*
*Ona verilən can şəhid qanıdır.*
*Burda yaşıllığa təravət verən,*
*Torpağa çilənən şəhid qanıdır.*

*Bircə kərə səni görən kəs istər,*
*Qala burda səninbalan tək, Şuşa!*
*Gözümə köçürdüm səni beləcə,*
*Yenə də alınmaz qalam tək, Şuşa!*

Səyyarə Məmmədli "Ürək dililə danışan" şairlərdən biridir. Ona ürəyinə hökm edirsə, onu yazır. "Mənə göyçəni verin" şeirində yurd həsrətini dilə gətirir ("Mənə Göyçəni verin, Vətən mənə dar gəlir"), milli bəzəyimiz olan kəlağayını mədh edir ("Elə incədir ki, üzükdən keçir, Açılanda yamağ,yol kəlağayı"), qəbristanlıqda düşüncələrə dalır ("Üstdə daşıar "bir"dir", amma bilinmir, Tortaq altda kimin yeri haradır"), ürəyindən şikayətlənir və həm də onu sevir ("Nə qədər dərd, fikir olsun, ürək onu tək daşıyır"), zamanın varlığını təsdiq edir("Hər şey dəyişəndir həyatda, yalnız dəyişməz zamanın hamar, düz yolu"), həyatdakı təzadlardan da söz açır və s.

Amma onun bir şeiri də var ki, bu şeir Səyyarənin poetik obraz yaratmaq bacarığını sübut edir. Bu, "Ümid" şeiridir:

*Bir kərə doğrulmamısan,*
*De mənimçün nəsən, ümid!?*
*Nə mən səndən əl çəkirəm,*
*Əl çəkirsən nə sən, ümid!*

*"Yox"dan işarıb yanma sən,*
*Olub, özünü danma sən,*
*Mən yaşa doldum, amma sən,*
*Necə var eləsən, ümid!*

Səyyarə Məmmədli qısa - yığcam şeirlər də yazır. Əsasən 4 misradan ibarət olan bu bayatı, rübai şeirlərinə xas olan fikrlərin bədii ifadəsi əsas yer tutur.

*Əl çəkmir yaxandan tapanda səni,*
*Düzülə-düzülə dözülmür ki, dərd!*
*Sanki xoşhal olur, üzdükcə səni,*
*"Çəkdikcə" uzanır, üzülmür ki, dərd!*

*Gedirik, gedənin ardınca biz də,*
*Yenə vaxtın çoxu "anmağa" gedir*
*Görən nə qalacaq bizdən həyatda,*
*Ömrümüzün çoxu "yanmağa" gedir.*

Mən Səyyarə Məmmədlinin yeni şeirlər kitabını oxudm, onun bir şair kimi artıq tam yetkinlik mərhələsinə qədəm qoyduğunu söyləyirəm. Ona yeni poetik uğurlar arzulayıram!

---



**HACI FİRUDİN SÜLEYMANOĞLU**

## EY İNSAN

**İmdad umma bu gərdişun zərindən,**
**Zərin sirrin dərin öyrən, dərindən.**
**Bostan əkdin xatircəm ol vərindən,**
**Amalını sən loğman et, ey insan.**

**Kamal qazan kamalının üstünə,**
**Dərk eylə gör, duman nədi, tüstü nə.**
**Namərd dostla barışdın nə, küsdün nə,**
**Mərd dostları sən doğman et, ey insan!**

**Şah Quranın bilgisindən halı ol,**
**Nur kəlamın ilgisindən halı ol,**
**Bu dünyanın gedişindən halı ol,**
**Bəd rüzgarı sən boğman et, ey insan!**

**Firudin də az yazmayıb elindən,**
**Çox keçibdir dəryasından, çölündən,**
**Qorxmayıbdı Vətən üşün ölümdən,**
**İradəni sən sağlam et, ey insan!**

## BATABAT

**Hər tərəfi göz oxşayan dağ-dərə,**
**Gül içində gülüstandır Batabat.**
**Min illərin gövhəri var gözündə**
**Əfsanədir, bir dastandır Batabat.**



**Yağışıyla gözlərimi silmişəm,**
**Hər çiçəyin öz dilini bilmişəm.**
**Yollarını dönə-dönə gəlmişəm-**
**Biz gəlməsək pərişandır Batabat.**

**Harda olsaq hey axtarar gözləri,**
**Tükənməzdir daşa dönən izləri.**
**Ürəklərdə qaladığı közləri**
**Min bir ömrə düz ünvandır Batabat.**

**Bitməyincə ömrüm-günüm haçansa,**
**Dilimdə söz, əllərimdə bir əsa,**
**Yollarından yığışmaram bil, əsla,**
**Bu Firudin bir sarvandır, Batabat.**

## YAZAMMIRAM

**Yazammıram, qələm durmur əlimdə,**
**Gözüm almır, sızıldayır belim də,**
**Çoxdan qaçıb axırıncı kəlim də,**
**Yaşayıram elə-belə, həvəssiz.**

**Əvvəlkitək gün çıxmamış durmuram,**
**Vaxta baxıb, saatımı qurmuram.**
**Bu dünyadan mərhəmət də ummuram,**
**Yaşayıram elə-belə, həvəssiz.**

**Toy-düyünə tələsmirəm indi mən,**
**Oynamaqçün ta əsmirəm indi mən,**
**Qırmizi lent ta kəsmirəm indi mən,**
**Yaşayıram elə-belə, həvəssiz.**

**Vətənimin el-obasın gəzmirəm,**
**Dağlarında qartal kimi süzmürəm,**
**Gözəlləri yaddaşıma düzmürəm,**
**Yaşayıram elə-belə, həvəssiz.**

**Hər kəs üçün sərt qocalıq gələcək,**
**Əmrini də bildiyitək verəcək,**
**Onda hamı mənim kimi deyəcək:**
**Yaşayıram elə-belə, həvəssiz.**

# QLOBAL İQLİM DƏYİŞMƏLƏRİ VƏ ONLARIN AZƏRBAYCANA TƏSİRİ

**Müasir dövrdə qlobal iqlim dəyişmələri bəşəriyyətin qarşılaşdığı ən ciddi ekoloji problemlərdən biridir.**

Qlobal iqlim dəyişmələri Yer kürəsinin orta temperaturunun yüksəlməsi, atmosferin tərkibinin dəyişməsi və bunun nəticəsində iqlim sistemində uzunmüddətli transformasiyaların baş verməsi prosesidir.

İqlim sistemi Yer kürəsinin atmosfer, hidrosfer, litosfer və biosfer komponentlərinin qarşılıqlı təsiri nəticəsində formalaşır. Son onilliklərdə insan fəaliyyətinin intensivləşməsi bu sistemin təbii tarazlığını pozmuş və qlobal iqlim dəyişmələrinə səbəb olmuşdur. Bu dəyişikliklər yalnız hava şəraitinə deyil, həm də təbiətə, iqtisadiyyata, kənd təsərrüfatına və insan sağlamlığına ciddi təsir göstərir. Son onilliklərdə aparılan elmi araşdırmalar göstərir ki, iqlim dəyişməsi artıq gələcəyin deyil, indinin problemidir və onun nəticələri bütün dünyada aydın şəkildə müşahidə olunur.

Elmi müşahidələr göstərir ki, qlobal temperaturun artması, buzlaqların əriməsi, dəniz səviyyəsinin dəyişməsi və ekstremal hava hadisələrinin çoxalması artıq qlobal miqyasda müşahidə olunan tendensiyalardır. Coğrafi mövqeyi və təbii landşaft müxtəlifliyi ilə seçilən Azərbaycan iqlim dəyişmələrinin təsirinə xüsusilə həssas ölkələr sırasındadır. Bu baxımdan iqlim dəyişmələrinin səbəblərinin və nəticələrinin araşdırılması aktual elmi və praktiki əhəmiyyət daşıyır.

Qlobal iqlim dəyişmlərinin əsas səbəbləri:

**1.** İstixana qazlarının artması

Qlobal istiləşmənin başlıca səbəbi atmosferdə istixana qazlarının sürətlə artmasıdır. Bu qazlar Günəşdən gələn istiliyi saxlayaraq Yer səthinin normadan artıq qızmasına səbəb olur.

Əsas istixana qazları və mənbələri neft, qaz və kömürün yandırılması nəricəsində yaranan karbon qazı ($CO_2$), heyvandarlıq və tullantılarından hasil olunan metan ($CH_2$), mineral gübrələrin həddindən artıq istifadəsindən yaranan azot oksidi ($N_2O$) və sənaye və soyuducu sistemlərnin yaratdıqları freonlardır.

Bu qazların konsentrasiyası sənaye inqilabından bəri kəskin artmış və iqlim balansını pozmuşdur.

**2.** Meşələrin qırılması

Meşələr karbon dövranında əhəmiyyətli rol oynayan təbii karbon rezervuarlarıdır. Bu səbəbdən sağlam meşə ekosistemləri atmosferdə istixana qazlarının səviyyəsinin tənzimlənməsinə töhfə verir və iqlimin sabitləşməsinə kömək edir.

Meşələrin qırılması zamanı isə bu tarazlıq pozulur: ağacların saxladığı karbon yenidən $CO_2$ şəklində atmosferə buraxılır və istixana effekti güclənir. Amazon, Konqo hövzəsi və Cənub-Şərqi Asiyada yerləşən tropik meşələr planetin ən böyük karbon anbarları hesab olunur. Bu meşələrin məhv edilməsi qlobal iqlim sisteminə ciddi zərər vurur.

Tropik meşələri yüksək biomüxtəlifliyə malik olmaqla yanaşı, planetdə ən böyük karbon anbarlarından hesab olunur. Bu meşələrin sürətlə məhv edilməsi təkcə regional ekosistemlərə deyil, həm də qlobal iqlim sisteminə mənfi təsir göstərir. Ümumiyyətlə, genişmiqyaslı meşə qırılması nəticəsində; atmosferdə CO?-nin miqdarı artır, nəticədə yer səthinin temperaturu yüksəlir, yağıntı rejimi dəyişir və torpaq eroziyası güclənir.

Bu proses xüsusilə dağlıq və yarımsəhra ərazilərdə ekoloji problemləri dərinləşdirir.

**3.** Sənayeləşmə və nəqliyyat

Müasir sənaye və nəqliyyat sistemi iqlim dəyişməsinə ciddi təsir göstərir. Belə ki, zavod və fabriklərdən atmosferə böyük miqdarda tullantı atılır, avtomobillər və təyyarələr yüksək həcmdə karbon emissiyası yaradır, böyük şəhərlərdə ”istilik adası” effekti formalaşır.

Nəticədə şəhər mühitində temperatur kənd yerlərindən daha yüksək olur.

**4.** Kənd təsərrüfatı fəaliyyəti

Kənd təsərrüfatı da iqlim dəyişməsinə töhfə verir; torpaqların həddindən artıq şumlanması torpağın strukturunu zəiflədir, kimyəvi gübrə və pestisidlərin geniş istifadəsi ekosistemləri pozur, heyvandarlıqda metan qazının ifrazı artır. Bu proseslər həm torpağın məhsuldarlığını azaldır, həm də atmosferə əlavə istixana qazları buraxır.

**5.** Təbii səbəblər

İqlimə nisbətən məhdud təsir edən bəzi təbii amillər də mövcuddur. Bunlara vulkan püskürmələrini, günəş aktivliyinin dəyişməsini və okean axınlarını aid etmək olar.

Lakin müasir dövrdə müşahidə olunan sürətli iqlim dəyişmələrinin əsas səbəbi insan fəaliyyəti hesab olunur.

Nəticədə onu demək olar ki, qlobal iqlim dəyişmələrinin əsas səbəbi insanın təbiətə nəzarətsiz müdaxiləsi və istixana qazlarının həddindən artıq artmasıdır. Əgər bu proseslər vaxtında dayandırılmasa, gələcək nəsillər ciddi ekoloji, iqtisadi və sosial problemlərlə üzləşə bilər.

Bəs Qlobal istiləşmə nədir və onunla necə mübarizə etmək olar?

Qlobal istiləşmə atmosferdə istixana qazlarının artması nəticəsində Yer kürəsinin orta temperaturunun yüksəlməsi prosesidir. Bu, iqlim dəyişməsinin əsas təzahürlərindən biridir.

Qlobal istiləşmə ilə mübarizə üçün aşağıdakı tədbirlərin görülməsi tövsiyə olunur:

**1.** Bərpa olunan enerji mənbələrinə keçid

Ən effektiv həll yollarından biri təmiz enerjiyə keçiddir: Bunlar Günəş enerjisi, külək enerjisi, su elektrik stansiyaları və bioenerjidən istifadədir.

Bu mənbələr karbon emissiyası yaratmadığı üçün ekoloji baxımdan daha təhlükəsizdir.

**2.** Enerji səmərəliliyinin artırılması

Enerjiyə qənaət etməklə də emissiyaları azaltmaq mümkündür; LED lampaların istifadəsi, enerjiyə qənaət edən məişət texnikası və binaların istilik izolyasiyasından istifadədir.

Bu həm ekoloji, həm də iqtisadi cəhətdən faydalıdır.

**3.** Nəqliyyatda dəyişiklik

Karbon emissiyalarını azaltmaq üçün nəqliyyat sektorunda islahatlar vacibdir:

Buraya elektrik avtomobillərinə keçidi, ictimai nəqliyyatın inkişafını, velosiped və piyada yollarının artırılması aiddir.

**4.** Meşələrin qorunması və yaşıllaşdırma

Buraya meşə qırılmasının qarşısının alınması və kütləvi ağacəkmə kampaniyalarının təşkili aiddir.

**5.** Sənaye tullantılarının azaldılması

Təmiz texnologiyaların tətbiqi, filtrlərin istifadəsi və tullantıların təkrar emalı ilə bu mümkündür.

**6.** Dağ-mədən sənayesi həm xammal təminatçısı, həm də sənaye inkişafının, enerji keçidinin və texnoloji tərəqqinin hərəkətverici qüvvəsi olmaqla yanaşı İstixana qazlarının artmasında böyük rol oynayır. Şübhəsiz gələcəkdə onun rolu daha da artacaqdır.

Bu artım ekoloji və sosial balans qorunduğu halda uzunmüddətli və dayanıqlı ola biləcəkdir.

**7.** Dayanıqlı kənd təsərrüfatı

Torpağın düzgün istifadəsi, kimyəvi gübrələrin azaldılması və orqanik təsərrüfatçılığın təşviqi

**8.** Maarifləndirmə və qanunvericilik

Ekoloji təhsil proqramları, karbon emissiyalarına məhdudiyyətlər və beynəlxalq iqlim sazişlərinə qoşulma

Nəticədə bəlli olur ki, Qlobal istiləşmə ilə mübarizə yalnız dövlətlərin deyil, hər bir vətəndaşın məsuliyyətidir.

Hər bir kiçik addım - enerjiyə qənaət, ağac əkmək, ekoloji davranış - Yer kürəsinin gələcəyini qorumağa xidmət edir.

### *AZƏRBAYCANDA QLOBAL İSTİLƏŞMƏNİN VƏZİYYƏTİ VƏ ONUNLA MÜBARİZƏ YOLLARI*

Son illər dünyada müşahidə olunan iqlim dəyişmələri artıq abstrakt elmi anlayış deyil, gündəlik həyatımıza birbaşa təsir göstərən reallıqdır. Temperaturun yüksəlməsi, quraqlıqlar, sel və daşqınlar, su ehtiyatlarının azalması təkcə qlobal deyil, həm də regional probleme çevrilib. Azərbaycan da bu proseslərdən kənarda qalmır.

Belə ki, son 100 ildə Azərbaycanda orta illik temperatur 0,4-1,3°C arasında artmışdır. Elmi proqnozlara görə, 2090-cı illərdə bu artım 4,7°C-yə qədər çata bilər. Bu isə ölkənin ekosistemləri, kənd təsərrüfatı və su resursları üçün ciddi risklər yaradır.

**İstixana qazlarının artması**

Atmosferdə karbon qazı ($CO_2$), metan ($CH_4$), azot oksidi ($N_2O$) və freonların miqdarının artması istilik balansının pozulmasına səbəb olur. Fosil yanacaqların yandırılması, sənaye fəaliyyəti və nəqliyyat sektoru bu qazların əsas mənbələridir.

**Meşələrin qırılması**

Azərbaycan ərazisində meşələr təbii sərvətlərin mühüm hissəsidir və iqlim, biomüxtəliflik, su balansı üçün strateji rol oynayır. Meşələr ölkə ərazisinin 12%-ni əhatə edir və əsasən dağlıq və dağətəyi zonalarda yerləşir.

Meşə fondunun böyük hissəsi təbii mənşəlidir və böyük ekoloji əhəmiyyət kəsb edir. Belə ki, torpaq eroziyasının və sürüşmələrin qarşısını alır, su ehtiyatlarının tənzimlənməsinə kömək edir. Ən əsası isə karbonun udulması ilə iqlim dəyişmələrinin təsirini azaldır.

Bu səbəbdən Azərbaycanda meşələrin qorunması və artırılması daim diqqət mərkəzindədir.

Lakin Azərbaycanın əzəli torpaqları olan Qarabağ və Şərqi Zəngəzur 1990-cı illərin əvvəllərindən 2020-ci ilə qədər Ermənistan tərəfindən işğalda saxlanılmış və yalnız sosial-iqtisadi deyil, həm də ekoloji fəlakətlə üzləşmiş ərazilər olmuşdur.

Qarabağ və Şərqi Zəngəzur ərazilərinin işğalı dövründə meşələr, o cümlədən meşə ekosistemləri planlı və sistemli şəkildə məhv edilmişdir.

Əsas dağıdıcı amillərdən biri qanunsuz ağackəsmə olmuşdur. Qiymətli ağac növləri sənaye və yanacaq məqsədilə kəsilərək daşınmışdır.

Bundan əlavə, hərbi əməliyyatlar və nəzarətsizlik nəticəsində genişmiqyaslı meşə yanğınları baş vermişdir. Nəticədə meşələrin təbii bərpa potensialını zəiflətmiş, torpaq qatı ciddi şəkildə zədələnmişdir. İşğal olunmuş ərazilərdə ekoloji nəzarət mexanizmlərinin olmaması meşə fondunun talanını daha da sürətləndirmişdir.

Qarabağ meşələri həm də heyvanat aləmi ilə zəngin olmuşdur. Bu ərazilər çoxsaylı quş, məməli və sürünən növləri üçün təbii yaşayış mühiti rolunu oynamışdır. Meşələr həmçinin çayların qidalanmasında, torpağın münbitliyinin qorunmasında və regional iqlimin tənzimlənməsində mühüm funksiyaya malik olmuşdur.

İşğal müddətində qanunsuz ağackəsmə halları geniş vüsət almış, xüsusilə keyfiyyətli və uzunömürlü ağac növləri kütləvi şəkildə məhv edilmişdir. Bu proses meşə fondunun kəskin azalmasına gətirib çıxarmışdır.

Bununla yanaşı, hərbi fəaliyyətlər və texniki müdaxilələr nəticəsində tez-tez meşə yanğınları baş vermişdir. Yanğınlar torpaq qatının məhsuldarlığını azaldaraq, təbii bərpa mexanizmlərini zəiflətmişdir.

Digər tərəfdən, meşələrin azalması su ehtiyatlarının formalaşmasına mənfi təsir göstərmiş, çayların su səviyyəsində dəyişikliklər müşahidə olunmuşdur. Biomüxtəlifliyin azalması isə ekosistemin davamlılığını zəiflətmişdir. Bu proseslər regionun mikroiqliminə də təsirsiz ötüşməmişdir.

**(ardı 13-cü səhifədə)**

***Fidan Abdurahmanova***

# ŞƏHİD MÜƏLLİMİN ƏRMƏĞANI



**Azərbaycan ordusunun minlərlə əsgərinin arasında könüllü müəllimləri də vardı. Sinif ortaqlarından döyüş meydanına gedən müəllimlərin, əslində, düşməndən alacaq çox qisası vardı. Kitablardan oxuduqları, Birinci Qarabağ müharibəsi veteranlarından və böyüklərindən eşitdikləri haqsızlıqlar illərdi, ürəklərində yaraya çevrilmişdi. Ürək yanğılarını şagirdləri ilə bölüşən müəllimlər daima Ali Baş Komandanın əmrini gözlədiklərini bildirirdilər. Azərbaycan xalqının yaddaşında zaman-zaman qanlı izlər buraxmış erməni terroru müəllimləri daha ağır məsuliyyət qarşısında qoymuşdu. Müəllim, taleyinə yazılmış alın yazısını yaşamaqla bərabər, həm də yaşadığı tarixi dövrü araşdıraraq şagirdlərinə, gələcək nəsillərə ötürməlidir.**

**Torpaqlarımızın azadlığı uğrunda gedən İkinci Qarabağ döyüşlərində qəhrəmanlıq göstərən, şəhidlik zirvəsinə ucalan müəllimlərimiz az deyil.**

**Azərbaycan xalqının qürur duyduğu müəllimlərdən biri də Gəncə şəhərində müəllim olmaq arzusu ilə yaşamış Rəşad Məmmədov idi. Rəşad müəllim olmaq istəyi ilə Gəncə Dövlət Universitetində bakalavr, daha sonra isə magistratura pilləsini oxuyur. 2018-ci ildə müəllimlərin işə qəbulu üzrə imtahan verir, yüksək toplayaraq M.Ş.Vazeh adına 16 saylı tam orta məktəbdə fəaliyyətə başlayan Rəşad bu məktəbdə şagirdlərin yaddaşında əbədi iz buraxır. İki ildən sonra 2020-ci ilin sentyabr ayında Qarabağda əks hücum əməliyyatları gedən zaman Rəşad Məmmədov qələmi süngü ilə əvəz etmək qərarına gəldi. Onu bu yoldan heç kim döndərə bilmədi. Dəfələrlə müraciət etsə də, onu çağırmamışdılar. Nəhayət oktyabr ayının üçündə çağırış gəldi. Elə sonuncu dərsini də oktyabrın 3-də keçdi. Bu gündən etibarən isə məktəbdə deyil, Şuşa uğrunda döyüş meydanında düşmənə dərs verəcəkdi. Sonuncu dəfə isə noyabr 3-də zəng elədi. Daha sonra ondan nə zəng, nə də bir xəbər gəldi. Zəfər bayramında evinə şəhid kimi döndü. Onunla bərabər döyüşlərdə iştirak edən əsgər dostu, Rəşadın dəfnindən sonra məktəbə getdi.**

**Rəşad Məmmədov tarix müəllimi idi. O dərs zamanı tarixin bütün qaranlıq səhifələrinə işıq salmağa çalışırdı. Bəlkə də, heç vaxt düşünməzdi ki, bir gün bu məktəbdə şagirdlərinə onun yazdığı tarixi hadisələrdən söz açılacaq. Rəşad Məmmədovun komandiri və əsgər yoldaşları burada onun son arzusunu yerinə yetirmək, bayrağını təqdim etmək üçün gəlmişdilər. Şəhid olarkən son sözlərini və ona aid üçrəngli bayrağı məktəbə, şagirdlərinə ərməğan etdilər.**

## *Yeni epidemiya qapıda: Hindistanda sağalmaz virus yayılır*




**Hindistan səhiyyə orqanları epidemiya potensialına malik, peyvəndi və ya müalicəsi olmayan Nipah virusunun yayılması ilə mübarizə aparırlar.**

Adalet.az xəbər verir ki, bu barədə ”The Metro” nəşri məlumat verir.

Məqalədə ölkədə beş yoluxma halının aşkarlandığı bildirilir. Bu həftə ərzində bir həkim, bir tibb bacısı və bir səhiyyə işçisi virusa yoluxub. Qəzet xəbər verir ki, hazırda komada olan tibb bacısının ağır tənəffüs xəstəliyi olan bir xəstəni müalicə edərkən infeksiyaya yoluxduğu ehtimal olunur.

Nəşr aydınlaşdırır ki, hökumət orqanları yoluxmuş şəxslərlə təmasda olan 180 nəfəri testdən keçirib və onlardan 20 nəfəri karantinə alıb.

Nipah virusu heyvanlar və insanlar arasında yayılır, eyni zamanda, insandan insana da ötürülə bilər. Hindistanda bir çox insan yarasalar vasitəsilə yoluxur. İnsanlarda virus asimptomatik infeksiya və ya kəskin tənəffüs xəstəliyi kimi özünü göstərə bilər. Simptomlara qızdırma, başağrısı, əzələ ağrıları, qusma və boğaz ağrısı daxildir və ağır hallarda beyin iltihabı iki gün ərzində komaya səbəb ola bilər.

Qeyd olunur ki, virus Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən prioritet patogen (epidemiyaya səbəb olma potensialı olan) kimi təsnif edilib.



*İlham İNAM*

# "QÜRUBA ENƏN GÜNƏŞ" YENƏ DƏ DOĞACAQ

(ixtisarla)

**Yazıçı-publisist Fazil Sənanın "Qüruba enən gü-nəş" romanı qarşımdadır. Onu da qeyd edim ki, bir çox nasirlərimiz hekayə, esse, publisistik yazılar yazmaqla kifayətlənirlər. İrəli gedən ədiblər isə povest və roman janrına müraciət edir.**

Yazıçı üçün roman yaradıcılığı çox böyük məsuliyyət, diqqət, tələbkarlıq, yaradıcılıq axtarışları tələb edən ciddi bir sahədir. Mərhum şair-publisistik İnqilab İsaq bu kitaba yazdığı "Yazıçının özü və sözü..." ön sözündə də roman yazan yazıçını çayda yox, dənizdə üzən qəvvasla müqayisə etmişdir. Vurğulamaq yerinə düşər ki, bu əsər Fazil Sənanın ilk qələm təcrübəsi deyildir. Buna qədər yazıçının "Xəyanət", "Nifrətin göz yaşları", "Bir cüt qərənfil", "Kolleksiya" adlı povestləri və "Gözlə qayıdacağam", "Bağışlanmış günah" romanları ədibin qələmini püxtələşdirmiş və yaradıcılığını təkmilləsdirmisdir. Hədiyyə olaraq qəbul etdiyim "Qüruba enən günəş"ə yol yoldaşı, qulaq müsafiri olaq.

Müəllif əsərin başlanğıcını qəribə və maraqlı bir epiqrafla açır.

"Bu əsər 2052-ci ildə dünyaya gəlişimin yüz illiyi ilə bağlı məni xatırlayanlara ithaf olunur".

Müəllif.

Bu fikirlər ilk baxışdan oxucunun ilgisini çəkir. İstər-istəməz adamda əsəri oxumağa maraq yaranır. Romanın əsas qəhrəmanları Fariz və Fərəhdir. Əsər bu iki cütlüyün münasibətləri üzərində qurulmusdur. Hadisələr məktəbdə - sinif otağında onların məktəbli olduqları dövrdən başlanır Oxucunun obrazlar arasında olan bu münasibətləri səmimi və təbii qəbul etməsi onların saf və təmiz sevgilərinə hörmətdən irəli gəlir. Eyni zamanda bu münasibətlər bir qədər gənc və yeniyetmə oxucu üçün tanış və doğma nüanslardır. Belə ki, mobil telefonların , internetin olmadığı dövrdə Fariz kimi gənclərin Fərəh kimi qızlarla sevgi münasibətləri yalnız "kağız məktublar"la mümkün idi. Bu məktub Fərəhi dəyişdirir, onu bundan sonra Farizə özgə bir gözlə baxmağa , fərqli bir münasibətlə yanaşmağa vadar edir. Fərəh həm də seçim qarşısındadır. Onun "həyat imtahanı"ndan keçməsi və yaxud kəsilməsi Farizə deyəcəyi "hə"dən və "yox"dan çox asılıdır.

Yazıçının təbirincə desək: "İşığı söndürüb qəlbinin işığını yandıran" Fərəh üçün bəlkə də bu məktub Farizdən ən qiymətli bir əşyadır. Farizin başqa kənddən gəlməsinə baxmayaraq onun sinif yoldaslarına, müəllimlərinə olan mehriban münasibəti, yaxşı oxuması, bir sözlə, qızların üstünlüyü Farizə verməsi Fərəhi düşündürür. O, Farizə qarşı heç də dəli-divanə deyildir. Fərəhin atası demişkən: "Farizin onlara uzaqdan-uzağa qohumluğu çatır". Fərəhin sinif yoldaşları olan qızlar əslində Farizlə Fərəh arasında olan sevgini çoxdan duymuşdular. Farizin Fərəhə olan baxışlarını onlar göydə tutmusdular. Bunu Fərəhi cırnadan qızların söhbətlərindən anlayırsan. "Qızların dediyi qismət indi öz ayağı ilə qapıya gəlibdir". Fərəh sanki dilemma qarşısında qalıb. Bu gecəni Fariz də yata bilmir.

Məktubun aqibətini düşünür. Görəsən, özlüyündə ad qoyduğu "dəli keçi"si ona, onun sevgisinə nə cavab verəcək?

Sinifdə Farizin yaxşı oxuması şagirdlərin də diqqətini cəlb edir. Hətta Fərəh Cavadı Farizin yanından uzaqlaşdıraraq özü o partada əyləşir. Fərəh müstəntiq də-qiqliyi ilə Farizin daxili aləmini, iç dünyasını və onun Fərəhə olan münasibətini dərindən öyrənmək çabası göstərir. Fariz Fərəhə, onun ürəyini deşib oraya "sağalmaz bir yara", yəni, eşq odu saldığını bildirir. Sabahkı gün Fərəh Farizlə yanaşı əyləşdiyi partadan ayrılır. Məlum olur ki, Farizin Fərəhə "dəli keçi" deməsi onun xətrinə dəyibdir və küsməsinə səbəb olubdur. Farizin sevgi etirafları sanki Fərəhi dəyişdirmişdir. O, elə bil əvvəlki qız deyildi. Onun Farizə biganə olmadığını baxışları hiss etdirir. Farizin "sevgi məktubu" Fərəhi çıxılmaz vəziyyətə salıb. O da Farizə cavab məktubu yazmaq fikrindədir. Sanki fikri, düşüncəsi kilidlənib. Həmişə dil-dil ötən Fərəh bu dəfə lal olub, söz tapmaqda acizlik göstərir. Nəhayət, o özünü toplayıb iki cümlədən ibarət nəsə yazıb vərəqi qatlayır və onu kitabın arasına qoyur.

Səhərisi gün Fərəhin dərsə gəlmədiyini görən Farizin sanki itiyi itib. O, qırx dərənin suyunu bir yerə yığaraq min-bir fikrə düşür. Onu "toruna salmağa" çalışan sinif yoldaşı Əminə bu gün Fərəhin dərsə gəlməməsindən məharətlə istifadə edir. Fariz sanki sehrlənərək, ovsunlanaraq Əminənin atdığı tora düşüb çabalayan balıq kimi özünü hiss edir. Əminənin "Mən Fərəhdən qabağa düşdüm, yoxsa gorum çatlayardı" kəlmələri sanki Farizi - sudan çıxan balığı yenidən suya qaytarır.

Digər bir tərəfdən bir-birilərinə qovuşmalarının bir addımlığında inadkarlıqları səbəbindən yolları ayrılan bu sevgililərin belə anlaşılır ki, məhəbbətləri ilğım kimi ötəri bir hiss imiş.

Hərbi xidmətə yola düşən Fariz Polşada əsgər-liyini çəkməli olur. Ali məktəbi bitirib kəndlərinə geri dönən Fərəhə müxtəlif yerlərdən elçilər gəlsə də, o heç kimə getməyərək qəlbində gəzdirdiyi məhəbbətinin həsrətiylə yaşamaq zorundadır.

Əsgəri xidmətdən qayıdan Farizi valideynləri el adəti ilə evləndirirlər. Ailə qurduğu Elnarə xanımdan Fərid adlı bir oğlu da dünyaya gəlir. Bunlara baxmayaraq Fariz ilk məhəbbətinin qaranquşu olan Fərəhi heç cür unuda bilmir. Öz xoşbəxtliyini ata-anasına olan hörmətinə qurban verən Fərəhin taleyi ilə təkcə bacısı Aysel maraqlanmaqdadır. Farizə baxanda hələ də öz sevgisinə sədaqətli çıxan Fərəh məhəbbətini qəlbində gəzdirməyə üstünlük verməkdədir.

Fərəhgilin ailəsi belə qərara gəlir ki, başqa kənddə yaşayan Farizin evli ya subay olduğunu öyrənsinlər. Atası Əmrah qızının Farizə meylli olduğunu duymuş, tələbə olanda Farizin xasiyyəti xoşuna gəlmişdi. Fərəhgilin kəndçisi Qəzənfər (hansıkı Fariz orta məktəbdə oxuyanda onlarda qalırdı) vasitəsilə öyrənirlər ki, Fariz ailə qurub, evlənib, özü də hərbidə işləyir. Qəzənfər Farizin atası Bayramla xalaoğlu idi. Vaxtilə "Tanımadığım qızı evimə gəlin gətirmərəm", - deyən Bayrama məlum olanda ki, oğlunun əsl istədiyi qız Fərəhdir, Tanrı qarşısında bu evliliyə mane olduğu üçün özünü günahkar sayır. Farizin evlənmə xəbərini eşidən Fərəhin atası Əmrah kişi qəzəbli vəziyyətdə evə gəlir. O, Fərəhi çağırtdırır. Fariz kimi ağıllı, savadlı oğlanın evlilik təklifini rədd etdiyi üçün qızına bir şillə vurur. Lakin Fərəhi atasının şilləsindən çox öz xoşbəxtliyinə qarşı atdığı yanlış addım ağrıdır.

Əsərdə oxucu marağına səbəb olan obrazlardan biri də Zəhra surətidir. Narkobizneslə məşğul olan Əkrəmin fikri həddən-ziyadə varlanmaq olsa da, qızı Zəhra atası kimi düşünmür. O, uzaq Moskvada təhsil almaq arzusundadır. Məqsədi əfqan qadınlarını azad, təhsilli, hüququnu bilən sivil bir qadın kimi görməkdir.

Verilən kəşfiyyat tapşırığını yerinə yetirərkən Fariz yaralanır. Həkim qızın xoş təbəssümü, gülərüz siması sanki onun yaralarına məlhəm olur. Farizin ixtiyarsız olaraq həkim qızın gözəlliyinə valeh olması sevgi hisslərinin alovlanmasına yol açır. Həkim qız da Farizə qarşı biganə deyil. Məhəbbətin gücü Farizin sürətlə sağalmasına səbəb olur. Təəssüflər olsun ki, Farizin bu sevgi oxu da sonunda daşa dəyir. Evə buraxılmaq üçün ordudan tərxis olunan Fariz həkim qız Alla ilə maraqlanarkən onun həlak olması xəbərini alır. Xidmət etdiyi müddətdə bu yerlərlə bağlı acılı-şirinli xatirələri xəyalında özü ilə Vətənə aparan Fariz sevdiyi, xoşbəxtlik arzuları yarımçıq qalan Allanın xatirəsini heç cür unuda bilmirdi. Qanlı-qadalı Əfqanıstan müharibəsindən Vətənə qayıtmaq qismətində olan Farizin sağ-salamat qayıtmağı şərəfinə qurbanlıq qoç kəsilir.

Fərəhin bacısı Aysel xaraktercə Fərəhdən fərqli obrazdır. Heç kimə demədən, evdən ailənin razılığı olmadan bir oğlana qoşulub qaçması atası Əmrahın ölümü ilə nəticələnir. Sonradan məlum olur ki, qızının getdiyi ailədən Əmrahın zəhləsi gedirmiş . Ayselin onu ayaqlayıb zəhləsi gedən adamın oğluna qoşulub qaçması Əmrahın infarkt keçirib ölməsinə səbəb olur.

Əsərdə baş verən hadisələr XX əsrin 80-90-cı illərini əhatə edir. Bu dövrün burulğanlı abı-havası başqaları kimi Farizin də həyatından, taleyindən yan keçmir. I Qarabağ savaşının başlanması, Ermənistanın Azərbaycana qarşı torpaq iddiası irəli sürməsi, erməni qaniçənləri tərəfindən kəndlərimizin, şəhərlərimizin tez-tez atəşə tutulması, həmvətənlərimizin qəddarcasına qətlə yetirilməsi Fariz kimi qeyrətli vətən oğullarını dərindən narahat edirdi. Fariz qərara gəldi ki, könüllü batalyonlardan birinə yazılaraq düsmənə qarşı vuruşsun. Evdə qərarını açıqlayanda həyat yoldaşı onun bu addımına etiraz edərək uşaqları da Farizin üstünə tullayıb atasının evinə gedir. Təəssüflər olsun ki, bu məsələdə Farizin valideynləri də gəlinləri Elnarə ilə eyni fikirdədirlər. Onlar da Farizin könüllü döyüşə getməsinin əleyhinədirlər. Bunlara baxmayaraq Farizin qəlbindəki Vətən sevgisi onu yolundan döndərmir. Əfqanıstandakı döyüş təcrübəsi, hərbi peşəkarlığı I Qarabağ savaşında da Farizin karına gəlir. Cəsur kəşfiyyatçı kimi tez bir zamanda bütün batalyonun hörmətini qazanır Fariz. İki ilə yaxın bir müddətdə döyüşlərdə şərəf və ləyaqətlə iştirak edən Farizin yaralanıb hospitala göndərilməsi xəbəri həyat yoldaşına və ata-anasına həyəcanlı vəziyyət yaşadır. Onlar hospitala Farizi görməyə gedirlər .Bir aydan bir az çox hospitalda müalicə olunan Farizi yaraları sağaldığı üçün evə buraxırlar. Atası Bayram kişi qurban kəsib Tanrıya şükürlər oxuyur.

Əvvəlcə Farizin ölüm xəbərini eşidən Fərəh özünə yer tapa bilmir, tez-tez ağlayır. Sonradan məlum olur ki, ölən Farizin özü yox, qardaşıdır. Bunu eşidən Fərəh sevinərək bu xəbərdən şad olur. Bundan sonra Farizin qohumu Ziyafət vasitəsilə onun telefon nömrəsini əldə edən Fərəh onunla görüntülü danışaraq az da olsa səadətinə qovuşur.

Məlum olur ki, bu uzun illər ərzində onların bir-birinə olan sevgiləri zərrə qədər də olsun azalmayıbdır. Vaxtilə onların ilk görüşünə şahidlik etmiş qocaman çinar ağacının kölgəsində köhnə sevgililər yenidən görüşürlər.

Həsrət, ayrılıq, intizar göz yaslarına qarışaraq günahlarının etirafına çevrilir. Bir-biriləri ilə tez-tez görüşüb yenidən vüsala qovuşan bu yaşlı sevgililər sanki sevginin qüdrətindən gümrahlaşır, cavanlaşırlar. Onlar bu gecikmiş səadətlərini qürub edən günəşin parlaq işığına bənzədirlər. Roman çox təsirli və düşündürücü bir həyat salnaməsidir. Hadisələrin gedişatı oxucu üçün təsirsiz ötüsmür.

Farizin oğlu Fərid II Qarabağ müharibəsində hər iki qıçını itirərək qazi olur. Nəvəsi Adəmi "Ata, ayağa dur, gedək mənə maşın alaq", - deyərək atasının ayaqlarının olmadığını görərək hönkürməsi Farizin infarkt keçirərək ölməsinə səbəb olur.

Farizin onun zənglərinə cavab verməməsindən narahat olan Fərəh inadla həmin nömrəyə tez- tez zəng vurur. Nəhayət, zənginə cavab alan Fərəh Farizin vəfat etməsi xəbərindən sarsılır.

Bir gün Farizin məzarını ziyarətə gedərkən orada məzarın üzərinə əklil qoyaraq Farizin ruhuna Quran oxutduran qara paltarlı qadının kimliyi Elnarədə təəccüb doğurur.

Yazıçı bilərəkdən o qadınları bir-biri ilə tanış etmir. Çünki Farizdən sonra o tanışlığın da heç bir mənası yoxdur. Farizin həyat yoldaşı Elnarəyə məlum olmasa da oxucuya o qadının kimliyi yaxşı məlumdur.

Yazıçı bu əsərdə təkcə iki insanın sevgi macəra-larından söhbət açmaqla kifayətlənməmişdir. O, eyni zamanda XX əsrin son 30-40 ilində olan həm ölkəmizdə, həm də dünyada baş verən ictimai-siyasi hadisələrin panoramasını gözlərimiz qarşısında canlandırmaqla müasir oxucunu yaxın tariximizlə tanış etmək missiyasına da xidmət etmiş olur.

**Belə bir roman araya-ərsəyə gətirdiyi üçün hörmətli dostum Fazil Sənana öz minnətdarlığımı bildirirəm.**

# "Yaşa, Vətən"

**Bəzən müqayisələr insanın yerini, tutduğu mövqeyi dəqiqliklə göstərir. Mən bu qənaətə jurnalist İdris Şükürlünün "Yaşa, Vətən" kitabı ilə tanış olduqdan sonra gəldim. Əslinə baxanda, bu kitabda toplanan oçerklərin əksəriyyətini Vətən müharibəsində tarixi Zəfərimizdən sonra dövri mətbuatda oxumuşdum. Lakin onları bir kitab halında yenidən oxumaq tamam başqa bir təsir bağışladı. Jurnalistin yazı üslubu, Azərbaycan əsgərinin hünəri, şəhidlərin ölməz ruhu oxucunu sükuta çəkir, düşünməyə vadar edir.**




"Yaşa, Vətən" kitabı əsgər və zabitlərimizin cəbhədə göstərdiyi misilsiz qəhrəmanlığa, onların Vətən sevgisinə, torpaqlarımızın azadlığı uğrunda can fəda etməsinə həsr olunmuşdur. Kitabdakı yazıların hər sətrində Azərbaycan əsgərinin nəbzi döyünür. Burada şəhidlik yalnız ölüm deyil - ali məqam, Tanrı qatına yüksələn müqəddəs yol kimi təqdim olunur. Müəllif oxucunu Vətəni sevməyə deyil, Vətəni qorumağa çağırır. "Sətirlərin göz yaşı" bölməsində müəllif yazır: "Biz nə qədər uzağa getsək də, dünyanın nemətlərini başımıza töksələr də, yenə gözümüz Vətəni arayar " Bu fikirlər İdris Şükürlünün şəhidlik fəlsəfəsinin ana xəttidir. Onun üçün şəhidlik qəbul edilmiş elə bir həqiqi gerçəklikdir ki, ondan o yana daha ali məqam yoxdur. Şəhidlər Vətənin bir parçasından yaranır, torpağa dönərək yenidən Vətənə qayıdırlar.

Vətən müharibəsi Azərbaycan dövləti, milləti və ordusu üçün böyük bir sınaq, əsl mətinlik məktəbi oldu. Xalq-iqtidar-ordu birliyi bir yumruq kimi birləşdi və cəmi 44 gün ərzində tarixi ədalət bərpa edildi. 8 noyabr 2020-ci il Azərbaycan tarixində əbədi qalacaq şanlı bir gündür. Bu Qələbə danışıqlar masasında deyil, döyüş meydanında qazanıldı. Ulu Öndər Heydər Əliyevin illərlə arzuladığı vəsiyyəti onun siyasi varisi, Ali Baş Komandan İlham Əliyev müdrik siyasəti, sarsılmaz iradəsi və güclü ordu quruculuğu ilə gerçəkləşdirdi. "Qarabağ Azərbaycandır!" nidası artıq bir şüar deyil, tarixi həqiqətdir.

İdris Şükürlü üçün Vətən anlayışı gənc nəslin yaddaşına yazılmalı olan müqəddəs dərsdir. O, gənclərin ürəyində vətən sevgisini erkən yaşlardan formalaşdırmağın vacibliyini vurğulayır. Böyük Heydər Əliyevin "Vətəni sevmək azdır, Vətəni qorumaq əsl vətəndaşlıqdır" fikri onun yaradıcılığında aparıcı ideyadır.




Qeyd etmək lazımdır ki, İdris Şükürlü təkcə masa arxasında yazan jurnalist olmayıb. O, hələ 1992-ci ildə vətənin ağır günlərində cəbhə bölgələrində olmuş, Lerik rayon nümayəndə heyətinin tərkibində əsgər və zabitlərimizlə görüşmüş onları vətəni qorumağa ruhlandırmışdır.

Hərbi hissələrə yardımlar göstərmiş, döyüşçülərin həyatını, ruhunu qələmə almışdır. Ordu generalı Altay Mehdiyevlə görüşləri, ordunun uğurlarına verdiyi dəyər onun yazılarında canlı faktlara çevrilmişdir.

Onun "Yaşa, Vətən" kitabı sadəcə publisistika nümunəsi deyil, həm də gələcək üçün möhkəm epik əsərlər üçün təməl hesab oluna bilər. Müəllif material toplamaq üçün kəndbəkənd, ev-ev gəzmiş, şəhidlərin döyüş yoldaşları, müəllimləri, valideynləri ilə söhbətlər aparmış, səmimi bədii lövhələr yaratmışdır.

O, arzuları yarımçıq qalmış şəhidlərin ömrünü yazıları ilə tamamlamış, onları mənən yaşatmışdır. Beləliklə də, İdris Şükürlünün şəhidlər haqqında 7 kitabı oxuculara təqdim olmuş və yaddaşlarda möhkəm iz buraxmışdır.

Yarım əsrə yaxın bir dövrdə jurnalistikada "döyüşən əsgər" kimi fəaliyyət göstərən İdris Şükürlünün zəhməti dövlət tərəfindən də layiqincə qiymətləndirilib. O, 2010-cu ildə Milli Mətbuatın 135 illik yubileyində-Milli Mətbuat günü Prezident İlham Əliyevin sərəncamı ilə "Əməkdar jurnalist" fəxri adına layiq görülmüş, müxtəlif illərdə Azərbaycan Jurnalistlər Birliyinin və Mətbuat Şurasının, Lerik rayon İcra Hakimiyyətinin Fəxri fərmanları ilə 2026-cı ildə isə Milli Mətbuatın 150 illik yubileyində Prezident İlham Əliyevin təsis etdiyi "Həsən bəy Zərdabi" medalı ilə təltif olunmuşdur.

50 ilə yaxın yaradıcılıq yolunda İdris Şükürlü gəncliyini zamana versə də, əvəzində xalqın alqışını, "sağ ol"unu, yaddaşlarda yaşayan əsərlərini qazanmışdır. Onun qazancı - Vətənə xidmət, şəhidlərin ruhuna ehtiram, gənc nəslə örnək olan ömür yoludur.

**Sənə halaldır bu ad, bu mükafatlar!**

**Sən dövlətimizin və mətbuatımızın hər bir dəyərinə layiqsən. İnanırıq ki, qarşıda səni yeni yaradıcılıq uğurları gözləyir.**

**İradə Məlikova**
**"Dodo" qəzetinin baş redaktoru, yazıçı-publisist**

## "Bakcell" lotereyasında meqa uduşun qalibi bəlli oldu!

bakcell
Daha yaxın olaq

**İnnovasiya lideri Bakcell-in hədiyyələrlə bol lotereyası uğurla yekunlaşıb. Adalet.az xəbər verir ki, geniş marağa səbəb olan lotereyanın ən böyük mükafatı - "Porsche Cayenne" avtomobilinin qalibi Urfan Buksayev olub.**

**"Bakcell olaraq abunəçilərimizin gündəlik həyatını daha da zənginləşdirən, onlara əlavə dəyər yaradan təşəbbüslərə xüsusi önəm veririk. Bu lotereya çərçivəsində yüzlərlə qalibə sevinc dolu anlar yaşatdıq. Böyük məmnuniyyət hissi ilə meqa lotereyamızın əsas hədiyyəsi - 'Porsche Cayenne' avtomobilinin qalibini elan edirik və bütün qalibləri səmimi-qəlbdən təbrik edirik!", - deyə Bakcell-in İctimaiyyətlə əlaqələr və korporativ kommunikasiyalar üzrə direktoru Aysel Süleymanova bildirib.**

**Qeyd edək ki, lotereya çərçivəsində sonuncu "Zeekr 001" avtomobilinin də qalibi müəyyənləşib. Samir Əskərov bu unudulmaz anın sevincini yaşayaraq lüks avtomobilinin açarlarını təhvil alıb.**

**Xüsusilə vurğulamaq istərdik ki, Bakcell lotereyası Azərbaycanda süni intellekt əsaslı platforma üzərində qurulan ilk genişmiqyaslı lotereya olub.**

**Abunəçilər "Şans" paketi və Bakcell xidmətlərindən aktiv istifadə vasitəsilə möhtəşəm hədiyyələr qazanmaq imkanı əldə ediblər. Lotereya müddətində süni intellektin seçimi ilə ümumilikdə 92 "iPhone 17", 13 "Zeekr 001" avtomobili və 1 "Porsche Cayenne" sahiblərinə təqdim edilib.**

**Bakcell haqqında**

**Bakcell Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir.**

**Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir.**

**Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan Bakcell süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.**

**Bakcell müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.**

# QLOBAL İQLİM DƏYİŞMƏLƏRİ VƏ ONLARIN AZƏRBAYCANA TƏSİRİ

**(əvvəli 11-ci səhifədə)**

2020-ci ildən sonra azad edilmiş Qarabağ və Şərqi Zəngəzur ərazilərində meşələrin bərpası istiqamətində mühüm işlər görülməyə başlanmışdır. İlk mərhələdə meşə fondunun inventarlaşdırılması və zərər dərəcəsinin qiymətləndirilməsi aparılırmışdır. Bərpa tədbirləri çərçivəsində yerli iqlimə uyğun ağac növlərinin əkilməsi, təbii bərpa proseslərinin stimullaşdırılması və meşə mühafizəsinin gücləndirilməsi həyata keçirilir. Uzunmüddətli məqsəd dayanıqlı və balanslı meşə ekosistemlərinin formalaşdırılmasıdır.

Meşəbərpa və yaşıllaşdırma proqramları çərçivəsində yeni ağaclar əkilir, təbii regenerasiya prosesləri dəstəklənir.

### *Sənaye və nəqliyyat*

Sənaye müəssisələri və nəqliyyat sektoru atmosferə böyük həcmdə zərərli qazlar buraxır. Xüsusilə iri şəhərlərdə "istilik adası" effekti formalaşaraq temperaturun yüksəlməsinə səbəb olur.

Azərbaycanda dağ-mədən işlərinin aparılması zamanı istixana qazlarının artmasına qarşı mübarizə üçün müəyyən tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

Emissiyaların mütəmadi ölçülməsi, dizel yanacağından istifadənin tədricən azaldılması, mədən texnikasının elektrikləşməsi və ənənəvi olmayan enerji mənbələrindən istifadə olunması prioritet hesab edilmişdir.

### *Kənd təsərrüfatı fəaliyyəti*

Torpaqların həddindən artıq şumlanması, kimyəvi gübrə və pestisidlərin geniş istifadəsi, həmçinin heyvandarlıqda metan qazının artması iqlim dəyişməsinə töhfə verir. Bu amillər torpaq məhsuldarlığını azaldır və ekosistemlərin tarazlığını pozur.

### *Təbii amillər*

Palçıq vulkanlarının püskürmələri, Günəş aktivliyi və digər iqlimə müəyyən təsir göstərsə də, müasir iqlim dəyişməsinin əsas səbəbi insan fəaliyyətidir.

**Ekstremal hava hadisələri**

**1.Sel və daşqınların artması**

**2.Quraqlıqların tez-tez baş verməsi**

**3.Dağ buzlaqlarının əriməsi (məsələn, Tufandağ ətrafında)**

**4.Yağıntı rejiminin dəyişməsi**

**5.Torpaq eroziyası və səhralaşmanın güclənməsi**

Xəzər dənizinin səviyyəsi tədricən aşağı düşməkdədir. Bu proses balıqçılığa, liman infrastrukturuna, sahil ekosistemlərinə mənfi təsir göstərir.

İqlim dəyişməsi nəticəsində kənd təsərrüfatı və su resurslarına ziyan dəyir. Nəticədə su ehtiyatları



azalır, su qıtlığı riski artır və suvarma tələb edən kənd təsərrüfatı sahələri çətinliklərlə üzləşir.

Yüksək temperatur və ekstremal hava şəraiti İnsan sağlamlığına təsir edir.

İstiliklə bağlı xəstəlikləri artırır, allergik reaksiyaları gücləndirir, su və qida təhlükəsizliyinə təsir göstərir.

Bəs Azərbaycanda iqlim dəyişməsinə qarşı hansı mübarizə tədbirləri aparılır?

2024-cü ilin noyabr ayında Azərbaycan dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP 29-a ev sahibliyi etmişdir.

Azərbaycan 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını təsdiq edib, 2000-ci ildə isə Çərçivə Konvensiyasına əlavə olan Kioto Protokoluna qoşulub. Həmin vaxtdan ölkəmiz qlobal iqlim dəyişmələrinə qarşı mübarizədə həm beynəlxalq, həm ölkə səviyyəli qabaqlayıcı tədbirlərlə fəal iştirak edir.

Ölkəmiz baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz, 2050-ci ilədək isə 40 faiz azaldılmasını hədəfləyir.

Azərbaycan həmçinin elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını planlaşdırır. Azərbaycanın enerji siyasətinin prioritetini isə yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli təşkil edir.

Hazırda Azərbaycanın hər yerində, xüsusən Qarabağda və Zərqi Zəngəzurda meşələrin bərpası və artırılması ilə bağlı mütəşəkkil iş aparılmaqdadır. Azərbaycanda Qlobal istiləşmənin qarşısını almaq məqsədilə aşağıdakı konkret tədbirlər görülməkdədir:

Enerji sektorunda günəş və külək enerjisinin payının artırılması, 2030-cu ilə qədər elektrik enerjisinin 30%-nin bərpa olunan mənbələrdən əldə edilməsi

Meşə və torpaqları mühafizə etmək üçün meşələri qoruyaraq artırmaq, səhralaşma və eroziya ilə mübarizə

Nəqliyyat sektorunda İctimai nəqliyyatın genişləndirilməsi və elektrik avtomobillərinin təşviqi

Kənd təsərrüfatında suya qənaət edən texnologiyaların tətbiqi və iqlimə davamlı təsərrüfatçılıq

Adaptasiya və risklərin idarə edilməsi üçün erkən xəbərdarlıq sistemlərinin qurulması, sel və quraqlıq risklərinin qiymətləndirilməsi

Maarifləndirmə məqsədi ilə ekoloji təhsil proqramlarının genişləndirilməsi və gənclər arasında davamlı həyat tərzinin təşviqi

Nəticədə qeyd etmək olar ki, qlobal iqlim dəyişməsi müasir dövrün ən ciddi çağırışlarından biridir və bu probleme biganə yanaşmaq mümkün deyil. Azərbaycan üçün iqlim dəyişmələrinin təsirlərinin azaldılması həm ekoloji, həm də sosial-iqtisadi baxımdan böyük əhəmiyyət daşıyır.

**Bu mübarizə yalnız dövlət siyasəti ilə məhdudlaşmamalı, hər bir vətəndaşın ekoloji məsuliyyəti ilə dəstəklənməlidir. Dayanıqlı inkişaf, təbiətə hörmət və ekoloji şüurun formalaşdırılması gələcək nəsillər üçün sağlam mühitin təmin olunmasının əsas şərtidir.**

**Azər Şükürov**
**ADNSU-nin müəllimi,**
**texnika elmləri üzrə fəlsəfə doktoru**
**Ağamahmud Səmədov**
**geoloq**

# Azad olunmuş ərazilərdə 9.153 ünvan təyin edildi

**Ötən il "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda əks etdirilmiş tədbirlər, o cümlədən, torpaqların elektron kadastr uçotu, yerquruluşu və torpaq tədqiqatları istiqamətində işlər davam etdirilib.**

Bu barədə Adalet.az İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə istinadən xəbər verir.

Məlumata görə, 2025-ci il ərzində işğaldan azad edilmiş ərazilərdə torpaq tədqiqatı üzrə 140,2 min ha, geobotaniki tədqiqat üzrə isə 95,5 min ha ərazidə kameral işlər aparılıb. Bununla yanaşı, ümumilikdə 233,7 min ha sahədə laboratoriya işləri yerinə yetirilib.




Ötən il ərzində işğaldan azad olunmuş ərazilərdə ümumilikdə 191 küçə üzrə 9.153 giriş ünvanı, 2.943 daxili ünvan təyin edilərək Ünvan Reyestri İnformasiya Sisteminə daxil edilib.

2025-ci il ərzində 236 kiçik dövlət müəssisə və obyekti, dövlət müəssisələrinin çevrilməsi nəticəsində yaradılmış 8 açıq səhmdar cəmiyyətinin səhmləri, 208 obyektin yerləşdiyi dövlət mülkiyyətində olan torpaq sahəsi və 1.160 nəqliyyat vasitəsi özəlləşdirilib. Qeyd edilib ki, 2025-ci ildə investisiya müsabiqələri vasitəsilə özəlləşdirilmiş müəssisələrə 18,8 milyon manat sərmayə qoyulub, dövlət büdcəsinə 12,2 milyon manat ödənilib və həmin müəssisələrdə 622 yeni iş yeri yaradılıb.

Ötən ildə özəlləşdirmədən dövlət büdcəsinə 135,3 milyon manat daxil olub. Bu, 2024-cü illə müqayisədə 26,4 milyon manat və ya 24,2% çoxdur. Ümumilikdə isə dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı illik büdcə proqnozunun icrası 123% həcmində təmin olunub.

Hesabat dövründə dövlət əmlakının özəlləşdirilməsi məqsədilə 58 hərrac təşkil edilib. Ümumilikdə hərraclarda iştirak etmək üçün 2.446 sifariş verilib. Hərraclarda iştirak etmək məqsədilə "Elektron hərrac" proqram təminatı vasitəsilə 149 onlayn qoşulma olub. Hərraca çıxarılmış əmlaklar üzrə 644 elektron sifariş qəbul edilib.

Dövlət əmlakının icarəyə verilməsi sahəsində də yüksək nəticələrə nail olunub. Belə ki, 2025-ci il ərzində 4.957 yeni icarə müqaviləsi bağlanılıb ki, bunun 621-i qeyri-yaşayış, 4.336-sı isə torpaq sahəsinə aiddir. Daşınmaz dövlət əmlakının icarəsindən ötən il dövlət büdcəsinə daxilolmalar 46,2 milyon manat təşkil edib. Bu, 2024-cü illə müqayisədə 8,6 milyon manat və ya 23% çoxdur. Ümumilikdə isə hesabat dövründə daşınmaz dövlət əmlakının icarəyə verilməsi ilə bağlı illik büdcə proqnozunun icrası 135.9 % həcmində təmin olunub.

Torpaqların idarə edilməsi, torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi sahəsində də işlər davam etdirilib. 2025-ci ildə ölkə üzrə ümumilikdə 25.964 monitorinq keçirilib. Torpaq Məcəlləsinin tələblərini pozan fiziki və hüquqi şəxslər barəsində 1266 inzibati protokol yazılmaqla 585 min manat cərimə tətbiq edilib.

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli Fərmanının icrası çərçivəsində Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən 2025-ci ildə istifadəyə verilən "Torpaqların kateqoriyasına dair müraciətlərə baxılması" elektron xidməti vasitəsilə torpaqların kateqoriyalara aid edilməsi, onların bir kateqoriyadan digərinə keçirilməsi və kateqoriya daxilində məqsədli təyinatının dəyişdirilməsi ilə bağlı müraciətlərin qəbulu və baxılması elektron qaydada "vahid pəncərə" prinsipi əsasında həyata keçirilir. Məlumat üçün qeyd edək ki, ötən ildə 226 hektar torpaq sahəsinin kateqoriyası Nazirlər Kabinetinin sərəncamı ilə dəyişdirilib.




# BAYAT

№ 70 (930)




# Sabah gəl ruhumu məğlub elə, idrakımı fəth et...




Arif BUZOVNALI


## Yaşa, Azərbaycan

Ey müqəddəs Vətənim, ey gözümün nuru mənim,
Ey mənim ruhumun ustadı cəfakeş Vətənim.
Ey bu dünyada məhəbbət sözünün timsalı,
Ey məhəbbət becərən alilərin amalı.
Ey Xəzərtək sözü eşq ilə coşanlar Vətəni,
Kür kimi, ey həvəsi, hissi daşanlar Vətəni.
Ey şəhid qanları ilə suvarılmış yurdum,
Xain əllərdə qalıb bağrı yarılmış yurdum.
Bu rəzalətlərə qalib gələcəksən, bilirəm,
Qurtulub faciələrdən güləcəksən, bilirəm.
Bir nida yüksələcək göylərə yerdən o zaman:
Yaşa, Azərbaycan, çox yaşa, Azərbaycan.

Bu təbiət salıb azadlığa meylin, həvəsin,
Çalışır sındıra dünyada rəzalət qəfəsin.
Yığılıb bir yerə ahlar qoparır zəlzələlər,
Yerin ahın göyə doğru aparır zəlzələlər.
Silkələndikcə yerin köksünə çökmüş dağlar,
Çevirib göz yaşını gur selə çağlar, çağlar.
Ağ buludlar həyəcandan sarılar zirvələrə,
Küləyin nəfsi dayanmaz bu şirin cilvələrə,
Sovurar qumları coşqun Xəzərin sahilinə,
Bu təbiət dili birdən dönər insan dilinə,
Yayılar aləmə nitqindəki titrək həyəcan:
Yaşa, Azərbaycan, çox yaşa, Azərbaycan.

Qana doymaz ayaq altındakı çat-çat torpaq,
Vay o gündən ki, üzü düşmənə olsun tapdaq.
Qara torpaq ki, nə canlar uyuyur altında,
Günbəgün isti bədənlər soyuyur altında.
Ey vətən oğlu, onun hər ovucu insandır,
Həmin insan sənin öz kimliyinə ünvandır.
O atandır, o babandır, ulu əcdadındır,
Qara torpaq sən özünsən, sənin övladındır.
Öp, qoru, tut gözün üstündə, müqəddəsdir o,
Vətən övladı adın almaq üçün bəsdir o.
Elə nemətdi ki, ruhundadı keçmiş-gələcək,
Səni də ağuşa aldıqda dilindən deyəcək
Kainata açaraq ağzını yarğan-yarğan:
Yaşa, Azərbaycan, çox yaşa, Azərbaycan.

Dədələrdən, babalardan bizə mirasdı Vətən,
Qoyma yurdunda sənin at çapa hər yoldan ötən.
Bu Vətən tarixini qanla yazıb yaddaşına,
İnsafından gəlib axır nə gəlibsə başına.
Yoxsa, bir dövləti olmuş ki, dənizdən-dənizə.
O nəhəngdən kiçicik parça gəlib çatdı bizə.
Vətəni tariximizdən alıb ibrət qoruyaq,
Əbədi andımız olsun bizim üç rəng bayraq.
Hər kiçik zərrəsi yurdun dağımızdır şəksiz,
Bu Vətən torpağı son torpağımızdır şəksiz.
Ululardan bizə qiymətli əmanətdi, bilək,
Başı vermək onun uğrunda səadətdi, bilək.
Yazacaq torpağa qanilə gedən hər qurban:
Yaşa, Azərbaycan, çox yaşa, Azərbaycan.

İftixarla adına ey Vətənim söylədiyim,
Şad günündə sevinib, qəmli günü göynədiyim.
Ey bu şair ürəyin sevgisi, sevdası Vətən,
Ey bütün varlığımın məqsədi, mənası Vətən.
Varsa ruhumda dəyanət, əzəmət səndəndir,
Məndə hər yaxşı əməl, yaxşı cəhət səndəndir.
Sənin eşqindi vücudumda yanır məşəltək,
Sənin eşqinlə keçir oddan, alovdan bu ürək.
Sənin eşqindi bu dünyada həyatım, nəfəsim,
Sənin eşqindi bu könlümdəki hissim, həvəsim.
Məndə eşqim qədər olsaydı əgər istedad,
Sən böyüklükdə sözü sözdən edərdim icad.
Elə bir nərə çəkərdim ki, eşitsin bu cahan:
Yaşa, Azərbaycan, çox yaşa, Azərbaycan.

***

Ümid etdim gələr bir gün, nəhayət, xoş xəbər səndən,
O bir gün gəlmədi, ey bəxti-biçarə, həzər səndən.

Mənə məndən yetişdi hər bəla, ey binəva könlüm,
Sənə, sən barı yol vermə toxunsun bir xətər səndən.

Sevinc həddin aşır, divanələrtək rəqs edir ruhum,
Haçan ki, söz açır, ey nazənin yarım, kədər səndən.

Ömürlərdir yatan bəxtin qulağın dəng edib hər gün
Səadət bir qədər məndən pıçıldar, bir qədər səndən.

Üzüm dönsün, əgər üz döndərib bir özgəyə baxsam,
Dilim yansın, şikayət eyləsəm bir yol əgər səndən.

Sabah gəl ruhumu məğlub elə, idrakımı fəth et,
Səni qalib görəndə şad olur könlüm betər səndən.

Nigaran Arifəm, gəl yarım ol, bu bəxt ilə olsun
Nə bir kəs bəxtiyar məndən, nə bir kəs bəxtəvər səndən.

## Üçlük

Sənsizliyə tab eyləyə bilsəydi bu könlüm,
Məcnun kimi gündüz-gecə çöllərdə gəzərdim,
Məcnun kimi çöllərdə gəzərdim və dözərdim.

Qəlbimdə əgər bilsə idim vəslə güman var,
Köksümdəki hər bir ucalan dağı çapardım,
Köksümdəki hər dağı çapardım və tapardım.

Olsaydı əgər mümkün o dünyaya gedəndə
Bir dəfə səni görməyimi arzu edərdim,
Bir dəfə səni arzu edərdim və gedərdim.

Getdin, nədi sevda qəminin zilləti bildim,
Gəlsəydin əgər sevgidəki zövqü bilərdim,
Gəlsəydin əgər zövqü bilərdim və ölərdim.

Bəxt ulduzumu olsa idi görməyə imkan,
Zülmətlər içindən özümə bir yol açardım,
Zülmətlər içindən yol açardım və qaçardım.

***

Qədrini bil qismətin,
Bir gün elindən çıxar.
Mən sənə
Hamıdan əvvəl dedim,
Bilmədin.

Olsa əgər müşkülün,
Özgələrə açma əl.
Ərk ilə
Aç qapımı, gəl, - dedim,
Gəlmədin.

Ver yelə dünya qəmin,
Ruhunu qat ruhuma,
Qönçətək
Dərdi soyun, gül, - dedim,
Gülmədin.

Yollara həsrət düzüb
Qəm çiləyən gözlərin,
Dön geri
İzlərini sil, - dedim,
Silmədin.

Kimsə dedi hardasa
”Ölmüşə yoxdur günah”.
Gəl, - dedim,
Bircə saat öl, - dedim,
Ölmədin.

## Bağlayın ağ pərdələri

(Cahangir Novruzova)

Bağlayın ağ pərdələri,
Tamaşa bitib, kimsə qalmayıb,
Hamı gedib.
Bir mən qalmışam, bir də bu səhnə,
Daha heç kim, daha heç nə...

Bağlayın ağ pərdələri,
Yalandır bu zülmət, bu işıq,
bu kədər, bu sevinc,
məhəbbət, yaraşıq
Hamısı yalandır,
Hamısı gedəndir,
Pərdələr qalandır.

Bağlayın ağ pərdələri,
Mənə soyuqdur,
İsinmək istəyirəm,
Onlara bürünmək istəyirəm,
Bircə gün, cəmi bir dəfə
ağappaq görünmək istəyirəm.

Bağlayın ağ pərdələri,
Onlara toxunum,
Onlardır dünyada
ən doğmam, yaxınım.
Neynirəm Hamletin zirehin,
Qacarın xələtin.
Xosrovun tacını,
Bəhramın gücünü neynirəm,
Səhnələr bəzəyi
bu şahlar, sultanlar
bu ağ pərdələrə yenilib,
bu ağ pərdələrə basılıb,
Qiymətli zirehlər, xələtlər
Səhnədən alınmış bac kimi
Hansısa qaranlıq otaqda asılıb.

Bağlayın ağ pərdələri,
Onlar anamın ağ saçlarıdır,
Qoy öpüm, oxşayım,
Kaş mən də
qürbətdə ağaran saçımla
bu ağ pərdələrə oxşayım.
Bağlayın ağ pərdələri.

## Oyan

Oyan, ey qəmlərə aludə könül,
yatma, oyan,
Bu şəfəqdən süzülən rəngə boyan,
Dön qığılcımlara, yan -
Azad ol.

Sevməsən torpağı qoynunda
məzar yoxdu sənə,
Onu peşkəş eləmə hər ötənə,
Bu atılmış Vətənə
Övlad ol.

Sözümün hikkəsi vicdanını
bəlkə oyada,
Sənə miras olanı vermə yada,
Ya ucal ərşə, ya da
Bərbad ol.

Ruhun ölmüş, o sükunət
bədənin canlı qəbir,
Yatmısan, səndə nə səs var, nə səmir,
Bu coşan qəlbimə gir
Fəryad ol.

Olma öz nəfsin üçün düşmən
önündə baş əyən,
Gələcək nəslə qürur bəxş eləyən,
Məni xatırla deyən
Əcdad ol.

Haqsızı, yolsuzu susdurmağa
çatmırsa gücün,
Barı, haqqın dilinə vurma düyün,
Özün öz nəfsin üçün
Cəllad ol.

Arif, ustad sayılırsan şüəra içrə, vəli,
Həqqi icranın əməldir təməli,
Sözə çatdır əməli
Ustad ol.

***

Küsdümü səndən, görən, azadə çağlar, ey Vətən,
Dad edib ağlar səni sönmüş ocağlar, ey Vətən!

Torpağındır məlhəmi hicrində ağlar gözlərin,
Ağlama, çünki səninçün hamı ağlar, ey Vətən!

Çəkdiyi zülmü edib göz yaşı hər gündüz-gecə,
İsladır köksün əsir düşmüş bulağlar, ey Vətən!

Oldu viran vəhşi əllərdə çəmənlər, bağçalar,
Bayquşa mənzildi bülbülsüz budaqlar, ey Vətən!

Düzlərində gördüyüm al lalələrdir bir zaman,
İndi bu sinəmdəki həsrətli dağlar, ey Vətən!

Ölsə də düşmanə təslim etməyib öz yurdunu,
Qanlı torpağın şəhid canlar qucaqlar, ey Vətən!

Mən sənin uğrunda canından keçən bir əsgərəm,
Varlığın yalnız məni dünyaya bağlar, ey Vətən!

Arifəm, ey kaş görüm azad səni, xürrəm səni,
Var ola Amin deyən dillər, dodaqlar, ey Vətən!

***

Sənsizliyə tab eyləyə bilsəydi bu könlüm
Məcnun kimi gündüz-gecə çöllərdə gəzərdim,
Məcnun kimi çöllərdə gəzərdim və dözərdim.

Qəlbimdə əgər bilsə idim vəslə güman var,
Köksümdəki hər bir ucalan dağı çapardım,
Köksümdəki hər dağı çapardım və tapardım.

Olsaydı əgər mümkün o dünyaya gedəndə
Bir dəfə səni görməyimi arzu edərdim,
Bir dəfə səni arzu edərdim və gedərdim.

Getdin, nədi sevda qəminin zilləti bildim,
Gəlsəydin əgər sevgidəki zövqü bilərdim,
Gəlsəydin əgər zövqü bilərdim və ölərdim.

Bəxt ulduzumu olsa idi görməyə imkan,
Zülmətlər içindən özümə bir yol açardım,
Zülmətlər içindən yol açardım və qaçardım

***

Yaxdın oda, ey qönçə, məni lal baxışınla,
Qarət elədin qəlbimi qumral baxışınla.

Zülmət gecədir könlüm evi, ey gözü şəhla,
Bəxtim üzünə bir yol işıq sal baxışınla.

Bir şahsən, ey yar, iki gözdür sənə ləşkər,
Əncam elə bir et məni işğal baxışınla.

Bax səmtimə, dəl bağrımı, sevdalınam, ey gül,
Can almağa meylin var isə, al baxışınla.

Dün rəhm elədin bir dəfə axir mənə baxdın,
Bilməzdim olar can belə bihal baxışınla.

Tök qanımı kirpiklərin ilə, məni şad et,
Sal qəlbinə biganələrin xal baxışınla.

Son dəfə qərib Arifə eşq ilə nəzər sal,
Bir ömür xəyalında belə qal baxışınla.



# İnsan haqları və azadlıqları dövlət siyasətinin əsasını təşkil edir



**"Hər bir insan mənsub olduğu irqdən, cinsiyyətdən, dildən, dindən, siyasi və digər baxışlardan, milli və sosial mənşədən, mülkiyyətdən, doğum və başqa hallardan asılı olmayaraq təmin olunmuş insan haqlarına və hüququna malikdir"... Azərbaycan Respublikası müstəqilliyini bərpa etdiyi ilk illərdən başlayaraq, Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə hüquqi, demokratik dövlət quruculuğuna başladı. Ölkəmizin apardığı siyasət insan hüquq və azadlıqlarının qorunmasına diqqəti artırdı. Milli insan hüquq və azadlıqları standartlarının beynəlxalq hüquq normalarına uyğunlaşdırılması məqsədilə tədbirlər görüldü.**

Qəbul edilmiş normativ hüquqi aktlara uyğun olaraq, ədalət prinsipinə əsaslanan üçmərtəbəli məhkəmə sistemi və konstitusiya nəzarəti yaradıldı. Vətəndaş cəmiyyətinin normal inkişaf etdirilməsi məqsədilə zəruri addımlar atıldı. "Gender bərabərliyi", "Qadın və uşaq hüquqları" kimi beynəlxalq normalara cavab verən qanunlar qəbul edildi. Azərbaycan Respublikasının dövlət quruculuğunda siyasi mədəniyyət, vətəndaşların hüquq və azadlıqlarına hörmət, qanunvericiliyin aliliyi və demokratik prinsiplərin təbliği mühüm amil kimi qiymətləndirilir. Hüquqi, demokratik və vətəndaş cəmiyyəti dövlət quruculuğunda inamlı və qətiyyətli addımlarını atan müstəqil Azərbaycan Respublikası 1991-ci ildə qəbul etdiyi müstəqillik haqqında Konstitusiya Aktından irəli gələn müddəalar 1995-ci ildə Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə qəbul olunmuş insan hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi kimi Əsas Qanunumuzun qayəsini təşkil edir. Dövlətimiz hər bir vətəndaşın hüquq və azadlıqlarının müdafiəsinə təminat verir. Azərbaycan Respublikası insan hüquqlarının qorunması ilə bağlı beynəlxalq sazişlərə qoşulub.

Ölkəmizdə bu sahə üzrə elmi-tədqiqat institutu yaradılıb. Elmi-tədqiqat institutu normativ-hüquqi aktlarının insan hüquq və azadlıqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, hüquq mexanizmlərşnin təkmilləşdirilməsi ilə bağlı fəaliyyət göstərir. Azərbaycan Respublikasında demokratik, hüquqi dövlətin, qanunun aliliyi, insan hüquqları və sosial ədalətin fundamental əsaslarının möhkəmləndirilməsi məqsədilə ölkə başçımız cənab İlham Əliyev tərəfindən 2011-ci il dekabr ayının 27-də "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" qəbul olunub.

Milli Fəaliyyət Proqramında əhalinin müxtəlif həssas qrupuna aid olan hərbi qulluqçular, qadınlar, uşaqlar, ahıllar, əlillər və sairənin hüquqlarının təmin edilməsində səmərəliliyin artırılması məqsədilə fəaliyyət istiqamətləri müəyyən olunub. Respublikamızda aparılan islahatların mədəni-mənəvi sosial yönümlü və əhalinin sosial müdafiəsi tədbirləri dövlətimizin mədəni-mənəvi siyasətində mühüm yer tutur. Ölkəmiz demokratik yolla inamla irəliləyir.

Respublikamızda bunun üçün zəruri olan təsisatlar və hüquqi baza artıq formalaşmışdır. Siyasi partiyaların, ictimai təşkilatların fəaliyyət göstərməsi, mətbuat orqanlarının sərbəst şəkildə çıxması siyasi plüralizm, fikir azadlığı tam şəkildə təmin olunub.

Azərbaycan ictimai-humanitar, elmi, mədəni proseslər məsələsinin təbliğində və təşviqində kənarda qalmadı. Azərbaycanın dövləti ötən illər ərzində bir sıra nüfuzlu beynəlxalq mədəni humanitar tədbirlərə ev sahibliyi etməsi xalqlar arasında dialoqa önəm verməsinin bariz nümunəsidir. Azərbaycan dövlətinin mədəniyyət siyasətinin əsas prioritetləri beynəlxalq hüquq normaları və prinsipləri ilə tənzimlənən dövlətlərarası münasibətlərə hörmət bəsləməkdən, beynəlxalq və regional münasibətlərin sülh və danışıqlar yolu ilə həll edilməsindən və bütün dövlətlərin suveren hüquqlarına hörmətlə yanaşmaqdan ibarətdir.

Azərbaycan mədəniyyəti dünyaya inteqrasiya yolunda çətin və şərəfli bir yol keçmiş, böyük nailiyyətlərə imza atmışdır.

Mədəniyyət sahəsində siyasət müstəqillik dövrünün tərkib hissəsi kimi qəbul olunub.

Digər ictimai-siyasi konsepsiyalarla yanaşı mədəniyyət konsepsiyası da cəmiyyətdə mühüm dərketmə və dünyagörüşü fuksiyasını yerinə yetirir.

Müasir cəmiyyətin bütün mədəni fəaliyyətinin başlıca məzmununu və əsas məqsədini təşkil edən insan şəxsiyyətininin formalaşması prosesini müəyyənləşdirməkdən ibarətdir. Mədəniyyət sistemi hər şeydən əvvəl, çox səviyyəli və milli xarakterin formalaşması deməkdir.

Dövlətimiz vətəndaş cəmiyyətinin əsas əlamətlərindən biri olan insanlarda siyasi mədəniyyətin formalaşması istiqamətində lazım olan bütün tədbirlərin görülməsini əsas məqsədlərindən bir sayır. Siyasi mədəniyyət, vətəndaşların və hakimiyyətin qarşılıqlı münasibətlərin tənzimlənməsi prosesinə geniş diqqət ayırır.

**Bu gün Respublikamızda insan hüquq və azadlıqlarının müdafiəsi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətinin əsasını təşkil edir. Ulu öndərimiz Heydər Əliyev tərəfindən təməli qoyulmuş insan hüquqları və azadlıqları sahəsində strategiyanın məntiqi davamı insan hüquqları və azadlıqlarının hərtərəfli həyata keçirilməsinə, icra mexanizmlərinin təkmilləşdirilməsinə zəmanət verir.**

**Hazırladı:**
**Rüstəm Hacıyev**


AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# 2025-ci ildə Türkiyənin arxeoloji kəşfləri

**Minilliklər boyu sivilizasiyaların beşiyi olmuş Anadoluda yerləşən Türkiyə torpaqları yerin altından üzə çıxan ümumbəşəri irsi aşkara çıxarmaqda davam edir. Ölkənin şərqindən qərbinə, şimalından cənubuna qədər uzanan bu ərazilər insanlıq tarixini formalaşdırmış sivilizasiyaları əks etdirən əsl açıq hava muzeyi təsiri bağışlayır.**

Bu zəngin irsi ön plana çıxarmağı hədəfləyən "Gələcək üçün miras" (Legacy to the Future) layihəsi ölkə üzrə arxeoloji tədqiqatların miqyasını genişləndirərək Türkiyədə arxeologiya sahəsində yeni və dinamik bir mərhələnin əsasını qoyur. Layihə çərçivəsində ötən il müxtəlif dövrlərə və sivilizasiyalara aid çoxsaylı artefaktlar aşkar edilib. Aşkar edilən bu tapıntılar bəşəriyyətin dünya ilə münasibətlərinə dair yeni baxış bucaqları təqdim edir, 2025-ci ili isə arxeoloji baxımdan xüsusi əhəmiyyətə malik bir il kimi ön plana çıxarır. Kəşflər həm arxeoloji məkanlarda ziyarətçi təcrübəsini zənginləşdirib, həm də mədəni irsin beynəlxalq miqyasda tanıdılmasına töhfə verib. Gəlin, ötən ilin Türkiyədə qeydə alınan ən diqqətçəkən arxeoloji tapıntılarına birlikdə nəzər salaq.



### *Neolit dövrünə aid kəşflər*

Şanlıurfa ərazisində yerləşən Neolit dövrü qazıntı sahələrini əhatə edən və 2025-ci ildə fəaliyyətinin 5-ci ildönümünü qeyd edən Taş Tepeler layihəsi ötən il mühüm elmi kəşflərlə yadda qalıb. Karahantəpədə üzərində üç heyvan fiquru təsvir olunan kiçik bir qab aşkar edilib. Mütəxəssislərin fikrincə, bu tapıntı bu günə qədər məlum olan ən qədim üçölçülü mifoloji təsvir hesab olunur. Həmçinin, üzərində insan sifəti həkk olunmuş T formalı sütun da məhz bu ərazidə üzə çıxarılıb.

UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil olan Göbəklitəpədə isə divara yerləşdirilmiş insan fiquru aşkar edilib. Arxeoloqlar bu fiqurun nəzir məqsədilə təqdim olunmuş qurbanlıq obyekt olduğunu bildirirlər. Sayburç ərazisində isə ağzı tikilmiş halda təsvir olunan, dünyasını dəyişmiş insana aid insan fiquru tapılıb. Sefertəpədə aparılan qazıntılar zamanı iki insan üzlü relyef və ikiüzlü muncuq da gün üzünə çıxarılıb. Bu tapıntılar Neolit dövrünün inancları və simvolik dünyası barədə mühüm məlumatlar təqdim edir.

### *Qədim Troya dövründə zənginlik və hakimiyyət rəmzləri*

Çanaqqala ərazisində yerləşən Troya antik şəhərində aparılan davamlı arxeoloji qazıntılar zamanı Erkən Tunc dövrünə (təxminən e.ə. 2500-cü il) aid qızıl broş və nadir yeşim daşı aşkar edilib. Məlumata görə, yeşim daşının vaxtilə dəbdəbəli bir əşyanın tərkib hissəsi olduğu ehtimal olunur. Sosial status və hakimiyyət rəmzi kimi istifadə edilən bu qızıl broş dünya üzrə məlum olan cəmi üç nümunədən ən yaxşı qorunmuşu hesab edilir. Mütəxəssislərin fikrincə, tapıntı son 100 ilin ən mühüm tipoloji və tarixi arxeoloji kəşflərindən biri kimi dəyərləndirilir.

Muğlanın Datça bölgəsində yerləşən Kızlan Osmanlı gəmi batığı ərazisində aparılan sualtı arxeoloji qazıntılar Osmanlı dəniz tarixinə işıq salan mühüm tapıntılarla nəticələnib. XVII əsrə aid olduğu müəyyən edilən və Türkiyədə bu dövrə məxsus yeganə məlum Osmanlı gəmi batığı sayılan bu ərazidə diqqətçəkən artefaktlar aşkar edilib.

Qazıntılar zamanı 30-dan çox tüfəng, 50-dən artıq qumbara, minlərlə güllə, Osmanlı dövrünə aid ən böyük tütün çubuqları (lülələr) kolleksiyası, eləcə də Çin istehsalı olan çini məmulatlar gün üzünə çıxarılıb. Bu tapıntılar Osmanlı dövründə dəniz ticarəti, hərbi təchizat və gündəlik həyat barədə dəyərli məlumatlar təqdim edir.

Qərbi Anadolunun ən iri Tunc dövrü yaşayış məskənlərindən biri sayılan Kütahyanın Tavşanlı Höyük ərazisində aparılan arxeoloji qazıntılar zamanı yaşı təxminən 4 500 il olan idol fiqurları aşkar edilib. Mərmər, sümük və terrakotadan hazırlanmış bu fiqurlar ocaq ətrafında düzülmüş vəziyyətdə tapılıb. Alimlərin fikrincə, tapıntılar həmin dövrün dini inancları və ibadət praktikaları barədə mühüm və dəyərli məlumatlar verir.

### *Qara dənizdə ilan saçlı Meduza təsviri*

Bartın vilayətinin Amasra rayonunda yerləşən qədim Amastris şəhərində, yaşı təxminən 2 000 il olan stoa "Gələcək üçün miras" (Legacy to the Future) layihəsi çərçivəsində orijinalına sadiq şəkildə bərpa olunur. Bərpa işləri zamanı stoada nadir rast gəlinən, gülümsəyən Meduza təsviri aşkar edilib. Mifologiyada Meduza saçları ilanlardan ibarət olan, iti dişli və ona baxan hər kəsi daşa çevirən qorxunc qadın məxluq kimi tanınır. Bu qeyri-adi təsvir Qara dəniz bölgəsində antik dövr incəsənətinə dair maraqlı nümunə kimi dəyərləndirilir.

### *Efesdə Serapisə həsr olunmuş daha bir tapıntı*

İzmir ərazisində yerləşən və UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil olan Efes antik şəhərində üzərində Misir tanrısı Serapisin relyefi olan terrakota buxurqabı aşkar edilib.

Buxurqabının arxa hissəsində yer alan yazı sayəsində bu tapıntının daha əvvəl Teras evlərində üzə çıxarılmış eyni tipli artefaktla əlaqəli olduğu müəyyən edilib. Mütəxəssislər bu faktın Efesdə oxşar məmulatlar istehsal edən bir emalatxananın mövcudluğunu və ya bu cür məhsulların mütəmadi ticarət dövriyyəsində olduğunu göstərdiyini bildirirlər. Karaman ərazisində yerləşən Topraktepe (Eirenepolis) antik şəhərində aparılan arxeoloji qazıntılar zamanı eramızın VII-VIII əsrlərinə aid beş ədəd kömürləşmiş çörək tapılıb.

Üzərində Malta xaçı naxışları və İsa Məsihin təsviri olan bu çörəklərin erkən xristian mərasimlərində istifadə edilən sakramental çörəklər olduğu ehtimal edilir. Mütəxəssislərin fikrincə, bu nadir tapıntılar dövrün dini ayinləri və inanc sistemi barədə qiymətli məlumatlar təqdim edir.

### *Vanda ən iri saxlama kompleksi kimi dəyərləndirilən saxsı küplər*

**Van vilayətinin İpekyolu rayonunda, Erek dağının ətəklərində yerləşən Kevenli qalasının xarabalıqlarında aparılan arxeoloji qazıntılar zamanı Urartu dövrünə aid mühüm tapıntılar üzə çıxarılıb. Qazıntılar nəticəsində üzərində mixi yazılar olan, yağ, taxıl və müxtəlif içkilərin saxlanılması üçün istifadə edilmiş 76 ədəd saxsı küp (iri saxlama qabı) aşkar edilib. Mütəxəssislərin qiymətləndirməsinə görə, bu saxsı küplər toplusu indiyədək Van ərazisində müəyyən edilmiş ən böyük saxlama kompleksi hesab olunur. Tapıntılar Urartu dövlətinin təsərrüfat sistemi, ərzaq ehtiyatlarının idarə olunması və iqtisadi strukturu barədə dəyərli məlumatlar təqdim edir.**

**Sübhan**

## *TƏBRİK*



**AzETN Geologiya və Geofizika İnstitutu Analitik cihaz və avadanlıqlardan istifadə mərkəzinin rəhbəri əməkdar mühəndis Nazim Məhərrəm oglu Sadıqovu dogum günü münasibətilə ürəkdən təbrik edir, uzun ömür, cansağlığı və işində yeni ugurlar arzulayıram. Bütün istəkləri çin olsun inşallah.**

**Hörmətlə: Tahir Abdulov (Uluqaya) şair-publisist**

## *Əməkdar mədəniyyət işçisi vəzifəsindən azad edilib*



**Əməkdar mədəniyyət işçisi Mehriban Ələkbərzadə vəzifəsindən azad edilib.**

Adalet.az xəbər verir ki, bu barədə əməkdar artist Mehriban Xanlarova sosial şəbəkə hesabında məlumat verib.

O, " Mədəniyyət Nazirliyinin dövlət teatrlarının yeni əsasnamələrini, struktur və stat cədvəllərini təsdiqləyib. " Teatr və teatr fəaliyyəti haqqında" qanunun tələblərinə uyğun olaraq, qəbul edilən qərar nəticəsində dövlət teatrlarında bədii rəhbər , baş rejissor , baş rəssam və digər buna bənzər vəzifələr ləğv edilib." Paylaşımında yazıb.

## *Səmimi Fərhad: "Bu, sistemli tənqid deyil, təhrikedici üslubdur"*



**Juranlist Orxan Saffarinin Xalq artisti Vidadi Həsənovla bağlı yazdığı yazı aktyorun həmkarları tərəfindən xoş qarşılanmayıb.**

Aktyor Səmimi Fərhad sosial şəbəkə hesabında sözügedən yazıya münasibət bildirib. Jurnalistin Vidadi Həsənovu istedadsız adlandırması həmkarları və sosial şəbəkə istifadəçiləri tərəfindən xoş qarşılanmayıb. Aktyor Səmimi Fərhad jurnalistin bu addımın peşə əxlaqına zidd hərəkət adlandırıb: "Peşə əxlaqı olmayan, oxunsun deyə ağlına nə gəldi yazanlardan biri, Vidadi Həsənov haqqında belə bir yazı yazıb. Amma özlərindən birinə bir söz deyən kimi (Hətta heçnə dememiş) bütün "zurnalist" tayfası tökülür üstümüzə. Səhv olduğunu bildikləri halda belə onu müdafiə edirlər. Burada həqiqət yox, qrup loyallığı əsas meyar kimi çıxış edir. Belələrinin peşə əxlaqı olmasa da, həmkar həmrəyliyi var. Paradoks ondadır ki, etik boşluq həmrəyliklə kompensasiya olunur.Bizim aktyor tayfası isə məndən ötsün, qardaşma dəysin prinsipi ilə yaşayır. Bu yanaşma isə sənət mühitində strukur zəifliyinin göstəricisidir. Paylaşmadan əvvəl bir neçə başqa yazısına da baxdım. Müəllifin ümumi üslubu və analitik çərçivəsi aydın görünür. Adam qıcıq yaradan bir üslub seçib, daş atmadığı bostan qalmayıb. Bu, sistemli tənqid deyil, təhrikedici üslubdur.Habil Əliyev Akif İslamzadə vs Bu adların çəkilməsi arqument yaratmır, sadəcə simvolik fiqurlar üzərindən diqqət çəkmək cəhdidir. Vidadi müəllimin ayağı biləni, sənin başın bilmir! Kişinin sənətini qoyub qırağa, siqaret çəkib, məsləhət verməsindən danışırsan.Şəxsən mən inanmıram Vidadi müəllim sənə məsləhət versin. Çünki o, çox yaxşı bilir ki, quyuya su tökməklə quyu dolmaz! Mənim kimi netytrallığını qoruyan adama bu yazını yazdırmısansa deməli istədiyinə çatmısan".

**Əntiqə**

## *Rəqsanə: "Mənim daşım nə yaman ağır olub"*

**Jurnalist Səidə Bəkirqızı ilə müğənni Rəqsanə İsmayılova arasında qalmaqal bitmir.**

Adalet.az bildirir ki, müğənni onun haqqında danışan aparıcıya instagram hesabında canlı yayım zamanı cavab verib. O ifadəsində xoşagəlməz ifadələr işlədib. Müğənninin aparıcını təhqir etməsi, onu özündən çıxarıb.

Belə ki, aparıcı bu barədə hüquqi müstəvidən ölçü götürəcəyini söyləyib. R. İsmayılovanın S.Bəkirqızının atası haqqında danışması aparıcıya xoş gəlməyib.

R.İsmayılova isə fotosesiyasına görə onun həyat yoldaşını təhqir etməsinə susmayacağını bildirib:



"Məndən nə gözləyirdi bəs?! Etdirdiyim fotosesiyaya görə həyat yoldaşımı alçaldır. Kişiliyinə söz deyir. Ayıb deyil?! Mənim yoldaşım bilir ki, onun arvadı müğənnidir. Və mənim fotosesiyada müxtəlif libaslar geyinməyim çox normaldır. Bunu bütün dünya edir. Mənim daşım nə yaman ağır olub. Bir günlük gəl mənim ərim sənə kişiliyini sübut eləsin. O həddə çatdırırsan ki, sənə bu sözlər deyilir. Yoldaşım icazə verir, belə şəkillər çəkdirirəm. Bundan kimə nə? Niyə yanırsınız"?!

**Əntiqə**

**Həkimli Şahmar Qadir oğluna məxsus İsmayıllı YAP-nın vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

Faiq Qismətoğlu **Zülfüqar Məmmədova** qardaşı **İbrahim Məmmədovun** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**Təsisçi və baş məsləhətçi:** Aqil ABBAS

**Baş redaktor:** İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

**Tiraj: 1500**
**Sifariş: 264**
Çapa imzalanmışdır: 29.01.2026